www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 24-25 yanvar 2015-ci il Şənbə № 16 (6044) Qiymәti 40 qәpik

**Xəbər**

## Bakıda psixotrop dərmanlar satan firma aşkarlandı

yazısı səh.2-də

**Gündəm**

### Kral öldü, yaşasın kral Salman!



91 yaşında vəfat edən Səudiyyə Ərəbistanı kralı Abdullahın yerini Ər-Riyad şəhərinin qubernatoru şahzadə Əmir Salman tutdu; siyasi partiyaların fəaliyyət göstərmədiyi neft səltənətində bundan sonra nələr olacaq?

yazısı səh.9-da

### Pənah Hüseyn seçki bloku yaratdıqlarını təsdiqləmədi

yazısı səh.4-də

### AŞPA-da Elmar Hüseynov və Rafiq Tağının qətli müzakirə olunacaq

yazısı səh.8-də

### Bölgə müxalifəti seçkiyə getməyin tərəfindədir, ancaq...

yazısı səh.4-də

### Müsavat deputatlığa namizədlər siyahısını hazırlayır

yazısı səh.8-də

### Medianın vəziyyəti deputatlarla müzakirə olundu

yazısı səh.4-də

### Avro da ucuzlaşır

yazısı səh.12-də

### Kəlbəcərli köçkünlər Gəncə İcra Hakimiyyətinə yürüşə hazırlaşır

yazısı səh.13-də

### "Asan xidmət"də bıçaqlanma olub?

yazısı səh.14-də

### Məktəblərdə təhlükəsizlik necə təmin olunur?

yazısı səh.12-də

### "Sənaye ili"ndə sənayedə azalma

yazısı səh.13-də

### Səudiyyə kralının ölümü nefti bahalaşdırdı

yazısı səh.9-da

## Cəbhədəki son gərginliyin ilginc pərdəarxası

# AZƏRBAYCAN YENİ "MİNİ-MÜHARİBƏ" ASTANASINDA - ŞƏRH, TƏFƏRRÜAT

Münaqişə zonasında hərbi əməliyyatların bərpası riski təzədən artıb; son hadisələrdə yenə "Kremlin barmağı" görünür; təmas xəttindəki, Ukraynadakı gərginlik və Ermənistanda güclənməkdə olan anti-Rusiya ovqatı arasında hansı bağlılıq var?; Xarici "beyin mərkəzləri" də müharibə anonsu verir...

yazısı səh.5-də




# Hakimiyyətlə Qərbin münasibətləri yeni mərhələdə

Prezidentin Merkel və Corc Sorosla görüşünün pərdəarxası; Azərbaycandan Avropa turnesinə ilginc reaksiyalar

yazısı səh.6-da



### İntiqam Əliyevin məhkəməsində qalmaqal yaşandı

yazısı səh.3-də



*İlyas İsmayılov:*

### "Qorbaçovun arvadı zəng edirdi ki, "bu işi xətm edin"

yazısı səh.10-da



*Çingiz Qənizadə:*

### "İşıqforların tənzimlənməsi Nəqliyyat Nazirliyindən alınıb yol polisinə verilsin"

yazısı səh.2-də

## 24 yanvar 2015

YENİ MÜSAVAT
N 16 (6044) 24 yanvar 2015



# Nazir paytaxt polisinin fəaliyyətindəki nöqsanlardan danışdı

**Yanvarın 23-də daxili işlər naziri general-polkovnik Ramil Usubovun iştirakı ilə Bakı Şəhər Baş Polis İdarəsində 2014-cü ilin yekunlarına həsr olunmuş geniş əməliyyat müşavirəsi keçirilib.**

O, bildirilib ki, ötən il qanunla müəyyən edilmiş vəzifələr, o cümlədən vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi, cinayət törətmiş şəxslərin məsuliyyətə cəlb olunması istiqamətində məqsədyönlü tədbirlər davam etdirilsə də, paytaxt polisinin xüsusən idarəçilik fəaliyyətində nöqsanlara yol verilib.

Bakı Şəhər Baş Polis İdarəsinin rəisi, polis general-mayoru Mirqafar Seyidov hesabat dövründə cinayətkarlıqla mübarizə, ictimai qaydanın və təhlükəsizliyin təmini, xidməti fəaliyyətin digər sahələrində həyata keçirilmiş tədbirlər və qarşıda duran vəzifələr barədə geniş məruzə ilə çıxış edib.

Müşavirəyə yekun vuran nazir 2014-cü ildə paytaxtın polis orqanlarının cinayətkarlıqla mübarizə və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsindəki fəaliyyətini ümumən müsbət qiymətləndirib, müşavirə iştirakçılarının diqqətini qarşıda duran bir sıra həlli vacib məsələlərə yönəldib, tapşırıq və tövsiyələrini verib, nöqsanların aradan qaldırılması yollarını göstərib.

O, ötən ilin sonlarında Bakı şəhər Baş Polis İdarəsi rəhbərliyinin idarəçilik və təşkilatçılıq fəaliyyətinin yoxlanıldığını, nəticələrinin Naziryanı əməliyyat müşavirəsində müzakirə olunaraq qarşıda duran vəzifələrin müəyyən edildiyini, aşkarlanmış nöqsanların planlı surətdə aradan qaldırılmasının zəruriliyini vurğulayıb.

Ramil Usubov Baş İdarənin və onun struktur qurumlarının rəislərindən fəaliyyətin təkmilləşdirilməsini, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi məqsədilə analitik işin səviyyəsinin yüksəldilməsini, bu əsasda idarəçilik və təşkilatçılıq fəaliyyətinin günün tələbləri səviyyəsində qurulmasını, icra və xidməti intizamın daha da möhkəmləndirilməsini tələb edib.

# Qafqazinfo.az saytına misli görünməmiş hücum

## Elbrus Ərud: "Bu günə qədər belə bir hücum qeydə alınmayıb"

**Bu gün saat 17 radələrindən etibarən qafqazinfo.az saytına misli görünməmiş haker hücumu baş verib. Bu barədə saytın redaktoru Elbrus Ərud musavat.com-a açıqlamasında bildirdi. Onun sözlərinə görə, 1 saniyədə 300 GB hücum gəlir və son nəticədə saytın İP-ləri bloka düşüb: "Hazırda bu hücumun dayanmasını gözləyirik. Yarım saatdır ki, bu vəziyyətdir. Texniki xidmət deyir ki, bu günə qədər hələ belə bir hücum qeyd alınmayıb".**

Müsahibimiz hücumun mənbəyi barədə konkret ad çəkmək istəmədi. Onun sözlərinə görə, dünəndən etibarın saytda xeyli maraqlı, eləcə də kəskin yazılar dərc edilib: "Kimdən şübhələnməyimiz barədə konkret ad çəkmək istəmirik. Bu, qeyri-peşəkarlıq olar. Gün ərzində saytda ən azı 100 material dərc edilir. Fakt ondan ibarətdir ki, sayt hər zaman işlədiyi kimi işləyib. Amma ola bilsin ki, hansısa material kiminsə marağına uyğun gəlməsin. Bütün hallarda saytın öz fəaliyyətini yenidən bərpa etməsi üçün çalışırıq".

❑ SEVİNC

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# Prezident olimpiada zamanı müharibələri dayandırmağa çağırdı




**"Ümidvarıq ki, bütün ölkələr "Bakı-2015" ilk Avropa Oyunlarına güclü atletlərini göndərəcəklər. Çünki Avropa Oyunlarının standartları müəyyən dərəcədə məhz Bakıda müəyyənləşdiriləcək. Oyunların təşkil edilməsi forması ola bilsin ki, digər şəhərlər üçün də örnək olacaq. Ümidvaram ki, növbəti Avropa Oyunlarını öz ölkəsində qəbul etmək arzusunda olan bir çox namizədlər də olacaq".**

Bunu Davosda keçirilən "Bakı-2015" ilk Avropa Oyunlarının təqdimatı mərasimində çıxış edən Azərbaycan prezidenti İlham Əliyev deyib.

Azərbaycan prezidenti qeyd edib ki, bu oyunların Bakıda keçirilməsi haqqında qəbul edilmiş qərarın bir səbəbi də atletlərimizin nailiyyətləri ilə bağlıdır: "Azərbaycan müstəqillik illəri ərzində özünü həm də idman ənənələri ilə seçilən ölkə kimi tanıdıb. Sonuncu London Olimpiya Oyunlarındakı iştirakımız ölkəmiz üçün çox vacib olub. 10 medal qazandıq, onlardan ikisi qızıldır. Biz dünya ölkələri arasında 30-cu, Avropa ölkələri arasında isə 15-ci olduq. Zənnimcə, səbəblərdən biri bu idi. Digər səbəb Azərbaycanın sürətli inkişafı ilə bağlıdır. Müstəqillik illəri, xüsusən də son on il ərzində iqtisadiyyatımız üç dəfədən çox artıb. Davos Dünya İqtisadi Forumu qlobal rəqabətlilik reytinqinə görə Azərbaycanı 38-ci yerdə qərarlaşdırır. İqtisadi inkişaf və müasir infrastruktur Oyunların Bakıda keçirilməsi barədə qərarın qəbulunda rol oynadı".

İdmanın yer üzünün insanlarını birləşdirdiyini deyən Azərbaycan prezidenti qeyd edib ki, olimpiya oyunları zamanı bütün müharibələr dayandırılmalıdır: "Bir-biri ilə müharibə şəraitində olan ölkələrin idmançıları yarışlar zamanı ədalətli şəkildə mübarizə aparırlar, əllərini sıxır və qalib gələni təbrik edirlər. Budur idman. Bu, olimpiya hərəkatını və bütün dünya xalqlarını birləşdirən nadir fürsətdir. Beləliklə, ümid edirik ki, Avropa Oyunları dostluq, tərəfdaşlıq oyunları olacaq. Qələbələr hamımız tərəfindən qeyd ediləcək və mən bu fürsətdən istifadə edərək sizin hamınızı dəvət etmək istərdim. Bakıda qonağımız olun! Ümidvaram ki, sizi iyunun əvvəlində şəhərimizdə görəcəyik və bu cür yüksək nailiyyəti bir yerdə seyr edəcəyik".

# "Avropa Azərbaycan demokratiyasını neftə və kürüyə qurban verib"

## Həbib Müntəzir prezidentlərin mətbuat konfransındakı aksiyadan danışdı

**Xəbər verdiyimiz kimi, Azərbaycan prezidenti İlham Əliyev yanvarın 21-də Berlində Almaniya kansleri Angela Merkellə görüşüb. Görüşün ardınca dövlət başçıları birgə mətbuat konfransı keçiriblər. Konfrans zamanı bloger Həbib Müntəzir Azərbaycan prezidentini siyasi məhbusları azad etməyə səsləyib.**

BBC Azərbaycana müsahibəsində bu aksiya barədə danışıb. Deyib ki, o, öncədən Meydan TV-nin müxbiri olaraq qeydiyyatdan keçib, daha sonra prezidentin və kanslerin gəlişini gözləyib: "Onlar gəldilər, çıxış etdilər. Sual vermə əsnasında mən müraciət etdim sualların ünvanlanmasına formal olaraq icazə verən xanıma. O bildirdi ki, "təəssüf ki, siz sual verə bilməzsiniz, çünki siz öncədən qeydiyyatdan keçməmisiniz." Mən də bildirdim ki, mən zatən qeydiyyatdan keçmişəm, keçməsəydim zala daxil ola bilməzdim. Onlar da vurğuladılar ki, yox, söhbət sualın verilməsinin qeydiyyatından gedir. Mən təəssüf ki, bu proseduru bilmirdim".

H.Müntəzir bildirib ki, konfransda 4-5 nəfər sual verə bilib. A.Merkelə və İ.Əliyevə sual hazırladığını xatırladan bloqqer buna imkan yaradılmadığı üçün konfransın yekunlaşması ərəfəsində bir neçə dəfə "Azərbaycandakı siyasi məhbuslara azadlıq!" deyə şüar səsləndirib: "Ondan sonra bir neçə dəfə və ondan sonra oradakı bir neçə təhlükəsizlik xidmətinin nümayəndələri mənə yaxınlaşdılar və dedilər ki, "sizin icazəniz varmı bu binaya daxil olmağa?" Mən də dedim "əlbəttə" və sənədi göstərdim. Ondan sonra mənə heç bir söz demədilər, buraxdılar məni. Bütün baş verənlər bundan ibarət idi".

H.Müntəzir həmçinin deyib ki, son illər Almaniya ictimaiyyəti Azərbaycanda baş verən siyasi hadisələr barədə o qədər də məlumatlı deyil: "Daha çox Avroviziya ərəfəsi və ondan sonra istər alman mediasında, istər televiziya kanallarında Azərbaycan haqqında tənqidi və məlumatlandırıcı xarakter daşıyan verilişlər, xəbərlər və mövzular işlənilirdi. Çox güman ki, mən gözləyirəm ki, ilk Avropa Olimpiya oyunları ərəfəsində biz bu halın şahidi ola bilərik. Amma hər halda indiki məqamda istər Almaniya, istər Azərbaycan rəsmilərinin münasibətləri əvvəlki illərə nisbətən bir az daha yaxşıdır. Burada regional siyasi münasibətlər təbii ki, öz rolunu oynayır. Gərginləşən Avropa və Rusiya münasibətləri hökumətə yarayıb. Bu baxımdan bir növ Avropa rəsmiləri ilə münasibətlərdə müsbətə doğru addımlar atılıb. Təbii ki, burada Azərbaycan neftinin və Azərbaycan kürüsünün rolunu danmaq olmaz. Bu, danılmaz həqiqətdir ki, onun hesabına Avropa, təəssüflər olsun ki, Azərbaycan demokratiyasını neftə və kürüyə qurban verib, ən azından indiki məqamda".

❑ Hazırladı: Sevìnc

# "İşıqforların tənzimlənməsi Nəqliyyat Nazirliyindən alınıb yol polisinə verilsin"


Çingiz Qənizadə

**"Bakıda işıqforların tənzimlənməsi Nəqliyyat Nazirliyindən alınıb Yol polisinə verilsin". "Qafqazinfo" xəbər verir ki, bu təkliflə millət vəkili Çingiz Qənizadə Bakı şəhərində yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi üzrə fəaliyyətə həsr olunan tədbirdə çıxış edib.**

O bildirib ki, Nəqliyyatın İntellektual İdarəetmə Mərkəzinin rəhbərliyinə bir cavan oğlan qoyublar. O da kiminsə qohumudur deyə həmin vəzifəyə sahib olub. Sözügedən qurum yol hərəkətini səmərəli tənzimləyə bilmir".

Nəqliyyat Nazirliyinin Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzinin (NİİM) rəhbəri Elnur Abdullayevdir.

# Asim Mollazadə Avroparlamentdə çıxış edib

**Avropa Parlamentinin Cənubi Qafqaz üzrə nümayəndə heyətinin Avropa İttifaqı - Azərbaycan əlaqələrinin müzakirəsinə həsr olunmuş iclası keçirilib. Partiyanın Mətbuat Xidmətindən "Musavat,com"a daxil olan məlumata görə, iclasda Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə çıxış edib.**

O, Azərbaycan və bütünlükdə Şərq Tərəfdaşlığı ölkələrində mövcud olan münaqişələr, region ölkələrinin üzləşdiyi qaçqın problemini dilə gətirib. Avropa İttifaqını münaqişələrin və onlardan irəli gələn problemlərin həllində daha fəal olmağa səsləyib. Millət vəkili Azərbaycanın həm nəqliyyat qovşağı, həm də enerji sahəsində mühüm tərəfdaş kimi Avropa İttifaqı üçün əhəmiyyətinin günbəgün artdığına diqqət çəkib.

❑ Vüqar MURAD

# Nazirlik qanunsuz dərman satan firmanı bağladı

**Səhiyyə Nazirliyi "Murad Farm" MMC-nin fəaliyyətini dayandırıb. Bir neçə gün əvvəl mətbuatda Əhmədli qəsəbəsi, H. Aslanov metrosunun yanında Murad aptekdə şübhəli preparatların satışının aparılması ilə bağlı məqalə dərc edilmişdi.**

Məqalədə göstərilənləri yerində araşdırmaq üçün Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzinin mütəxəssisləri tərəfindən yanvarın 21-də Bakı şəhəri, Xətai rayonu, X. Məmmədov küçəsi, 2944A saylı məhəllə ünvanında fəaliyyət göstərən Murad Farm MMC-nə məxsus (lisenziya nömrəsi 026288, qeydiyyat nömrəsi 1612, verilmə tarixi 06.01.2011) aptek təşkilatında yoxlama keçirilib.

Nazirlikdən virtualaz.org saytına verilən məlumata görə, keçirilən yoxlama zamanı aptekdə satışı aparılan və dövlət qeydiyyatına alınmamış 46 adda dərman preparatı aşkarlanaraq müsadirə edilib. Həmçinin, yoxlama zamanı aptekdə reseptlə satılmalı olan psixotrop dərman vasitələrinin reseptsiz satışının aparılması və xüsusi saxlama rejimi tələb olunan termoləbil dərman vasitələrinin saxlanma şəraitinə riayət olunmaması faktları da müəyyən edilib.

Apteklərdə resept təqdim edilməklə buraxılmalı olan dərman vasitələrinin reseptsiz buraxılması faktına görə "Muad Farm" MMC-nə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə müvafiq olaraq protokol tərtib olunub.

Yuxarıda qeyd olunanları nəzərə alaraq Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən Murad Farm MMC-nə pərakəndə satış əczaçılıq fəaliyyətinə verilmiş xüsusi razılığın (lisenziyanın) fəaliyyəti dayandırılıb.

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
Telefon: (012) 434 93 01, 434 01 33



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**



# İntiqam Əliyevin məhkəməsində qalmaqal yaşandı

## Hüquq müdafiəçisinin vəsatətləri təmin olunmadı; hüquq müdafiəçisi meydan oxudu: “6 aydır susmağımın səbəbi bu idi ki...”

**Yanvarın 23-də Bakı Ağır Cinayətlər Məhkəməsində Hüquq Maarifçiliyi Cəmiyyətinin (HMC) sədri İntiqam Əliyevin ilkin məhkəmə hazırlıq iclası davam edib. Prosesdə tanınmış siyasətçilər, ictimai fəallar, xarici təşkilat və səfirliklərin nümayəndələri iştirak edirdilər.**

Proses saat 11:00-da başladı. İlk olaraq hakim Rasim Sadıqov məhkəmə heyəti, təqsirləndirilən şəxs, zərərçəkmişlər və müdafiə tərəfinin vəkilləri barədə proses iştirakçılarına məlumat verdi. Daha sonra İntiqam Əliyev özü barədə geniş danışdı.

**Keçən iclasdan fərqli olaraq, bu dəfə prosesdə zərərçəkmişlər də iştirak edirdi. Müdafiə tərəfinin vəkili Elton Quliyev çıxışında bir sıra vəsatətlər məhkəməyə təqdim etdi:** “Hesab edirik ki, təqdim etdiyimiz vəsatətlər işin məhkəməyə təqdim olunmasının qarşısını alır. İntiqam Əliyevə qarşı irəli sürülən əsas ittihamlardan biri guya onun layihələr əsasında qrantlar alıb, qeydiyyatdan keçirməməsi ilə bağlıdır. Bunlar qanunsuz sahibkarlıq kimi qiymətləndirilib. İntiqam bəyin ittihamların içərisində nəyi mənimsədiyi bilinmir. Zərərçəkmiş qismində elə şəxslərin adı yazılıb ki, onların ümumiyyətlə bu işə aidiyyəti yoxdur. Bu ittihamların İntiqam Əliyevlə heç bir əlaqəsi yoxdur. İki doğma bacının verdiyi ifadələr əsasında belə qondarma iş düzəldilib. Heç bir təsdiqi yoxdur. 20 cild olmasına baxmayaraq əsassızdır. Verdiyimiz vəsatətlərdə bunların hamısı əks olunub. Cinayət işinə xitam verilməsini xahiş edirik”.

Digər vəkillər də verilən vəsatətlə razı olduqlarını bildirdilər.

**İntiqam Əliyev də verilən vəsatətə münasibət bildirdi:** “Mən öncə qəfəsdən çıxarılmağımı xahiş edirəm. Çünki qəfəsdə heyvanları saxlayırlar. Bu insan ləyaqətini alçaldır. Hakimiyyət ləyaqətli insanlara qarşı bu addımları atmaqla onları sındırmaq istəyir. Bu hal müdafiəçilərimizlə normal ünsiyyətə ciddi mane olur”.

Hakim bu vəsatətin təmin edilmədiyini bildirdi.

**Bundan sonra İ.Əliyev çıxışına davam etdi:** “Sizə ”möhtərəm hakim" deməyə məcburuq. Yerimin qəfəsdən vəkillərimin yanına dəyişdirilməsi texniki məsələ idi. Burda da ədalətsiz oldunuz. Həbsimizdən sonra təcridxanada elə iyrənc qaydalar qoyulub ki, az qala bizi soyundurub vəkilin yanına buraxırlar. Dünən yazdığım vəsatətləri aldılar. Bizi məhkəmə gətirəndə soyundurub üstümüzdə axtarış aparırlar. İkinci dəfədir ki, məni tabut boyda yerdə məhkəmə gətirirlər. Tabutun içərisində hava yoxdur. Prokurora qəfəsdən çıxmağıma etiraz etdiyinə görə təşəkkür edirəm. Çünki düşündü ki, zaldakıların təcavüzünə məruz qala bilərəm. Leyla, Xədicə, Rəsul və İntiqam kimi insanların həbsi mübarizənin davamıdır. Bizə şərait yarandı ki, təcridxananın daxilində baş verən iyrənc əməllərin şahidi olaq. Həbsimizin arxasında siyasi motivlər dayanır. Həbs olduğum gün ofisim və evimdə axtarış aparılanda ailəmin şəxsi şeyləri olan kompüterlər aparıldı. İstintaqa aidiyyəti belə yoxdur. Bu biabırçılıqdır. Həbsimin səbəblərindən biri seçki saxtakarlıqları, işgəncələrlə bağlı həyata keçirdiyim işlərdir. Heç bir sənəd tərtib edilmədən bütün bu sənədlər torbalara doldurularaq aparılıb. İndiyə qədər hələ də heç biri qaytarılmayıb. İnsanın şəxsi həyatına qarışmaq əxlaqsızlıqdır. Özləri etiraf edirlər ki, müsadirə olunan kompüterlərdə işlə bağlı ciddi faktlar yoxdur. Amma bununla belə övladlarımın özəl həyatı ilə bağlı məlumatlar olan əşyalar qaytarılmır. İstədikləri vaxt kompüterdəki şəxsi, özəl məlumatları yaya bilər. Vəkilimin verdiyi bütün vəsatətlərlə razıyam".



**Vəkil Elçin Sadıqov** məhkəməyə vergilərlə bağlı vəsatət təqdim etdi: “Sənədlərdə göstərilir ki, HMC 65000 manat vergi ödəməli imiş. Biz də 67000 verginin ödənilməsi ilə bağlı sənədlər var. Hətta iki min artıq ödənilib. Bununla bağlı məhkəməyə müraciət etmişik. Qanunsuz olduğuna görə, vəsatətimizin təmin edilib, cinayət işindən bu ittihamların çıxarılmasını xahiş edirik”.

**Prosesin gedişində hakim səhhəti ilə bağlı hüquq müdafiəçisinə suallar verdi.** İ.Əliyev səhhətindən vacib məsələlərin olduğunu bildirdi. Onun tez-tez digər məhbusların adını çəkməsi hakimin qəzəbinə tuş gəldi. Rasim Sadıqov yalnız özü barədə danışmağı tələb etdi. İ.Əliyev təkcə özünün yox, bütün günahsız insanların hüquq müdafiəçisi olduğunu dedi: “Azad insan üçün qəfəs, yaxud bayırda olmağın mənası yoxdur. Mən və digər məhbusların səhhəti ilə bağlı verdiyimiz vəsatətlər istintaq tərəfindən rədd edilib...”

İ.Əliyev ona qarşı ittihamları şou adlandırdı.

İ.Əliyevin digər vəkili Şəhla Hümbətova HMC-nin adından köçürülən maliyyə ilə bağlı çıxış edib: “İstintaq materiallarında göstərilən maliyyə sənədlərinin imzalarına baxsaq, bunun İntiqam müəllimə heç bir aidiyyatının olmadığını görərik. Bununla bağlı ekspertiza təyin olunmayıb. 29 ödəniş olduğu halda, 77 göstərilib”.

Bu yerdə hakim vəkilin sözünü kəsərək, onun təkrarçılıq etdiyini bildirib. Bu proses iştirakçılarının və İ.Əliyevin etirazına səbəb olub.

**Vəkil Cavad Cavadov** həbs qətimkan tədbirinin ev dustaqlığı ilə əvəz edilməsi barədə vəsatət qaldırdı: “İ.Əliyev həbs ediləcəyi ilə bağlı xəbər alandan sonra xarici ölkəyə səfəri olub. Lakin o, həbs olunacağını bilə-bilə yenə geri qayıdıb. Demək onun istintaqdan yayınmaq fikri olmayıb. Onun ölkədən çıxışı da qadağan olunub. Biz bunların qanunsuz olduğunu bildirmişik. Artıq Avropa Məhkəməsi də bununla bağlı işə başlayıb. İstintaq artıq bitib. İntiqam müəllimin işə təzyiq etməsi mümkün deyil. Onun müalicə olunduğu klinikanın sənədlərini məhkəməyə təqdim edəcəm. Onun müayinə olunması ilə bağlı rəyi təqdim edirəm. Çünki burada İntiqam müəllimin həyatı məsələsi ortaya çıxıb”.

İntiqam Əliyev vəkilin çıxışının bu yerində ona öz etirazını bildirərək, çıxışa imkan vermədi. O, səhhəti ilə bağlı məsələnin gündəmə gəlməsini istəmədiyini söylədi. Hakim də təqsirləndirilən şəxsin ziddinə olduğuna görə vəkilin çıxışını kəsdi.

**Məhkəmənin sonuna yaxın İntiqam Əliyev onun üzünə duran mühasib və bacısı barədə danışdı:** “Əgər köçürülən pulların 1 manatı mənə gəlibsə, bunlar sübut olunsa, mən ağır cəzanı çəkməyə hazıram. Bu ölkədə hər şey bir mərkəzdən idarə olunur. Ekspertlər Ədliyyə Nazirliyinə tabedir. Mühasib Gülşən Orucova təkcə bizdə deyil, digər təşkilatlarda da mühasib idi. Gülşən Orucovanın şəxsi hesabı barədə bizə məlumatlar lazımdır. Çünki o bildirib ki, 1500-ə qədər pul alıb. Belə bir şey olmayıb. Burdakı bir jurnalistin yazdığı kimi, 500 milyonluq əmlakımı alıblar. Müsahibin şəxsi əmlakının araşdırılmasını tələb edirəm. Gülşən Orucovanın həbs olunmasını istəmirəm. Tanrı onun cəzasını verəcək. Onun bacısının da cəzalandırılmasını istəmirəm. Onsuz da o məsələ olmasa, başqa məsələ görə tutulası idim. İnsanlardan yenə xahiş edirəm ki, prosesə gəlməsinlər. Çünki baş verənlər biabırçı bir şeydir. Vicdanlı adam olduğumdan hesab edirəm ki, bu işin məsuliyyəti mənə düşür. Yetərincə böyük məbləğ bir nəfərin hesabına köçürülüb. 25 ildə pulsuz insanların haqlarını müdafiə etməyim bunu kompensasiya edir. Məsuliyyətim öz boynumdadır. 6 aydır susmağımın səbəbi bu idi. Hər birinizin gözlərinə baxanda fikirləşirəm ki, nə düşünürsünüz. Bütün bunlara baxmayaraq, məhkəməmə gəlirsinizsə, minnətdaram. Amma mən cinayət etməmişəm. O pulların bir qəpiyini də görməmişəm”.

Hakim İntiqam Əliyevin sözünü çıxışının bu yerində kəsdi. Bu, zaldakıların kəskin etirazına səbəb oldu. Rasim Sadıqov açıq şəkildə Orucova bacıları barəsində danışmamağı tələb etdi.

**İntiqam Əliyev yenə çıxışına davam etdi:** “Həbs olunacağımı bilirdim. Həmin vaxt Praqada idim. Orada sığınacaq ala bilərdim. Amma mən qayıtdım. Çünki günahsızam. 6 aydır həbsdəyəm. Bu 6 il də ola bilər. Bu müddət ərzində bir anda heyfsilənməmişəm ölkəyə qayıtdığıma görə. Çünki biz azadlıqda deyə biləcəyimiz sözləri burada da deyə biləcək insanlarıq. Gülşən Orucovanın nümayəndəsi Nemət bəy, Gülnar, Sadiq və Könül vicdanlı insanlardır. Deyəsən onları da inandırıblar. Məhkəmənin sonunda bu ittihamlar sübut olunsa, hər kəsdən üzr istəməyə hazıram. Qondarma hökm oxunmağı demirəm”.



Dövlət ittihamçısı İntiqam Əliyevin zərərçəkən tərəfdən bəzi şəxslərin vicdanlı olduğunu deməsinə narazılığını dilə gətirdi. Bunu prosesə təzyiq kimi qələmə verdi.

Hüquq müdafiəçisi tutulan iradlara belə cavab verdi: “Zərərçəkmişlərin 3-ü barəsində vicdanlı kəlməsini işlətdim. Başqaları vicdansız işlər gördüklərinə görə, təəssüf ki, onlar barəsində deyə bilmirəm. Təzyiq etmək prokurorluğa xas xüsusiyyətdir. Hökmün hansı məzmunda olacağı artıq məlumdur. İndiyə qədər gedən proses bunu deməyə əsas verdi”.

**Gülşən Orucovanın nümayəndəsi işin obyektiv araşdırılmasını tələb etdi:** “Hamı yalnız bu qızı ittiham edir. Araşdırma aparılsın, onda hər şey üzə çıxacaq. Heçnə zorla olmur”.

Müdafiə tərəfi nümayəndənin fikirlərinə etirazlarını bildirdilər.

Daha sonra çıxış edən zərərçəkmiş Gülşən Orucova indiyə qədər istintaqın obyektiv aparıldığını qeyd etdi: “4 aydır gedən istintaqdan razıyam. İş obyektiv aparılır”.

Prokuror son çıxışında verilən bütün vəsatətləri qanunsuz adlandırdı.

**Bundan sonra məhkəmə müşavirəyə yollandı. 5 dəqiqəlik müşavirədən sonra hakim vəsatətlərin heç birinin təmin olunmadığını , növbəti prosesin 3 fevral saat 11:00-da olacağını məhkəmə iştirakçılarının diqqətinə çatdırdı.**

**❑ Cavanşir ABBASLI**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 16 (6044) 24 yanvar 2015

**Siyasi partiyaların Demokratiya və İnsan Hüquqları Mərkəzindəki 11 partiyadan altısının -KXCP, Azərbaycan Xalq Partiyası, Azadlıq Partiyası, Böyük Azərbaycan Partiyası, Azad Demokratlar Partiyası, Liberal Demokrat Partiyasının seçki bloku yaratmaq barədə qərar qəbul etdikləri barədə xəbər aranı qatıb. Xatırladaq ki, bu xəbəri "Yeni Müsavat" qurumdakı təşkilatlardan birinin - Azadlıq Partiyasının sədri Əhməd Oruca istinadən yaymışdı.**

# Pənah Hüseyn seçki bloku yaratdıqlarını təsdiqləmədi

## AXP sədri: "Əhməd Orucdan məsələyə aydınlıq gətirməsini istəyəcəyik"

6 partiyanın sırasında adı keçən **AXP-nin sədri Pənah Hüseyn** Əhməd Orucun yanlış olaraq belə bir informasiyanı təsdiqlədiyini bildirdi. Pənah Hüseynin dediyinə görə, Mərkəzdəki partiyalardan altısının seçki bloku yaratmaq barədə qərarı olmayıb: "Belə bir təklif olub, müzakirə edilib və müzakirələr davam etdirilir. Hətta bununla bağlı bəzi sənədlərlə tanış olunub və bununla bağlı imzalar atılıb. Qərar olacaqsa bütün mövqelər bilindikdən sonra olacaq. Son iclasda iştirak edən 8 partiyanın hamısının rəyi bundan ibarət oldu ki, gələcəkdə bu partiyaların bir qismi və ya hamısı seçki blokuna çevrilsə belə, Demokratiya və İnsan Haqları Mərkəzinin fəaliyyəti davam etdirilsin. Yəni, Əhməd Orucun Mərkəzin seçki bloku ilə bağlı məsələdən asılı olmayaraq hər bir halda fəaliyyətini davam etdirəcəyi barədə dediklərindən başqa digər məlumatları dəqiq deyil. O cümlədən 6 partiyadan ibarət seçki blokunun yaradılması barədə deyilənlər həqiqətə uyğun deyil. Müsavat, ADP və Ümid Partiyası barədə Əhməd Orucun dediklərini də təsdiq eləmirəm. Bu barədə mənə heç nə məlum deyil. Bu məsələ Əhməd bəylə ayrıca dəqiqləşdiriləcək. Biz Əhməd Orucun özündən bir aydınlıq gətirməsini istəyəcəyik".

**Siyasi ekspertlər isə hesab edir ki, əgər hətta seçki bloku yaradılmayıbsa belə, növbəti toplantıların birində seçki blokunun yaradılması səsə qoyulsa, böyük ehtimalla blok yaratmaq tərəfdarları istəklərinə çatacaqlar.** Çünki Mərkəzdə 11 partiya təmsil olunur və AXP-ni nəzərə almasaq, həmin partiyalardan beşi blok yaratmaq tərəfdarıdır. Üstəlik VİP və Aydınlar Partiyasının da seçki blokunu dəstəkləmək ehtimalı yüksəkdir. Qarşıdan gələn həftə seçki blokunun elan ediləcəyi gözlənilir. Mümkündür ki, ADP və Ümid Partiyası seçki blokunda təmsil olunmasın. Müsavat Partiyasının hansı qərar verəcəyini isə proqnozlaşdırmaq çətindir.



**ADP sədri Sərdar Cəlaloğlu** isə APA-ya deyib ki, Siyasi Partiyaların Demokratiya və İnsan Haqları Mərkəzi Müsavat Partiyasının təşəbbüsü ilə yaradılıb, indi təşəbbüskarları bir kənara qoymaqla, bu mərkəzdəki bir qrup partiya parlament seçkiləri ilə bağlı mərkəzin içərisində seçki bloku yaratmağa cəhd edir: "Biz hesab edirik ki, bir qrup partiyanın Müsavat Partiyasının kənara qoymaqla siyasi blok yaratmağa cəhd etməsi siyasi etika baxımından düzgün deyil".

**S.Cəlaloğlu bildirib ki, Müsavat Partiyasının təşəbbüsü ilə yaradıldığı üçün ən azı Siyasi Partiyaların Demokratiya və İnsan Haqları Mərkəzini buraxdıqdan sonra Müsavat Partiyası olmadan seçki blokunun yaradılması anlaşılan olardı:** "Yoxsa, Siyasi Partiyaların Demokratiya və İnsan Haqları Mərkəzinin əsasında bir seçki bloku yaradılırsa, mərkəzin yaradılmasının təşəbbüskarının da fikrini bilmək lazımdır. Elə bil ki, mən bir qurum yaratmışam, sən gəlib o qurumun içərisinə girərək, bildiyini edirsən. Biz Müsavat Partiyasının bu məsələ ilə bağlı mövqeyinin nəzərə alınmasını vacib sayırıq. İkincisi, biz hesab edirik ki, yaradılan bloklar real güclərin daha geniş çərçivəsini əhatə etməlidir. Məsələn, bu gün biz bir blok yaradaq, birini Milli Şura yaratsın, biri də Müsavat Partiyası yaratsın, bu, əslində bloklaşmanın əhəmiyyətsizliyinə gətirib çıxaracaq. Mümkün qədər real qüvvələrin bir araya gəlməsi vacibdir".

**S.Cəlaloğlu qeyd edib ki, SPDİHM-in üzvü olan ADP və Ümid Partiyası Müsavat Partiyası ilə danışıqlar aparıb:** "Müsavat Partiyası ümumiyyətlə, seçki bloku yaradılması ideyasına müsbət yanaşır, bizimlə bir blokda olmağı istəyir. Lakin bunun üçün müəyyən vaxt istəyir. Biz də zəruri hesab etdiyimiz üçün bu vaxtın verilməsinin tərəfdarıyıq".

**S.Cəlaloğlu onu da əlavə edib ki, nə AXCP ADP ilə eyni seçki blokunda olmağı istəyər, nə də ADP AXCP ilə eyni seçki blokunda olmağı arzu edər:** "Çünki bizim ölkədə gedən proseslərə baxışımızla AXCP-nin baxışı daban-dabana ziddir. Biz hesab edirik ki, indiki beynəlxalq konyuktura şəraitində AXCP-nin izlədiyi kimi bir siyasət izləmək yanlışlıqdır. Amma Müsavat Partiyası AXCP ilə eyni seçki blokunda olmağın mümkünlüyünü aydınlaşdırmaq istəyirsə, ən azı siyasi etika baxımından Müsavat Partiyasına bununla bağlı vaxt verməklazımdır. Güman etmirəm ki, AXCP Milli Şuranın və İctimai Palatanın acınacaqlı taleyindən sonra Müsavat Partiyası ilə hər hansı müstəvidə əməkdaşlıq etsin".

❑ Etibar SEYİDAĞA

# Bölgə müxalifəti seçkiyə getməyin tərəfindədir, ancaq...

## Yerli müsavatçılar boykotun əleyhinədir; onların fikrincə, neftin ucuzlaşması seçici fəallığına təsir göstərməyəcək, çünki narazılıq onsuz da yüksək həddədir...



**Azərbaycan növbəti seçki ilinə qədəm qoyub. Müxalifət düşərgəsində bir qisim seçkilərin saxtalaşdırılacağı ehtimalını nəzərə alaraq, boykot düşüncəsindədirsə, əksəriyyət sonadək seçkiyə gedib mübarizə aparmağın tərəfdarıdır. Eyni zamanda neftin qiymətinin yenidən ucuzlaşmasının hakimiyyətə qarşı ictimai narazılığı artıracağını düşünüb əhalinin seçkilərdə daha fəal iştirak edəcəyini düşünənlər var. Bəs, region müxalifətçiləri bu haqda nə düşünür?**

**Müsavat Partiyasının Gəncə şəhər təşkilatının sədri Oqtay Zeynallı** müxalifət partiyalarının parlament seçkilərinə getməsinin vacib olduğunu bildirdi: "Müxalifətin parlament seçkilərində daha çox səs toplaması və yer alma şansı əvvəlki illərə nisbətən daha çoxdur. Çünki xalqın narazılığı həddindən artıq çoxalıb. Biz boykotun tam əleyhinəyik. Neftin qiymətinin ucuzlaşmasına gəlincə isə düşünürəm ki, bunun xalqa heç bir dəxili yoxdur. Neftin qiyməti 100 dollara qalxanda xeyri oldu ki, azalanda da olsun?".

**Partiyanın Oğuz rayon təşkilatının sədri Həqiqət Mikayıl** da boykot tərəfdarı olmadıqlarını dedi: "Müsavat Partiyası parlament seçkilərində iştirak etməlidir. Seçkidən kənarda qalıb, seyrçi mövqedə durmaq heç bir xeyir vermir. Neftin qiymətinin aşağı düşməsi isə xalqın vəziyyətinə pis təsir edəcək. Hesab edirəm ki, gəlirlər azalandan sonra ixtisarlar başlayacaq".

**Ağcabədi rayon təşkilatının sədri Rəşid Nəcəfli** bu məsələlər haqda ciddi düşünməyə ehtiyac olduğunu dedi: "Seçkilərin saxtalaşdırma ehtimalı həmişə var. Amma boykot və yaxud da seçkilərə getmək məsələsi haqda dərindən düşünmək lazımdır. Xalqın vəziyyəti gün keçdikcə ağırlaşır. İnsanlar çox qəzəblidir və hakimiyyətə olan inamları itir. Buna görə də seçki məsələsində kor-təbii qərar vermək lazım deyil. Seçicilərlə işləmək lazımdır. Seçici ilə yaxşı işlənsə nəticə də yaxşı olar. Çünki insanlar inamsız olduğu üçün səs verməyə gəlmir. Seçkilərdə yaxşı müşahidə aparmaq, dünya ictimaiyyətinin diqqətini bu istiqamətə yönəltmək lazımdır. Boykotu da variant olaraq düşünmək lazımdır. Hansı daha çox effektli olacaqsa oda edilməlidir".

**Müsavatın Şirvan rayon təşkilatının sədri Abdulla Rəfizadə** siyasi partiyaların seçkilərdə mütləq öz fəaliyyətini göstərməli olduğu düşüncəsindədir: "Düzdür, seçkilərlə bağlı tam özbaşınalıqdır və hər şey xüsusi sifarişlə həyata keçirilir. Buna görə də insanın öz əziyyətinə yazığı gəlir. Amma bütün bunlara baxmayaraq boykot tərəfdarı deyiləm. Ümid yaxşı şeydir və axıra kimi ümid edib mübarizə aparmaq lazımdır".

**Neftin qiymətinin azalmasına gəlincə A. Rəfizadə də qiymətin artıb-azalmasının xalqa heç bir xeyri olmadığını bildirdi:** "Şirvanda da neft çıxır. Buradakı bəzi buruqları artıq bağlayıblar və neft çıxarmırlar. Biz bahalaşanda neftin xeyrini görməmişik, ancaq ucuzlaşanda ziyanını görməkdəyik. Mənə elə gəlir ki, neftin gəlirlərinin azalması Azərbaycandan daha çox, Rusiyanın problemidir. Rusiyanın köçməsi bizim xalqın azadlığa çıxmasına şans yaradır. Çünki bu qeyri-qanuni hakimiyyətin arxası Rusiyadır".

**Qazax rayon təşkilatının sədri İlqar Mustafayev** seçki qanunlarına dəyişiklik ediləcəyi halda seçkilərə qatılmalı olduğunu bildirdi: "Seçki qanunlarına dəyişiklik edilməlidir. Əks halda, seçkilərə getməyin mənası yoxdur. Çünki hakimiyyət yenə də sifarişlə müəyyən adamları parlament kürsüsündə əyləşdirəcək. Neftin qiymətinin aşağı düşməsi ilə boşalan büdcəni camaatın cibi hesabına doldurmağa çalışırlar".

**Müsavat Partiyasının Göyçay rayon təşkilatının sədri Namiq Hacıbəyli də seçkilərə getməyin tərəfdarıdır:** "Bilirik ki, bütün seçkilər saxtakarlıqla keçir. Buna baxmayaraq seçkilərdə iştirak vacibdir. Neftin qiymətinin düşməsini isə Amerika Rusiyaya görə edir. Bilə-bilə Rusiyanı çətin vəziyyətə salır ki, Ukraynadan əlini çəksin. Bu da bizim büdcəmizə təsir edir..."

❑ Günel MANAFLI



Aydın Mirzəzadə



Qənirə Paşayeva

# Medianın vəziyyəti deputatlarla müzakirə olundu

**Jurnalistlərin Həmkarlar İttifaqı İdarə Heyətinin üzvləri Azərbaycan jurnalistlərinin hüquqlarının qorunması mexanizmlərinin təkmilləşdirilməsi, onların sosial rifah halının inkişaf etdirilməsi yönündə qanunvericilik təşəbbüsləri hazırlamaq üçün Azərbaycan parlamentinin üzvləri ilə görüşlərə başlayıblar. İlk görüş Milli Məclisin Təhlükəsizlik və Müdafiə Komitəsinin sədr müavini Aydın Mirzəzadə və Milli Məclisin üzvü Qənirə Paşayeva ilə keçirilib.**

**JuHİ sədri Müşfiq Ələsgərli** bildirib ki, keçirilən görüşlərdə Azərbaycanda media mühiti, jurnalist hüquqlarının qorunması, sosial inkişaf yönündə atılan addımlar və sair məsələlər müzakirə edilib. Jurnalistikanın spesifik yaradıcılıq sahəsi olduğuna diqqət çəkən JuHİ təmsilçiləri bu spesifikliyin əmək qanunvericiliyində əks olunmasına zərurət yarandığını vurğulayıblar. Millət vəkilləri mətbuat nümayəndələrinin sosial rifah halının yaxşılaşdırılmasına və media işçilərinin peşəkarlının artırılmasına yönəlmiş təklifləri dəstəkləməyə hazır olduqlarını bildiriblər.

JuHİ sədri Milli Məclis üzvlərilə görüşlərin davam etdiriləcəyini bildirib.

**Məlumat üçün bildirək ki, görüşlərdə JuHİ sədrini təşkilatın İdarə Heyətinin üzvləri Seymur Verdizadə və Niyaz Niftiyev müşayiət ediblər.**

❑ SEVİNC

YENİ MÜSAVAT
N 16 (6044) 24 yanvar 2015

## Cəbhədəki son gərginliyin ilginc pərdəarxası



# Azərbaycan yeni "mini-müharibə" astanasında - şərh, təfərrüat

### Münaqişə zonasında hərbi əməliyyatların bərpası riski təzədən artıb; son hadisələrdə yenə "Kremlin barmağı" görünür; təmas xəttindəki, Ukraynadakı gərginlik və Ermənistanda güclənməkdə olan anti-Rusiya ovqatı arasında hansı bağlılıq var? Xarici "beyin mərkəzləri" də müharibə anonsu verir...

**Azərbaycan ordusu ilə işğalçı qüvvələrin təmas xəttində gərginlik son günlər xeyli dərəcədə güclənib. Söhbət Dağlıq Qarabağla yanaşı, həm də Azərbaycan-Ermənistan dövlət sərhədi boyu vəziyyətin gərginləşməsindən gedir. Diqqət çəkicidir ki, bu günlər cəbhə xəttində erməni tərəf ciddi itkilər verməkdədir. Təkcə yanvar ayında düşmən ölkənin 12-dən çox hərbçisi öldürülüb, onlarla yaralısı var.**

Dünən düşmənin itkilərin sırasına daha ikisi əlavə olunub. Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, Silahlı Qüvvələrimizin sayıqlığı, düşmənin yaxınlaşmasının əvvəlcədən aşkar edilməsi və görülən qabaqlayıcı tədbirlər nəticəsində şiddətli atışma zamanı itki verən ermənilər geri çəkilməyə məcbur edilib. "Qarşı tərəfin ilkin rəsmi məlumatına görə, işğalçılardan leytenant Karen Qalstyan və sıravi Artak Sarkisyan məhv edilib. Azərbaycan tərəfi heç bir itki verməyib" - məlumatda deyilir.

Maraqlıdır ki, istər Qarabağ zonası olsun, istərsə də Azərbaycanla sərhəd rayonları, öldürülən erməni hərbçilər arasında zabitlər, kontrakt əsasında xidmət edən muzdlu döyüşçülər kifayət qədərdir. Yəni düşmənin yetərincə peşəkar qüvvələri sarsıdıcı zərbələr almaqdadır və bu, ordumuz adına əlbəttə ki, qürurvericidir. Lakin bəzi təhlilçilərə görə, təmas xəttində müşahidə edilən və vaxtaşırı iri çaplı silahların da istifadə olunmaqla qanlı döyüşlərə keçdiyi son gərginlik hansısa qorxulu planın müjdəçisi də ola bilər.

Təcrübədən bəllidir ki, belə hallarında hamıdan çox Rusiya maraqlı olur. Ötən ilin avqustunda münaqişə zonasında baş vermiş "3 günlük müharibə" də əsas təşəbbüskar kimi Moskvanın "ayağına" yazılmışdı (O zaman - təxribatın ilk günü nə Azərbaycanın Ali Baş Komandanı, nə də müdafiə naziri ölkədə deyildi).

Eyni ehtimalı Almaniya kansleri Angela Merkel iki gün öncə Azərbaycan prezidenti İlham Əliyevlə Berlində keçirdiyi mətbuat konfransında ilk dəfə olaraq öz ölkəsi adından dilə gətirdi. Merkel cəbhədə atəşkəsin tez-tez pozulmasında Rusiyanın rolu olduğunu açıq şəkildə ifadə elədi. Təbii ki, belə bəyanatlar Moskvada qıcıq yaradır. Kanslerin açıqlamasının Moskvada dərhal neqativ reaksiya doğurması buna bariz sübutdur.

**Ancaq reaksiyadan asılı olmayaraq erməni-Azərbaycan cəbhə xəttində situasiyanın növbəti dəfə kritik həddə çatdırılmasında yenə ən əvvəl şimal qonşumuz maraqlı görünür. Bu qənaət üçün indi ən azından, üç mühüm səbəb var ortada.**

Birinci, Ukraynada (Donbasda) geniş miqyasda hərbi əməliyyatların təzədən bərpası Kremli Qərbin artan təzyiqlərindən yayındırmaq, ümumiyyətlə, beynəlxalq gündəmi başqa mövzularla məşğul eləmək üçün yeni hərbi gərginlik ocağı yaratmaqda maraqlı edə bilərdi. Unutmaq olmaz ki, Rusiya bu gün də imperiyadır və tarix boyu qəliz vəziyyətlərdə müharibə ssenariləri ilə "rahatlıq tapıb", böhrandan çıxmağa çalışıb.

**İkinci mühüm amil qismində axır zamanlar Qərbin, ələlxüsus da Almaniyanın Qarabağ nizamlanmasında daha fəal və təşəbbüskar olmaq, hətta Minsk Qrupu həmsədrliyinə gəlmək istəyi sərgiləməsini qeyd oluna bilər.** Qarabağ ixtilafının Moskvadan ötrü öncəliklə geosiyasi məsələ, Güney Qafqazda möhkəmlənmək üçün vazkeçilməz amil olduğunu ciddiyə alsaq, mümkündür ki, Rusiya yeni müharibə təhlükəsi imitasiyası yaratmaqla öz əhəmiyyətini, siyasi məzənnəsini qabartmaq, Moskvasız münaqişənin həllinin irreal olduğunu nümayiş etdirmək istəyir. Ayrı sözlə, Rusiya faktorunun məsələdə əsas və hesablaşılmalı güc amili olması barədə Qərbə xəbərdarlıq mesajı çatdırır.

Nəhayət, üçüncü - Ermənistan faktoru: bəllidir ki, Gümrü hərbi bazasının əsgəri Valeri Permyakovun 7 nəfərdən ibarət erməni ailəsini güllələməsindən sonra bu ölkədə ehtiraslar səngimək bilmir. Sadə insanlarda Rusiyaya, onun hərbi bazasına qarşı güclü qəzəb hissi formalaşıb, hətta bazanın ölkə ərazisindən çıxarılması tələbləri səslənir və güclənməkdədir. Yerli rəsmilərin səylərinə baxmayaraq vəziyyət kifayət qədər kritik hala gəlib və siyasiləşərək Moskva əleyhinə yönəlib.

Rusiya rəsmilərinin üzrxahlıqlarına və başsağlıqları da işə yaramayıb. Az qala hər gün Ermənistanda Rusiya bayrağı yandırılır. Etirazları həmçinin, cəbhə xəttindən hərbçi itkiləri barədə gələn xəbərlər də azalda bilmir. Hələ harasıdır, yanvarın 26-da, İrəvanın Azadlıq meydanında Rusiya əleyhinə böyük yürüş planlaşdırılır. Etirazçılar həm Ermənistan, həm də Rusiya rəhbərliklərindən Valeri Permyakovun Ermənistana təhvil verilməsini tələb edəcəklər.

**Forpost Ermənistanda anti-Rusiya ovqatının Moskvadan ötrü belə xoşagəlməz səviyyəyə çatması sonuncuda "nankor ermənilər" cəzalandırmaq imperativi yarada bilərdi.** Söz düşmüşkən, bir sıra rusiyalı siyasi və hərbi ekspertlər qızışmış erməniləri yerində oturtmaqdan üçün belə fikirlər səsləndirdilər ki, "Rusiya Ermənistandan əlini çəksə, Ermənistan dövləti yox olar". İstisna edilmir ki, belə xəbərdarlıqların faydası olmadığından, Kreml müttəfiqini daha sərt şəkildə - cəbhə xəttində döyüş əməliyyatlarına stimul yaratmaqla dərs vermək qərarına gəlib. Belə şeyi isə kim bacarmasa da, ruslar yaxşı bacarır.

***

Bu arada xarici "beyin mərkəzlər" yeni müharibənin daha çox ehtimal edildiyi bölgələr sırasında Dağlıq Qarabağ da tez-tez nişan verməkdədirlər. Belə ki, Ukraynanın vesti.ua saytı 2015-ci ildə dünyada baş verə biləcək müharibələri araşdırarkən bu qənaətə gəlib ki, təzə münaqişə ocaqlarından biri məhz Dağlıq Qarabağ ola bilər (publika.az).

"Ermənistan 2-ci Qarabağ müharibəsindən qorxaraq başaşağı şəkildə Avrasiya İttifaqına getdi. Bütün bunları heç kim istəmirdi. Lakin dünyada mənzərə dəyişib və 2015-ci il müharibələr ili ola bilər. Bu müharibələr sırasına Uzaq Şərqdə Çin-Myanma, Yaponiya-Rusiya, Avropada Rusiya-Ukrayna, Türkiyə-Yunanıstan, Qafqazda Ermənistan-Azərbaycan və dünyanı yerindən oynadacaq Qərb və Şərq münaqişələri daxildir", - deyə sayt yazıb.

**Əlavə edək ki, az öncə ABŞ prezidenti yanında Milli Təhlükəsizlik Şurasının ekspertləri də bu il üçün Qarabağ konflikti zonasında müharibə riskinin yetərincə yüksək olması barədə proqnoz vermiş, bu riski həm də Rusiya amili ilə əlaqələndirmişdilər.**

❑ **Siyasət şöbəsi**

---

# Əbədi mənafe məsələsi



**Xalid KAZIMLI**

**Deyirdilər, Almaniya dağılır, çökür, deqradasiyaya məruz qalıb. AzTV bu sözləri sübut edən süjetlər göstərirdi. Düsseldorf tərəfdə gördükləri zibil qalağını, Frankfurtda işləməyən liftləri göstərirdilər.**

Hökumət qəzetləri Almaniyanın baş naziri Angel Merkelin fotosunu Hitlerin fotosuyla qoşa qoyur, palaz-palaz anti-Almaniya məzmunlu yazılar verirdilər.

Heç soyuq müharibə dövründə də belə olmamışdı. Rəsmi Bakı AFR-ə cəbhə açmışdı.

Arada hökumətə yarınmaq istəyənlərdən bir neçəsi Almaniyada istehsal olunan məhsullardan kütləvi şəkildə imtina etmək təşəbbüsü səsləndirmişdi.

Ancaq ona fikir verən olmadı. Onda deputatlar hələ təzə-təzə son model "Mersedes- S klass" minirdilər, durub imtina edəsi deyildilər. Onda gərək müayinə-müalicə, eləcə də əməliyyat üçün Almaniyadakı klinikaya da getməyəydilər.

Bu sərf eləmirdi. Almaniya pis idi, amma məhsulları yaxşıydı. Almaniya bərbad olub gedirdi, amma klinikaları abad, müasir, faydalı idi.

Almaniyanın iqtisadiyyatı çökürdü, amma yol polisləri üçün "BMW"-lər, "Volksvagen -Passat"lar, deputatlar üçün "Mersedes"lər bu ölkədən gətirilirdi.

Bütün bu həngamə ondan ötrüydü ki, Almaniyanın xarici işlər naziri Giedo Vestervelle Azərbaycanda insan haqlarının durumu ilə bağlı yaxşı-yaman danışmışdı, siyasi fəalların təqib olunmasına qarşı çıxmışdı.

Beləliklə, cənab nazir özünü də, ölkəsini də rəsmi Bakının topunun ağzına qoymuşdu.

Bizimkilər naziri ağ yuyub, qara sərirdilər, "cinsi azlıqların nümayəndəsidir" deyirdilər.

Arada fürsət bu fürsətdir deyə Azərbaycanın futbol üzrə milli yığma komandasının almaniyalı baş məşqçisi Berti Foqtsun torbasını tikməyə cəhd göstərənlər də oldu.

Doğrudan da, əgər biz Almaniya ilə düşmən olmuşuqsa, onda nəyə görə milli komandamızın başında "düşmən alman"ların təmsilçisi olmalıdır? Burda səlis məntiq vardı.

Amma "avtomobil məsələsi"ndə olduğu kimi, bu məsələ də qeyri-səlis məntiqlə həll olundu, "bütün almanlar bir tərəfə, Foqts bir tərəfə" qənaəti üstün gəldi və Foqts sona qədər, milli komandamız biabırçı hesablarla uduzanadək komandanın başında qaldı.

Bunun Almaniyanın siyasi rəhbərliyinə dəxli yox idi. Hökumətyanlı funksionerlər sosial şəbəkədə biri Merkelin cavanlığına oxşayan iki qadının çılpaq şəkillərini yayırdılar, biabırçı şərhlər yazırdılar.

Almaniya-Azərbaycan savaşına kənardan baxan deyərdi ki, qurtardı, bu iki dövlətin münasibətləri bir daha düzəlməyəcək. Əgər diplomatik münasibətləri dayandırmaq barədə qərarlar qəbul olunsaydı, ictimaiyyət bunu anlayışla qarşılayacaqdı. Çünki ictimai rəy hazır hala gətirilmişdi.

Sonradan savaş səngidi, məlum oldu ki, əslində, hücum birtərəfliymiş, Almaniya tərəfinin öz başqa dərd-səri varmış. Bizimkilər hücumu dayandıranda avtomatik olaraq atəşkəs rejimi bərqərar oldu.

Budur, Azərbaycanın dövlət başçısı bu günlərdə Almaniyaya gedib və vəziyyət dəyişib. İndi hökumət mediasında "Bakı Berlin divarını aşdı" başlıqları gözə dəyir.

Bir zamanlar ölkəmizdə çılpaq şəkilləri yayılan Merkel Azərbaycan prezidenti ilə görüşdə ikitərəfli münasibətlərin perspektivlərindən, Almaniyanın Azərbaycanla əməkdaşlığının genişləndirilməsində maraqlı olduğundan danışıb.

Xanım kansler ölkəmizin Avropanın enerji təminatının şaxələndirilməsində, nəhəng enerji layihələrinin həyata keçirilməsində mühüm rol oynadığını bildirib.

Bir sözlə, belə anlaşılır ki, Azərbaycan-Almaniya savaşı artıq bitib. Hətta dostluq başlayır, Almaniyanın yeni şirkətləri "ölkəmizdə infrastruktur layihələrinin icrasında iştirak etməkdə maraqlı" imişlər.

Olsun, daha da yaxşı olsun, istəməyənlər də kor olsun.

Ancaq bəs o nəydi? Axırda belə olacaqdısa, cənab Vestervellenin adlarını çəkib müdafiə etdiyi siyasi fəallar niyə tutuldu? O vaxt onları təqib edirdilərsə, daha təqib etmirlər, birbaşa tutub içəri qoyublar.

Almaniya hökuməti Azərbaycan hakimiyyəti ilə belə dost-qardaş olacaqdısa, o zaman o nə tənqid, nə etiraz idi? Həmin tənqidlərə, etirazlara səbəb olan durum indi birə-beş ağırlaşıb axı.

Rəsmi Bakı Berlin divarını aşacaq, başdan oturacaqdısa, Merkelin çılpaq fotolarını yaymaq nəyə lazım idi? Heç cür anlamadıq.

Yəqin ki, "dövlətlərin əbədi düşməni olmur, əbədi mənafeyi olur" məsələsi budur.

YENİ MÜSAVAT
N 16 (6044) 24 yanvar 2015



# Kremlin iflasa uğrayan ideyası

Azər RƏŞİDOĞLU

**Rusiya prezidenti Vladimir Putinin Avrasiya İqtisadi Birliyi iflasa uğrayır. Moskva məğlub olduğunu anlayır və sadəcə olaraq vaxt udmağa çalışır. Kreml ideoloqu Duqin tərəfindən irəli sürülən Avrasiya İqtisadi Birliyi yeni ideya deyil.**

Xatırladaq ki, Avrasiyaçılıq nəzəriyyəsi ideoloji konsepsiya olaraq hələ 20-ci əsrin əvvəllərində formalaşıb. Əsasən rus fikir adamlarının ortaya atdığı bu ideya türk dünyası ilə slavyan xalqlarının vahid etno-mədəni birliyini ehtiva edir və Qərbə qarşı real güc olaraq ortaya çıxmasını özündə təcəssüm etdirir.

Rusiyanın ABŞ-a qarşı nəzərdə tutduğu bu ideologiya vaxtilə Lev Qumilyov tərəfindən irəli sürülmüşdü və ilk növbədə Rusiyanın imperialist maraqları dururdu. Kreml Rusiyanın siyasi iddialarını Qərbə nümayiş etdirmək üçün yeni format və model axtarışına başlayır.

Rusiya Qərbə təzyiqini gücləndirmək və post-sovet bölgəsində hələ də söz, güc və nüfuz sahibi olduğunu göstərmək istəyir. Avrasiya İttifaqı məhz bunu Qərbə nümayiş etdirməyin forması olaraq Kreml tərəfindən ortaya atılıb. Lakin model, belə görünür ki, Rusiyaya dividentlər qazandırmaq yerinə əlavə "baş ağrısı" gətirəcək.

Avrasiya İttifaqı Gömrük Birliyindən fərqli olaraq siyasi ittifaq kimi nəzərdə tutulurdu. Lakin bu ittifaqı yaradan digər iki tərəf müqabili - Belorus və Qazaxıstanla iqtisadi işbirliyində maraqlı olduqlarını tam çılpaqlığı ilə ortaya qoymuş oldular. Hətta Qazaxıstanın İttifaqın fəaliyyət istiqamətləri və prinsipləri ilə bağlı ciddi iradları olduğu aydın oldu. Rusiyanın Qərbə alternativ güc olaraq fomalaşdırmaq üçün neçə zamandır ki, səy göstərdiyi siyasi birlik modeli, iqtisadi alyansa çevrildi.

**Lakin bu ideya Kreml üçün problemlər yaradır. Belorus və Qazaxıstanın iqtisadi mənada Rusiyadan gözləntiləri doğrulmur. Ukrayna ilə qanlı savaş aparan Moskvanın Qərbin ciddi iqtisadi sanksiyalarla üzləşməsi fonunda, atıla biləcək addımlar rus iqtisadiyyatını tam çökdürə bilər. Belorus qarşılıqlı ticarətdə bütün məhdudiyyətlərin götürülməsini tələb edir. Burada əsas məqam Rusiyanın Belorusiyaya satdığı neftdən gömrük rüsumlarının ləğv edilməsi məsələsidir. Belorus ilə ittifaqın il ərzində 7-12 milyard dollara başa gəlməsini nəzərə alarsaq, Moskvanın məhdudiyyətlər bağlı tələbi qəbul etməsinin nələrə gətirib çıxara biləcəyini anlamaq çətin deyil. Rusiyanın forpostu Ermənistanın isə düşdüyü durum göz qabağındadır.**

Moskvanın yeni bir iqtisadi ittifaq qurması, sadəcə olaraq çökməkdə olan Rusiyanın siyasi iddialarını gerçəkləşdirmək məqsədi ilə ortaya atdığı çoxsaylı layihələrdən biri kimi qiymətləndirilə bilər. Birmənalı şəkildə vurğulanmalıdır ki, Ukraynanı öz içinə almayan Avrasiya İqtisadi İttifaqı iqtisadi baxımdan səmərəsiz bir layihədir. Rusiya, Belarus və Qazaxıstanda ən nəzərə çarpan çətinlik iqtisadi artımdakı ləngimədir. 2014-cü ildə ümumi daxili məhsul artımı sadəcə 0.3-0.5 faiz təşkil edə bildi. Bu şərtlərlə ölkələr arasında tədavül də azalır.

Eyni zamanda keçən il ikitərəfli investisiyaların həcmində də azalma müşahidə edilib. Daha bir önəmli amil yaradılmış ittifaqın bütün üzvləri üçün vacib ticarət müttəfiqi olan Ukraynadakı savaşdır.

Azərbaycanla həll olunmamış ərazi problemi olan Ermənistanın bu birlikdə olması da absurddur. Kreml isə İrəvanı Qərbə inteqrasiyasından çəkindirmək niyyətindədir.

Qazaxıstan və Belarusun açıq şəkildə ortalığa qoyduqları Azərbaycan amilini Kreml məcburi olsa belə nəzərə almalı olub. Türkdilli məkanın inteqrasiyasının vacib oyunçusu olan Qazaxıstan Avrasiya İttifaqına Türkiyənin də qoşulmasının mümkünlüyünü nəzərdən keçirməyi təklif edib. Türkiyə Avropa Birliyi ilə assosiasiya haqqında sazişi çoxdan imzalayıb və onun hansı formatda postsovet inteqrasiyasında iştirak edəcəyi ən azından müəmmalı görünür.

Beləliklə, Belarusun təcrübədən keçmiş ümidsizliyi, Qazaxıstanın Gömrük İttifaqından narazılığı ilə əsaslanan xüsusi mövqeyi, Müqavilədən Astananın təkidi ilə bütün siyasi müddəaların çıxarılması və İttifaqın sırf iqtisadi birliyə çevrilməsi və, nəhayət, Azərbaycan amili Avrasiya İttifaqının gələcəyinə nikbin yanaşanları belə daha çox reallığa üstünlük verməyə vadar edir.

**Bir sözlə, Kremlin daha bir ideyası iflasa uğrayır. Putinin iddiaları nəyisə dəyişmək gücündə deyil...**

# Hakimiyyətlə Qərbin münasibətləri yeni mərhələdə

## Prezidentin Merkel və Corc Sorosla görüşünün pərdəarxası; Azərbaycandan Avropa turnesinə ilginc reaksiyalar



**Prezident İlham Əliyev Almaniyada keçirdiyi yüksək səviyyəli görüşlərdən sonra İsveçrənin Davos şəhərində keçirilən ənənəvi İqtisadi Foruma qatılıb və çıxış edib. Prezidentin Davosda "Soros Fondu"nun təsisçisi Corc Sorosla görüşməsi daha çox diqqət çəkib. Məlumata görə, Corc Soros İlham Əliyevlə görüşdə prezidenti vətəndaş cəmiyyətinə təzyiqləri azaltmağa və qeydiyyatdan keçmiş xeyriyyə təşkilatlarının təqibinə son qoymağa çağırıb.**

Soros həmçinin Azərbaycanı Mədən Sənayesində Şəffaflıq Təşəbbüsündə öncül yerini qaytarmaq üçün qətiyyətlə hərəkətə keçməyə çağırıb.

Açıq Cəmiyyət Fondu isə elə həmin gün Azərbaycanda vətəndaş cəmiyyətinə qarşı kampaniyanın güclənməsindən, bir neçə tanınmış insan haqları fəalının saxlanmasından dərin narahatlığını bildirən bəyanatla çıxış edib.

Göründüyü kimi, prezident İ.Əliyevin Avropa səfəri zamanı bəzi istisnalar olmaqla Azərbaycana qarşı hansısa sərt mövqe sərgilənməyib. Maraqlıdır, Qərb Azərbaycanın hansı cəhətdən əhəmiyyətini nəzərə alaraq yumşaq mövqeyə üstünlük verir və ümumiyyətlə, mövcud durum necə dəyərləndirilir?

**Müsavatın başqanı Arif Hacılı** "Yeni Müsavat"a bu barədə dedi ki, səfərin pərdəarxası barədə yekun məlumatlara malik deyil: "Hələlik, bu səfərlə əlaqədar son qiymətləri vermək tezdir. Hər halda əminəm ki, həmin görüşdə xanım Merkelin mətbuat konfransında bəyan etdiyi kimi Azərbaycanda insan haqları məsələləri ətraflı müzakirə olunub. Heç şübhəsiz ki, ölkədə müəyyən demokratik dəyişikliklərin aparılması, eyni zamanda siyasi məhbuslar mövzusu bu görüşün əsas mövzularından biri olub. Ancaq pərdəarxası barədə ətraflı məlumatımız olmadığı üçün bu görüşün nəticələrinə bir müddət sonra qiymət vermək daha düzgün olar". **A.Hacılı Azərbaycanın Avropa üçün önəmi barədə də fikrini bölüşdü:** "Azərbaycan məncə, bütün dünya üçün ən çox yerləşdiyi geopolitik məkanla önəm kəsb edir. Çünki Orta Asiyadan Avropaya yönələ biləcək enerjidaşıyıcılarının keçid xətti Azərbaycan üzərindən ola bilər. Eyni zamanda, Azərbaycanın Rusiya, İran kimi güc mərkəzlərinin ortasında yerləşməsi, Xəzər dənizi vasitəsilə Qazaxıstan və Orta Asiya respublikalarını Türkiyə və Avropa ilə birləşdirmək imkanlarının olması Azərbaycanın bütün dünya üçün önəmini artırır. Bu baxımdan güc mərkəzlərinin Azərbaycanla münasibətlərinin yaxşı olmasında maraqlıdır. Təbii ki, biz də bu mövqeyimizdən faydalanaraq Azərbaycanın dünya birliyində daha da güclənməsinə çalışmalıyıq. Qərb dünyası ilə münasibətlərin yaxşı olması üçün ilk növbədə ölkədə fundamental insan haqlarının qorunması, demokratik islahatlar məsələsinə xüsusi önəm verilməlidir. Əminəm ki, bu, xanım Merkellə İlham Əliyevin görüşündə də müzakirə olunub". **Müsavat başqanı C.Sorosla görüşlə bağlı isə bunları bildirdi:** "Hesab etmirəm ki, Corc Soros hazırda dünyada gedən proseslərə əhəmiyyətli təsir etmək imkanlarına malikdir".

**Politoloq Zəfər Quliyev** isə bu barədə danışarkən bildirdi ki, baş verənlər onun üçün gözlənilməz olmayıb: "Əslində dəfələrlə bu tipli suallara cavab verərək Qərbin sanksiya ehtimalını yüksək saymırdım. Hesab edirdim ki, Azərbaycana qarşı aparılan sərt formada bu kampaniya, tənqid, sanksiya ehtimalı təzyiqin bir formasıdır. Əvvəllər də görürdük ki, Vaşinqton, Avropa İttifaqı Azərbaycanda hansısa başqa sahələrdə öz maraqlarının təmin olunmasına nail olmaq istəyirlər. Yəni çox vaxt bunun üçün insan haqları, demokratiya rıçağından məharətlə istifadə edirlər və istədiklərinə nail olurlar. Ona görə ki, bu məsələlər Azərbaycanın zəif nöqtəsidir". **Z.Quliyev deyir ki, son vaxtlar Azərbaycan və Qərb arasında gərgin münasibətlər zamanı da Qərbi narahat edən Azərbaycanı geosiyasi mövqeyi idi:** "İlk növbədə Vaşinqton və Brüssel narahat idi ki, Azərbaycan Moskvanın pərdəarxası təzyiq proseslərinə tam davam gətirə bilməz, könüllü və ya məcburi şəkildə elə addımlar atar, yenidən Qərbyönlü siyasi kursa qayıtmaq çətin olar. Ancaq mən o zaman da belə düşünürdüm ki, rəsmi Bakı qırmızı xətti keçə bilməz. Bu xətt ondan ibarətdir ki, rəsmi Bakı həm milli dövlət maraqlarına ziyan vuran addımlar atmaz, eyni zamanda hakimiyyətin özü üçün də yaxınlaşma əslində riskli tendensiyalar yarada bilər. Üstəlik, Azərbaycanın enerji siyasəti, həm bir ölkə, həm də iqtidar üçün onun parlaq gələcəyi, perspektiv maraqları həmin strateji xətlə bağlıdır. Bu xətti dəyişdirmək və balanslaşdırılmış xətdən çəkinmək rəsmi Bakı üçün də faydalı olmazdı. Ona görə də mən əmin idim ki, 2015-ci ilin əvvəlində Qərblə rəsmi Bakı bir çox məsələlərdə yenidən ümumi razılığa gələ biləcək. Odur ki, mən münasibətlərdə dərin konfliktlər görmürəm. Ona görə ki, həm rəsmi Bakı, həm Qərb dairələri üçün daha önəmli praqmatik maraqlardır, nəinki insan haqları və söz azadlığı. Yəni lazım gələndə Avropa ölkələri və ABŞ həmin bu prioritet maraqları üstün tutaraq Bakı ilə ümumi razılığa gələ, bu regionda Azərbaycanla bağlı öz planlarını həyata keçirmək üçün tam ümumi dil tapa bilər".

**Z.Quliyevin sözlərinə görə, prezident Əliyevin Almaniya səfəri, Davosdakı çıxışı, kontaktları da göstərir ki, əslində rəsmi Bakı bu cür danışıqlara, yəni əvvəlki münasibətlərin davamına hazırdır, bunda maraqlıdır:** "Merkelin birgə mətbuat konfransında dediklərini nəzərə alsaq, hiss olunur ki, Qərb rəsmi Bakının əhəmiyyətini, postsovet məkanında gedən prosesləri, Rusiya məsələsini nəzərə alaraq hesab edirlər ki, Azərbaycanla əməkdaşlığı davam etdirmək Qərbin özü üçün Cənubi Qafqaza və postsovet məkanında uğurlu siyasət aparmaq üçün əhəmiyyət kəsb edir. Yaxın zamanlarda Qərbin ictimai dairələri, bir sıra beynəlxalq qurumları narahat edən insan haqları, demokratiya sahəsində də rəsmi Bakı ilə ümumi razılığa gələcəklər ki, gərginlik aradan qaldırılsın. Beləliklə də rəsmi Bakı ilə Qərb bir-birinə qarşı addımlar atmalıdır. Eyni zamanda rəsmi Bakı da insan haqları, vətəndaş cəmiyyətinə basqılar, siyasi məhbus məsələsində daha yumşaq siyasət aparmalı olacaq. Nəzərə alsaq ki, Avropa Oyunları da yaxınlaşır, deməli, əvvəlki illərdə olduğu kimi sərt repressiyaların ardınca yumşaq siyasət yürüdüləcək. Bakı həm Vaşinqton, həm Almaniya, həm Fransa, həm də ümumilikdə Avropa İttifaqı ilə ortadakı problemləri həll etməyi bacarır, dəfələrlə bunun şahidi olmuşuq. Yəni ilk dəfə deyil ki, belə böhranlı vəziyyət yaranır. Böhranlı vəziyyətdən çıxmaq üçün geosiyasi potensial var".

**Politoloq C.Sorosla dövlət başçısının görüşünə də münasibət bildirdi:** "Elə cənab Sorosun təklifi də bununla bağlı idi ki, gərginliyi aradan götürmək lazımdır. Soros sadəcə öz mövqeyini bildirdi. Ancaq İlham Əliyevin təkliflərə münasibəti haqda hələlik heç nə deyilmir. Ancaq biz prezidentin siyasi xəttini bilirik ki, o, kiminsə siyasi xətti ilə hərəkət etmir. Ümid edirik ki, rəsmi Bakı praqmatik formada ortadakı amilləri nəzərə alaraq düzgün seçim edəcək".

❑ Cavid TURAN

**Bir neçə il öncə hökumət yaş senzi ilə bağlı yeni qanun imzaladı. Bu qanuna görə 65 yaşa çatmış dövlət qulluqçuları, müəllimlər, həkimlər işdən çıxarılmalı idi. Çünki, 65 yaşdan sonra effektli fəaliyyət göstərmək, səmərəliliyi artırmaq çətinləşir. Yəni, yaşın artması həmin şəxslərin öz vəzifələrinin öhdəsindən gəlməsinə əngəl olur. Amma bütün məsələlərdə olduğu kimi bu məsələdə də ziddiyyət məqamların şahidi oluruq. Necə olur ki, 65 yaşlı adam elm sahəsindəki fəaliyyətini davam etdirə bilir, amma təhsil sahəsində çalışa bilmir?**



**Həcər ABBASLI**
**Ümid Partiyası Gender Bərabərliyi şöbəsinin müdiri**

# Gürcüstanın Baş nazirinin 33, bizim baş nazirin 77 yaşı var

## Gəncləri dövlət idarəçiliyinə irəli çəkməklə yanaşı, gənclər arasında ayrı-seçkiliyə də son qoyulmalıdır

Əgər, 65 yaşdan yuxarı şəxslərin səhhətində, fəaliyyətində geriləmələr baş verirsə bu bütün sahələrdə çalışanlara şamil olunmalıdır. Nə hikmətdirsə, yaş senzi məsələsi nazirlərə, nazir müavinlərinə, komitə sədrlərinə şamil olunmur. Deməli, 65 yaşlı müəllim məktəbdə dərs deyə bilməz, amma 70-80 yaşlı məmur dövlət idarə etməsində iştirak edə bilər. Onda belə bir sual ortaya çıxır ki, 65 yaşlı təhsil işçisi ilə 65 yaşlı məmurun nə fərqi var? Çox uzağa getməyək elə qonşu Gürcüstanda bu istiqamətdə xeyli uğurlar əldə olunub. Məsələn, Gürcüstanın Baş nazirinin 33, bizim Baş nazirin 77 yaşı var. Aradakı fərq reallığı ortaya çıxarır.

Bu gün sivil ölkələrin çoxunda yüksək vəzifələrdə gəncləri görmək olar. Gənc kadrların potensialından istifadə etmək, yeni texnologiyaları mənimsəmiş gəncləri önə çəkmək bütün dünya ölkələri üçün prioritetdir. Bizdə isə ölkənin gələcəyi olan gənclər idarəetməyə cəlb olunmur, qocalar isə çox təəssüf ki, çox zaman vəzifədə dünyalarını dəyişirlər. Maraqlı daha bir məqam ondan ibarətdir ki, dövlət gənclərə qayğıdan, gənclərin dövlət idarəetməsində önə çəkilməsindən, yüksək vəzifələrdə çalışmasından ağız dolusu danışır. Ancaq bu ölkədə gənclər nazirinin 50 yaşı var. Təkcə elə bu fakt deyilənlərin reallıqdan nə qədər uzaq olduğunu göstərir.

Azərbaycanda təkcə nazirlər və komitə rəhbərləri deyil, parlamentdə təmsil olunan deputatların müəyyən hissəsinin xeyli yaşı var. Yəni, deputatlar arasında da yaşı 70-dən və hətta 80-dən yuxarı olanlar var. Ölkənin 20 yaşlı parlamentində çox az gənc deputat var. Ümid edirəm ki, ötən illərdəki seçkidən fərqli olaraq bu il keçiriləcək parlament seçkilərində sonra parlamentin siması dəyişəcək, təmsil olunan gənclərin sayı artacaq.

Bütün sahələrdə gənc kadrların önə çəkildiyi bir vaxtda gənclərlə birbaşa bağlılığı olan, mili ruhlu yeni gənc nəsli yetişdirmək kimi missiyanı üzərinə götürən Gənclər və İdman Nazirliyi heç olmasa yerlərdəki idarələrə gəncləri rəhbər vəzifələrə təyin etmək təşəbbüsü göstərsin. Bu və digər sahələrdə gənclərin irəli çəkilməsi, onlara önəm verilməsi gənclər arasında işsizliyin qismən aradana qalxmasına, gənclərin vaxtlarını səmərəli keçirməsinə, elmi potensialı olan gənclərin ölkəni tərk etməsinin qarşısının alınmasına xidmət etmiş olar.

Ölkənin gələcəyi olan gənclərin ölkənin inkişafında iştirakını təmin etmək üçün onları dövlət idarəçiliyinə irəli çəkməklə yanaşı, gənclər arasında ayrı-seçkiliyə də son qoyulmalıdır. Fərqli fikirli gənclərə hörmətlə yanaşılmalı, onların ictimai-siyasi proseslərdə iştirakı təmin olunmalıdır. İctimai-siyasi proseslərdə aktiv olan gənclərə qarşı fərqli münasibət və basqılar onların prosesdən uzaqlaşmasına gətirib çıxarır. Bu cür münasibət qadınları xüsusi ilə prosesdən kənar saxlayır. Gənclərin isə ictimai-siyasi proseslərdən, dövlət idarəçiliyindən kənar saxlanması ölkənin inkişafını, demokratikləşməsini ləngidir.

# Parlament seçkilərinə hazırlıqla bağlı müzakirə keçirildi





**Yanvarın 23-də Ümid Partiyasının Mərkəzi Qərargahında partiya sədrinin birinci müavini Ənvər Ağazadənin rəhbərliyi ilə müavinliyin növbəti iclası keçirilib. İclasda qəbul olunan qərarların icrası, partiyanın təşkilatlanma və təbliğat işinin artırılması, fevral-mart aylarında müavinlərin iş planı, parlament seçkilərinə hazırlıq və qarşıda duran vəzifələr müzakirə olunub.**

Təşkilatlanma işi ilə bağlı sədrin təşkilat məsələləri üzrə müavini Bakir Həsənbəyli məlumat verib. O, partiya sıralarına yeni qəbul olunan üzvlərin hər ay statistikasının aparıldığını bildirib. Yerli şöbələrin fəaliyyətinin artırılması və stimullaşdırılması ilə bağlı hazırladığı təkliflər paketini iclasın müzakirəsinə təqdim edib. Konfransı keçiriləcək rayon şöbələrinin qrafiki barədə məlumat verib.

Toplantıda 2015-ci il parlament seçkiləri, dairələr üzrə namizədlərin görəcəyi işlər, seçki taktikası və hazırlıqlar da geniş müzakirə olunub. Həmçinin 31 yanvarda Azərbaycan Xalq Cümhuriyyətinin banisi Məmməd Əmin Rəsulzadənin doğum gününün qeyd olunması ilə bağlı tədbir planlaşdırılıb.





# Ümid sədrinin iştirakı ilə şöbə müdirlərinin toplantısı keçirildi



**Yanvarın 23-də Ümid Partiyasının sədri, millət vəkil İqbal Ağazadənin yanında partiyanın şöbə müdirlərinin toplantısı keçirilib. İcra Aparatının rəhbəri Taleh Əliyevin iştirakı ilə keçirilən toplantıda şöbə müdirlərinin verilən tapşırıqların icrası ilə bağlı ayrı-ayrılıqda hesabatı dinlənilib. Şöbə müdirləri 3 aylıq cari iş planlarını sədrə təqdim ediblər.**



Görüləcək işlər, qarşıda duran vəzifələr, şöbələrin işinin səmərəli təşkili, sosial şəbəklərdə fəaliyyətin artırılması, partiya təbliğatının gücləndirilməsi, yeni üzvlərin cəlb olunması, seçkilərə hazırlıqla bağlı görüləcək işlər müzakirə edilib. Sonda partiya sədri İqbal Ağazadə şöbə müdirlərinə və Aparat rəhbərinə görüləcək işlərlə bağlı yeni tapşırıqlar verib.



# Nisbi rütubət

Zamin HACI
zaminhaci@gmail.com

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (Meşə və Gəmi Səfərləri Nazirliyi də deyə bilərik - Z.H.) hava proqnozları idarəsində bu yaxınlarda dəyişiklik olub, uca millətimizin sevimlisi Umayra Tağıyeva işdən çıxarılıb. Doğrudan da Umayra xanımın sakit və həlim səsi, sanki qədim dastanlarımızdan çıxmış siması insanlara xoş ovqat gətirirdi. Umayra xanım danışanda hava düzəlirdi, buludlar dağılırdı, Günəş çıxırdı. Bəlkə də ortalıqda elə bir sirr yox idi, sadəcə biz "efirlərdə" o qədər həyasız sifətlər görmüşük ki, orda istənilən normal qadın bizdə heyranlıq doğurur.**

Yeri gəlmişkən, mən qəsdən "efirlər" sözünü dırnaqda yazdım. Kimsə bizim debil, dörd illik rus-tatar məktəbini ikinci sinifə qədər oxumuş telekanalizasiya zəhmətkeşlərinə izah etsin ki, efir bir dənədir, bütün elektromaqnit dalğaları eyni hipotetik efir məkanında yayılır, orda NZS TV-nin ayrı, XerebTV-nin ayrı efiri yoxdur və öz mənasız verilişlərində cəm şəklində "efirlər" deməsinlər.

Hətta mən ötən illərdə Umayra Tağıyeva haqda yarızarafat bir ifadə yazmışdım, bunun üstündə az qalmışdılar məni evdə öldürsünlər: "Azərbaycanda həmişə həqiqəti danışan yeganə qadın hava məlumatını oxuyan qadındır". Hidrometeorologiya şəhidi olaraq tarixə düşmək şansım var idi.

Nə isə, hər halda adam işdən çıxarılıb, bütün versiyalara baxmayaraq - misal üçün, deyirlər hava proqnozunu düz verməyib - özü könüllü işdən çıxdığını söyləyir. Mənə bu hadisədə səslənən bir söz çox maraqlı gəldi: nisbi rütubətlilik. Qəzetdə yazmışdılar ki, Umayra Tağıyeva 2015-ci ilin yanvarında məhz nisbi rütubətlilik haqda xəbəri hava proqnozuna düzgün hesablayıb yerləşdirmədiyi üçün ekologiya nazirinin qəzəbinə gəlibdir.

Yaltaqlığı Antarktida buzlaqlarına və Kilimancaronun qurdlu zirvəsinə qədər aparmış adamla mübarizə, əlbəttə, çətindir. Amma bu nisbi rütubətlilik uca millətimiz üçün nədən belə önəmli olub qəfildən? Adından göründüyü kimi, heç mütləq rütubətlilik də deyil.

İlk baxışdan belədir. Mənim hava proqnozları, atmosfer fizikası haqda biliklərim Səyavuş Novruzovun hüquq elmindən savadı qədər olar, ya olmaz, mən də sizin kimi. Ümumiyyətlə, bu məsələ, yəni, Azərbaycan xalqının hava proqnozuna münasibəti hələ 30 il qabaqkı kinoda dəqiq göstərilib: "Bir yağış yağacaq ki, tut ucundan çıx göyə". Vəssalam. Qısa, konkret. Yoxsa seyrək bulud elə gəldi, atmosfer təzyiqi belə getdi... Bizim ölkədə azadlıq və demokratiya vardır, bizə atmosfer heç bir təzyiq göstərə bilməz! Buna görə cənab prezidentə minnətdarıq - bütün Binəqədi qaz işçiləri də bu təbrikə qoşulur.

Ancaq yazdığım kimi, ilk baxışdan önəmsiz görünən nisbi rütubətlilik, sən demə, hava proqnozunda çox önəmli imiş. Çünki havada olan su buxarının miqdarını göstərir. Loru dildə yazsaq, buxar çox olanda, hava isə soyuq olanda bu su buxarı enir aşağı, nə alınır? Ay sağ olasan, duman! Duman isə bir çox fəlakətlərə səbəb ola bilər. İnsanlar yollarını azarlar, xarici qara qüvvələrin yanına gedib çıxarlar. Məscid yerinə meyxanaya gedərlər. Parlament yerinə şadlıq sarayına girərlər. Kitab oxumaq əvəzinə qumar oynayarlar. Məktəbə getməyib kanala yıxılıb ölərlər. Və sairə və ilaxır.

Gördüyünüz kimi, nisbi rütubət əslində çox vacib bir şeydir. (Hətta yaxşı nisbi rütubət vəd edən adamı deputat qoymaq olar).

Yazını da elə bir ekologiya problemi ilə bitirmək istərdim. Bakı şəhəri, H.Seyidzadə küçəsi, 30A ünvanlı binada yaşayan insanlar yazırlar ki, onların həyətindəki ağacları amansızlıqla qırırlar: "Hər yerə şikayət yazdıq, PA, Nəsimi İH, ETSN, FHN, hətta ombudsmana da. Ancaq heç bir xeyri olmadı. Yalnız ağac qırma əməliyyatları arada sakitləşirdi. Təzəlikcə gəlib 16 şam ağacını da kəsdilər. Düşünürük ki, yəqin bu da bizim şikayətlərə cavab idi".

**Məktubu bir həftədən çox olar almışam, üzrlü saysınlar ki, gec çap elədim. Ümid edirəm bu ötən həftədə həyətdə bir-iki kol qalmışdır. Çünki ağaclar havanın nisbi rütubətliliyini tənzimləməyə böyük təsir edirlər. Ağac işçi deyil ki, onu çıxardasan, təsiri olmaya. Təsiri pis olur.**

# Müsavat deputatlığa namizədlər siyahısını hazırlayır

## Arif Hacılı: "Namizədlərin dairələrdə fəaliyyətə başlaması ilə əlaqədar konkret planlarımız yaxın zamanda açıqlanacaq"

**Müsavat Partiyasının Məclis üzvü Mustafa Hacıbəylinin Müsavat Partiyasının 2015-ci il parlament seçkilərində seçki dairələri üzrə deputatlığa namizədlərinin müəyyənləşdirilməsi və cəmiyyətə siyahının açıqlanması ilə bağlı təklifi reallaşır. Belə ki, Müsavat Partiyası artıq seçki dairələri üzrə öz namizədlərini müəyyənləşdirməyə başlayıb. Bu barədə Müsavatdan məlumat əldə etmişik. Xəbərin doğru olduğunu partiyanın başqanı Arif Hacılının verdiyi açıqlama da təsdiqləyib.**


Arif Hacılı

**Arif Hacılı deyib ki, əgər ciddi siyasi qüvvələrin koalisiyasına, seçki blokunun yaranmasına nail olunmasa, Müsavat Partiyası parlament seçkilərində ayrıca-öz namizədləri ilə iştirak edəcək.**

A.Hacılı bildirib ki, Müsavat Partiyası Məclisinin sonuncu toplantısında partiyanın 2015-ci il üçün fəaliyyət istiqamətlərinə dair qəbul edilən sənəddə həm də partiyanın parlament seçkiləri ilə bağlı fəaliyyət istiqaməti öz əksini tapıb. Onun sözlərinə görə, Müsavat Partiyası artıq seçki dairələri üzrə namizədlərin müəyyənləşdirilməsi prosesinə başlayıb: "Biz seçki ilində Azərbaycanda fəaliyyət göstərən müxalifət partiyaları və siyasi birliklərlə seçki islahatlarının həyata keçirilməsi, seçki prosesinin müşahidə edilməsi və başqa məsələlərlə bağlı əməkdaşlıq etməyi məqsədəuyğun sayırıq. Seçki blokunun yaradılması imkanlarını da araşdırırıq. Müsavat Partiyası artıq seçki dairələri üzrə namizədlərin müəyyənləşdirilməsi prosesinə başlayıb. Gələn həftə bu barədə partiyanın rəsmi qərarı qəbul olunacaq. Seçki dairələri üzrə namizədlərimizi müəyyənləşdirəcəyik və həmin namizədlərin bu ərazilərdə fəaliyyətə başlaması ilə əlaqədar konkret planlarımız yaxın zamanda açıqlanacaq".

**Məclis üzvü Mustafa Hacıbəylinin təklifində namizədlərin müəyyənləşməsinin bir çox üstünlüklərinin olduğu bildirilir:** "İlk növbədə seçki hazırlıqları üçün xeyli zaman əldə edilir. Kim hansı dairədən deputatlığa namizəd olacaqsa, həmin şəxs seçki hazırlıqlarına başlayar, həmin dairədə seçicilərlə təmaslar qurar, seçicilər də indidən bilərlər ki, seçkilərdə Müsavat Partiyasından namizədi kimdir. Onu daha yaxından tanımaq imkanları yaranır, namizədin də özünü daha yaxından tanıtmaq, nüfuzunu artırmaq imkanları artır. Hər namizədimiz öz dairəsində işə indidən başlasa, bu çox ciddi vaxt uduşu demək olar.

Seçkilərə hazırlıq üçün isə kifayət qədər vaxtın olması ciddi amildir. Namizədlər indidən dairələr üzrə müəyyənləşsə, hər bir namizəd öz seçki qərargahını formalaşdırar. Bu və digər hazırlıq işləri seçki kampaniyasına rəsmi start verildikdən sonrakı dövr üçün namizədin işini xeyli asanlaşdırmış olar. Nəzərə almaq lazımdır ki, seçki kampaniyası üçün müddət Seçki Məcəlləsinə antidemokratik dəyişikliklər nəticəsində xeyli azalıb".

**Müsavat Partiyasının da iştirak etdiyi seçki bloku ortaya çıxacağı halda indidən hazırlanmış namizədlər siyahısının digər partiyaların siyahıları ilə toqquşacağı ehtimalının olduğu və bu problemin necə həll ediləcəyinə gəlincə, Mustafa Hacıbəyli vurğuladı ki, o, Müsavatın seçkilərə tək getməsinin tərəfdarıdır:** "Ona görə də mənim təklifim ilk növbədə Müsavat Partiyasına aiddir. Eyni zamanda hansı dairələrdən ki, Müsavatın namizədi olmayacaq, həmin dairələrdə də başqa müxalifət partiyalarının namizədlərinin müdafiə olunmasını məqbul sayıram".

❑ Etibar SEYİDAĞA

# AŞPA-da Elmar Hüseynov və Rafiq Tağının qətlə yetirilməsi müzakirə olunacaq

## Qurumun qış sessiyası başlayır; Avropa məkanında söz azadlığına basqı yenidən müzakirəyə çıxarılacaq; hüquq müdafiəçilərinin Strasburqa getməyə pulları yoxdur...

**Yanvarın 26-30-da Avropa Şurası Parlament Assambleyasının qış sessiyası keçiriləcək. AŞPA-nın veb-səhifəsində sessiyanın gündəliyinə daxil edilən məsələlər haqqından ətraflı bilgi verilir.**

Qış sessiyasında ən geniş müzakirələr Ukrayna ilə bağlı olacaq. Xəbərdə bildirilir ki, sessiya dönəmində Avropa Şurasına daxil olan ölkələrdə söz azadlığının qorunması haqqında da geniş müzakirələr gözlənilir. Əsas vurğu Avropada xristianlara qarşı dözümsüzlük və diskriminasiyaya ediləcək.

Sessiya ilk iş gününə sədr və onun müavinlərinin səlahiyyətləri üzrə çıxışları ilə başlayacaq. Daha sonra Büronun və Daimi Komitənin fəaliyyəti ilə bağlı hesabat dinlənəcək. İkinci məruzə 2014-cü il Tunisdə keçirilən prezident və parlament seçkiləri haqqındadır. Bu hesabatın ardınca Moldova Respublikası üzrə həmməruzəçilər 2014-cü il noyabrın 30-da keçirilən parlament seçkiləri haqqında rəylərini açıqlayacaqlar.

Sessiyanın ikinci günü Avropa İnsan Haqları Məhkəməsi hakimlərinin seçkisi ilə başlayacaq.

Günün əsas müzakirələri isə Ukraynadakı qaçqın və məcburi köçkünlərlə bağlı humanitar durum haqqında olacaq. Müzakirələrdən sonra AŞPA-nın Ukraynaya humanitar dəstək verilməsi üzrə konkret təkliflər verəcəyi gözlənilir. Günün ikinci yarısında parlamentarlar Avropa Şurası ilə Avropa Birliyi arasında qarşılıqlı anlaşma Memorandumunun həyata keçirilməsi haqqında müzakirələrə başlayacaq. İkinci iş günü Çernoqoriyanın öhdəliklərini yerinə yetirməsi ilə bağlı hesabatın dinlənməsi ilə başa çatacaq.


Elmar Hüseynov


Rafiq Tağı

İyunun 28-də AŞPA Avropa KİV-lərində söz azadlığının qorunmasını müzakirəyə çıxaracaq. İkinci məruzə bərabərlik və böhran haqqındadır. Hər iki hesabatı AŞPA sədrinin müavinləri təqdim edəcək. Günün ikinci yarısında isə sessiya kollektiv danışıqlar və tətil hüququ üzrə vəziyyət, ardınca isə Avropada mütəşəkkil cinayətkarlıq və terrorizmlə mübarizə məsələləri haqqında müzakirələr gözlənilir.

Yanvarın 29-da iki məsələnin müzakirəsi nəzərdə tutulub -Avropada xristianlara qarşı dözümsüzlük və diskriminasiya və AŞPA-dakı milli nümayəndə heyətlərinin tərkiblərindəki siyasi mənsubiyyətlər.

Cümə günü baş tutacaq sonuncu sessiyada isə əməkçilərin demokratik iştirakı və məhdud imkanlara malik insanların bərabərliyi məsələləri müzakirə olunacaq.

Yada salaq ki, qurumun Nazirlər Şurasının dönəm sədrliyi Azərbaycandadır. Azərbaycan 2014-cü ilin yay sessiyasından bu vəzifəni icra edir. Gündəlikdən göründüyü kimi, AŞPA-nın qış sessiyasında Azərbaycanla bağlı hər hansı məsələsinin müzakirəsi gözlənilmir. Ancaq "Yeni Müsavat"ın əldə etdiyi xəbərə görə, Avropa məkanında söz azadlığının və medianın durumu müzakirə edilərkən "Monotor" jurnalının baş redaktoru Elmar Hüseynovun və yazıçı Rafiq Tağının qətlə yetirilməsi bu məsələyə pis örnək kimi qeyd olunacaq.

Diqqət çəkən faktlardan biri də odur ki, AŞPA-nın qış sessiyasında Azərbaycanı daha kiçik nümayəndə heyəti təmsil edəcək. Rəsmi nümayəndə heyətinin tərkibinə dəyişiklik olmasa da, QHT sektoru təmsilçiləri sırasında sessiyaya olduqca məhdud sayda insan qatılacaq. Təbii, bunun obyektiv səbəbləri də var. Avropa Şurasının sessiyalarına davamlı olaraq qatılan "Hüquq Maarifçiliyi" cəmiyyətinin sədri İntiqam Əliyev, "Sülh və Demokratiya" İnstitutunun sədri Leyla Yunus, İnsan Haqları Klubunun sədri Rəsul Cəfərov həbsdədir, RATİ-nin rəhbəri Emin Hüseynovun yeri bəlli deyil - o təqiblərdən uzaqlaşmaq üçün gizlənir. Digər hüquq müdafiəçiləri isə "Yeni Müsavat"a açıqlamalarında Azərbaycan məsələsi müzakirə olunmadığı üçün sessiyada iştirak etməyəcəklərini deyiblər.

**QHT sektorunun AŞPA sessiyasında iştirak etməmə səbəblərindən biri kimi onların bank hesablarına həbs qoyulması göstərilir. Başqa sözlə, onların sessiyada iştirakı üçün vəsaitləri yoxdur. Yada salaq ki, ötən ilin payızından vergi yoxlamaları gərəkcəsi ilə vətəndaş cəmiyyətin institutlarının böyük çoxluğunu bank hesabları qapalıdır.**

❑ Aygün MURADXANLI,
musavat.com

# Kral öldü, yaşasın kral Salman!

## 91 yaşında vəfat edən Səudiyyə Ərəbistanı kralı Abdullahın yerini Ər-Riyad şəhərinin qubernatoru şahzadə Əmir Salman tutdu; siyasi partiyaların fəaliyyət göstərmədiyi neft səltənətində bundan sonra nə olacaq?


Abdulla ben Abdel əziz Əl-Səud

**Səudiyyə Ərəbistanının kralı Abdullah ben Abdel əziz Əl-Səud yanvarın 22-də axşam saatlarında 91 yaşında ölüb. Ötən ay monarx sətəlcəm diaqnozu ilə xəstəxanaya yerləşdirilib. O, ər-Riyadın xəstəxanalarından birində müalicə olunub. Bundan sonra krallllığı Ər-Riyad şəhərinin qubernatoru şahzadə Salman ibn-Əbdül Əziz əl-Saud idarə edəcək.**

Kral Abdullahın vəfatı ilə bağlı xarici ölkə liderlərindən ilk başsağlığı mesajını ABŞ prezidenti Barak Obama verib. "Əsl lider kimi o, fikirlərini açıq bəyan etməkdən və öz inanclarına malik olmaqdan çəkinmirdi" deyə, Obama bildirib.

ABŞ prezidenti deyib ki, belə inanclardan biri Amerika ilə Səudiyyə arasında münasibətlərin mühümlüyü olub: "Bizim ölkələrimiz arasında yaxınlıq və tərəfdaşlıq münasibətləri kralın irsinin bir hissəsi olaraq qalır". Kralın vəfatı xəbərini eşidən Misir prezidenti Abdel Fəttah əl-Sisi Davos İqtisadi Forumunda iştirakını yarımçıq kəsərək ölkəsinə dönüb. Misir rəhbəri kralın dəfn mərasimlərinə qatılacaq. Misir prezidenti hakimiyyətə gələndən sonra onun kralla isti münasibətlərinin formalaşdığı da bildirilir. Ötən ilin iyun ayında monarx Qahirəyə səfər edərək əl-Sisiyə dəstəyini şəxsən ifadə edib.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə və Milli Məclisin (MM) sədri Oqtay Əsədov kralın dəfn mərasimində iştirak ediblər.

### Yeni kral da xeyli yaşlı və xəstədir

O, sağ olan ən yaşlı monarx olub. Abdullah birinci Səudiyyə kralı II Abdel-Əzizin ailəsində dünyaya gəlib. O, əvvəl Məkkə qubernatoru, milli qvardiyanın komandiri, daha sonra isə baş nazir müavini olub. 1982-ci ildə şahzadə, 2005-ci ildə isə ölən qardaşı Kral Fəhd bin Əbdüləzizi əvəz edərək kral olub.

Səudiyyə Ərəbistanı mütləq teokratik monarxiyadır, seçkilər keçirilmir. 2005-ci ilin avqust ayının 1-də kral Fəhd bin Əbdüləziz uzun sürən ağır xəstəlikdən sonra vəfat etdikdən sonra ölkəyə rəhbərlik Abdullaha həvalə olunmuşdu. Kali Səud sülaləsinin ailədaxili razılığına əsasən, Abdullah Səudiyyə Ərəbistanı krallığının dövlət başçısı, kralı, Ali Baş Komandanı, eyni zamanda baş naziri elan olundu, o da, sələfi kimi, İki Müqəddəs Ocağın Xadimi titulunu götürdü. Hələ kral Fəhdin hakimiyyəti zamanı hökumətə rəhbərliyi Abdullah edirdi. Uzun müddət ərzində kralın səhhəti ilə əlaqədar hakimiyyətə nəzarət ona həvalə olunmuş və istər regional, istərsə də beynəlxalq təşkilatlar çərçivəsindəki zirvə görüşlərində krallığı o təmsil edirdi. Abdullah 1996-cı il yanvar ayının 1-dən fevral ayının 22-ə qədər kralın xəstəliyinin ağırlaşması ilə əlaqədar regent (tacsız kral) olmuşdur. Krallıq tax-tacının kral Fəhdin doğma qardaşları-daxili işlər naziri şahzadə Əmir Naifin, ya da Ər-Riyad şəhərinin qubernatoru şahzadə Əmir Salmanın olacağı çoxdan məlum idi.

Ölkədə Nazirlər Şurası icraedici orqan kimi 1954-cü ildən fəaliyyət göstərir. Hökumətin üzvləri kral tərəfindən təyin edilir və onun qarşısında məsuliyyət daşıyırlar. Aparıcı nazir vəzifələrini kral ailəsinin


Əmir Salman

### Obamadan hüzn mesajı, Misir prezidenti Davosu təcili tərk etdi

üzvləri tuturlar. Formal olaraq ali qanunvericilik orqanının funksiyalarını 150 nəfərdən ibarət Məşvərət Şurası icra edir və onun üzvləri də kral tərəfindən dördillik müddətə təyin olunur. 1992-ci ilin 29 fevral tarixində kral Fəhd Nazirlər Şurasının xüsusi iclasında "Hakimiyyət sisteminin əsasları", "Məşvərət Şurasının rolu", "Ərazi quruluşu sistemi" modelini elan edib və bununla da ölkədə mütləq hakimiyyət sistemini möhkəmləndirib. 2003-cü ildə Nazirlər Şurası ölkə üzrə fəaliyyət göstərən 179 bələdiyyə şurası üzvlərinin yarısı, habelə Məşvərət Şurasının üzvlərinin 1/3-nin ümumxalq səsvermə yolu ilə seçilməsi təşəbbüsünü irəli sürmüş, 2004-cü ilin noyabr ayında Bələdiyyə və Regionlarla iş üzrə Nazirlik səsvermə hüququ olan vətəndaşların qeydiyyatını aparmış və 2005-ci ilin fevral ayından aprel ayınadək ölkədə bələdiyyə seçkiləri keçirilmişdir. Konstitusiya və ölkənin cinayət-prosessual, məhkəmə qaydaları Quran və şəriət qanunları əsasında tənzimlənir.

Ölkədə siyasi partiyalar və həmkarlar ittifaqları fəaliyyət göstərmir. Lakin mövcud rejimə müxalifətdə duran siyasi, ictimai, dini təşkilatlar qeyri-qanuni şəkildə fəaliyyət göstərir. Onların ölkənin siyasi həyatına təsiri çox məhduddur. Eyni zamanda, klerikal qüvvələrin dəstəklədiyi islamçı qüvvələr mövcuddur.

### Vəhhabi krallığında hakimiyyət uğrunda mübarizə bitdimi?

Virtualaz.org saytı Yaxın Şərq analitiklərinə istinadən yazır ki, kralın ölümündən sonra taxt-taca şahzadə Salmanın yiyələnməsi vəhhabi krallığında hakimiyyət uğrunda mübarizənin bitdiyini göstərmir. Çünki şahzadə Salman özü də xeyli yaşlıdır, üstəlik xəstədir. İnsult keçirib və başqa digər xəstəlikləri də var. Buna görə də Salman hakimiyyətdə çətin ki, uzun müddət qala bilsin.

Analitiklər hesab edir ki, kral Abdullahın ölümündən sonra hakimiyyətin Salmana keçməsi, varisinin isə artıq müəyyən edilmiş olması hələ hakimiyyətin ötürülməsinin gələcəkdə rəvan keçəcəyini göstərmir. Çünki Səudiyyə krallığının siyasi elitası yol ayrıcındadır və iki əsas fraksiyaya bölünüb. Bu ölkədə hakimiyyət uğrunda mübarizə Abdel Əzizin doğma qardaşlarından formalaşan "Sudayri klanı" ilə onun digər törəmələri arasında gedir. "Sudayri klanı" sülalənin əsasını qoyan əl-Səudun sayca altıncı, ancaq ən sevimli arvadı olan Hassa bint Əhməd əl-Sudayridən olan oğlanlarından ibarətdir. Qardaşların sayı yeddi olub, ona görə də onları "Sudayri yeddiliyi" adlandırdılar.

Ancaq qardaşlardan əvvəlcə kral Fəhd, daha sonra şahzadə Sultan və Nayef öldüyündən bu ad aktuallığını itirdi. İndi bu qruplaşmaya hazırda taxt-taca yiyələnmiş Salman və şahzadə Mukrin, keçmiş müdafiə naziri şahzadə Abdulrəhman, şahzadə Turki və keçmiş daxili işlər naziri şahzadə Əhməd daxildir.

Kral Abdullah "Sudayri klanı"nın müqavimətinə baxmayaraq hakimiyyətə gəlmişdi. Bu, Abdullahın qardaşlarının və onun uzun müddət başçılıq etdiyi Milli Qvardiyanın dəstəyi sayəsində baş vermişdi. Buna baxmayaraq Abdullah tacı alandan sonra güclü "Sudayri klanı" ilə münaqişəyə girməməyi qərara almışdı.

Buna baxmayaraq kral Abdullah şahzadə Salmana öz müttəfiqini - şahzadə Mukrini müavin, yaxud varis təyin etdi. Bu da çoxlarını təəccübləndirdi. Əvvəla, Mukrin ümumiyyətlə şahzadə deyil, çünki o, əl-Səudun sarayda xidmətçi işləmiş yəmənli qul qadından olan oğludur. Bu yəmənli qul qadın rəsmi olaraq əl-Səudun 18-ci arvadı hesab olunsa da hesab edilir ki, onların arasında evlilik rəsmi olmayıb.

İkincisi, Mukrini Salmana varis təyin etməklə kral Abdullah varisin yaşa görə təyin edilməsi prinsipini pozub. Çünki Mukrindən əvvəl Abdulrəhman, Turki və Əhməd gəlirdilər. İndi analitiklər kral taxtına oturmuş Salmanın hakimiyyətə digər iddiaçılarla münasibətlərinin necə olacağını gözləyirlər...

### Qara qızıllı ölkə...

Ölkə iqtisadiyyatı əsasən neft gəlirlərinə söykənir. Hökumət əsas iqtisadi fəaliyyət sahələrini ciddi nəzarət altında saxlayır. Səudiyyə Ərəbistanı dünya neft ehtiyatlarının 25%-nə malik olaraq, dünyada neft ixracına görə birinci yer tutur və OPEK-in aparıcı üzvüdür. Neft gəlirləri ölkə büdcəsinin 75%-ni, ümumdaxili məhsulun 45%-ni və ümumi ixracın 90%-ni təşkil edir. Ümumdaxili məhsulun 40%-i özəl sektorun payına düşür. Səudiyyə Ərəbistanında çalışan 5,5 milyon əcnəbi ölkə iqtisadiyyatı, xüsusən də neft və xidmət sektorunda vacib rol oynayır. Hökumət iqtisadiyyatın neftdən asılılığının aradan qaldırılması və Səudiyyə Ərəbistanı vətəndaşlarının məşğulluğunun artırılması məqsədilə özəl sektorun inkişafına xüsusi diqqət ayırır. Uzun sürən danışıqlardan sonra Səudiyyə Ərəbistanı nəhayət ki, 2005-ci ilin dekabr ayında Ümumdünya Ticarət Təşkilatının üzvü seçilib. Neftdən gələn gəlirlərin sayəsində Səudiyyə Ərəbistanı hökuməti təhsil, peşə hazırlığı, habelə infrastrukturun inkişafı və maaşların artırılmasına külli miqdarda vəsait ayıra bilir. Neftdən krallığın asılılığını azaltmaq üçün və sürətlə artan səudiyyə əhalisinin məşğulluğunu artırmaq üçün, son illərdə özəl sektor sürətlə inkişaf edir.

❑ Xəbər xidməti

# İkili standart sorğusu ilə yorduğumuz dünya...



Hüseynbala SƏLİMOV

**Doğrusu, mühüm tədbirlərə çıxışı olan jurnalistlərdən çoxdandır ki, heç nə gözləmirəm. Ona görə də mətbuat konfranslarında xarici jurnalistlərin sorğularına daha çox diqqət yetirməyə çalışıram. Amma onların da suallarını kəsib-doğrayıb verirlər. Elə bu səbəbdən də əlac qalır intuisiyaya...**

Məni bu son illərdə ən çox yoran söhbət bu ikili standartlar söhbətidir. Bəri başdan deyim ki, yaşadığım ölkədə nəinki ikili, ümumiyyətlə, standart görsəydim bu söhbətlər məni bir o qədər də dilxor etməzdi. Fəqət, burada çox artıq olar ki, əgər mən bu ölkədə hansısa standartların olmasından danışım...

Ona görə də keçirəm dünya məsələlərinə. Bəli, dünya qəlizdir. Təsəvvür edin, dünyadakı dövlətlərin yarısından çoxunda hələ elementar demokratik mühit bərqərar olmayıb. Biz isə dünya düzənindən gileyliyik...

Bəli, Ukrayna hadisələri başlayandan yazmışdım ki, əgər Qarabağ probleminə də bu qədər diqqət yetirsəydilər bu, problem bəlkə də çoxdan həll olunardı...

Amma gəlin görək dünya ölkələri Ukrayna üçün nə etdi? Bizdə olduğu kimi orada da bir Minsk prosesi yapdılar. İstəyirlər ki, bizdə olduğu kimi orada atəşkəs bərqərar olsun, sonra da problem sülh yolu ilə çözülsün...

Yeganə fərq ondadır ki, orada Rusiyaya qarşı sanksiyalar tətbiq etdilər və bu sanksiyalar indi Rusiyanın ovqatını əməlli-başlı təlx edibdir...

Amma bizdə bunu etmədilər, Ermənistan işğalçı dövlət kimi qınanmayıb, ona qarşı sanksiyalar tətbiq olunmayıb. Fəqət, bu, axıradək doğrudurmu?..

Gəlin baxaq. Biz özümüz Ermənistanı müəyyən qədər təcrid etmişik. Özü də bunu çox düz etmişik. Bizimlə həmrəylik nümayiş etdirərək Türkiyə də belə edib, Ermənistanla bütün əlaqələri dondurub...

Yəni, biz də qismən də olsa da, Ermənistanı təcrid etməyə nail olmuşuq. Bəli, təəssüf ki, başqa vaxtlar islam həmrəyliyindən dəm vuran İran bu siyasətə baş qoşmur, Ermənistanla geniş əlaqələr saxlayır. Amma İranın da Ermənistanı işğalçı dövlət kimi tanımasına nail olmuşuq. Bu, da az iş deyildir...

O ki qaldı dünya nizamına, bu, çətin məsələdir. Bir də görürsən ki, çox böyük çətinliklə bərqərar olmuş qayda bir gün pozulur...

Danışanda deyirik ki, problemlər hər yerdə var, o cümlədən də Azərbaycanda.

Çox gözəl. Onda dünyada da problemlərin ola bilməsini çox sakit qəbul etmək lazımdır.

Biz əvvəllər dünyadan təcrid olmuşduq, yalnız SSRİ-nin tərkibində təmsil olunurduq. İndi başqa dövrdür. Bu dövrdə önəmli olan nədir? Burada bir gənc hüquqşünasla bir neçə il bundan əvvəl ondan mübahisəmizi xatırlamaq istərdim.

O, geopolitikanın rolunu çox qabardırdı. Deyirdi ki, biz geopolitikaya önəm verməli və ondan maksimum yararlanmalıyıq... Təbii ki, mən də geopolitikanın önəmini inkar etmirdim. Amma mənə həmişə elə gəlirdi ki, bu geopolitika deyilən nəsnə cəngəllikdir və orada əsl cəngəllik qanunları hökm sürür...

Ona görə də beynəlxalq münasibətlərin humanistləşməsində israr edirdim və belə düşünürdüm ki, dünya nizamını yalnız hamı tərəfindən qəbul edilən birmənalı və humanist prinsiplər təmin edə bilər...

Geopolitika dəyişkən sferadır - SSRİ-nin vaxtında bir geopolitika vardı, ondan sonra başqa, indisə tamam bir qeyri geopolitika... Maraqlar da dəyişkəndir və situasiyadan asılı olaraq mütəhərrikdir...

Normal dünya nizamı varmı? Təbii ki, yoxdur. O nizam ki, indi hökm sürür, o da yarım əsr bundan əvvəl mövcud olmuş geopolotik reallıqların nəticəsidir...

Elə BMT özü gah təsirli, gah da təsirsiz quruma çevrilir, sanki hər şey şəraitdən asılıdır. Biz BMT-nin qəbul etdiyi 4 qətnamədən çox danışırıq. Düz də edirik...

Amma mən fikir vermişəm, BMT funksionerləri özləri bunu xatırlamağı çox da sevmirlər. Amma xatırlamalı idilər, əgər biz nizam və qaydadan danışırıqsa...

Bir daha nizam və qayda məsələsinə qayıtmaq istərdik. Biz dünyanı nizamsızlığına görə qınayanda bilirsiniz bizə nə deyirlər? Deyirlər ki, kiçik bir ölkədə nizam yarada bilmirsiniz, amma istəyirsiniz ki, biz dünyada nizam yaradaq?

**Təbii ki, adam belə iradların qarşında söz tapa bilmir, çünki müəyyən qədər də olsa da, həqiqət var bu sözlərdə. Həqiqət isə elə şeydir ki, acılığından yemək olmur, şirinliyindən isə atmaq...**

YENİ MÜSAVAT
N 16 (6044) 24 yanvar 2015

## Keçmiş Baş prokurordan "Yeni Müsavat"a ilginc açıqlamalar

# "Qorbaçovun arvadı zəng edirdi ki, "bu işi xətm edin"

## İlyas İsmayılov: "Mütəllibov məsələ qaldırmışdı ki, ya mən işləməliyəm, ya da İsmayılov"

**"25 ildir heç bir rəsmi şəxs bu suala cavab vermir və konkret sual da verilmir. Bakıya sovet ordusunu kim dəvət edib, kim rəsmi müraciət edib. Bu sualı həmin vaxt Azərbaycan Respublikasının Baş Prokuroru olmuş və hazırda Milli Məclisin deputatı olan İlyas İsmayılova ünvanlayıram. Cənab İlyas İsmayılov! 1990-cı ilin yanvar ayının 20-də Bakıda qırğın törədən sovet ordusunu Azərbaycana kim dəvət edib?" Bunu sosial şəbəkədəki şəxsi profilində hüquqşünas Osman Kazımov yazıb. Mövzunun aktuallığını və illərdir cavabı verilməyən sualın cavabını almaq üçün qanlı yanvar hadisələri zamanı Azərbaycanın Baş prokuroru işləmiş deputat İlyas İsmayılovla danışdıq. Müsahibə zamanı xeyli ilginc məqamlar ortaya çıxdı:**



***- İlyas bəy, 1990-cı ilin 20 yanvarında Bakıda sovet ordusunu kim dəvət etmişdi?***

- Mənim bu haqda heç bir məlumatım yoxdur. Bunu siyasi rəhbərlikdən soruşun.

***- Heç olmasa Azərbaycandan dəvətlə bağlı gümanınız varmı?***

- Mən gümanla danışmaq istəmirəm.

***- Bəs Vəzirov, yaxud digər keçmiş Azərbaycan rəhbərliyinin bu hadisədəki məsuliyyəti barədə ən azı bir hüquqşünas kimi rəyə maliksinizmi?***

- Buna fikir bildirməkdən ötrü əlinin altında konkret faktlar olmalıdır. Mən başqaları kimi deyə bilmərəm ki, "maa elə gəlir ki..." Hüquqşünas konkret fakta söykənməli və düşüncədən çıxış etməlidir. Ancaq əlbəttə, bu məsələdə çoxlarımız mənəvi məsuliyyət daşıyırıq. Mən qətiyyən heç nədən çəkinən adam deyiləm. Sadəcə olaraq məsuliyyətimi hiss edirəm. Hüquqşünas həmişə konkret fakta əsaslanıb qanunun mətnindən çıxış etməli, "maa elə gəlir" deməməlidir.

***- Ancaq yəqin ki, o zaman bir hüquqşünas, yaxud da yüksək çinli məmur kimi özünüz üçün bu hadisələrdə ölkə rəhbərliyinin nə dərəcədə suçlu olması barədə araşdırma aparıbsınız...***

- Yox. Mən daha nə araşdırma aparmalıydım? Allah uzaq eləsin, bizim başımız o faciələrdə elə qarışmışdı ki...Onsuz mənim bədxahlarım da əleyhimə fəaliyyət göstərirdilər. O zaman bizim 40-dan çox istintaq işimizdə çoxlu faktları qeyd etdik, təxirəsalınmaz tədbirlər həyata keçirildi, çox cinayətlərin üstünün örtülməsinə imkan vermədik. Bu faktları Hərbi Prokurorluğa göndərdik ki, istintaq aparsınlar. Mənim başım ancaq buna qarışmışdı.

***- Mixayıl Qorbaçovun xatirələrində Bakıya qoşun yeritməsi ilə bağlı özünə bəraət qazandırmaq cəhdi var. Bu barədə nə deyə bilərsiniz?***

- Mən hansısa kəskin fikir bildirməyi özümə yaraşdırmıram. Bu fəlakəti bizim başımıza Qorbaçov gətirib. Özünün ermənipərəst siyasətilə...Dağlıq Qarabağ problemi də bununla bağlıdır. Mənim bir yazım çıxdı, hörmətli Çapay Sultanovun kitabına yazdığım risenziyada da göstərmişəm. Dağlıq Qarabağda "Krunq"un rəhbəri Manuçarov haqqında cinayət işi qaldırmışdım, yaxşı da istintaq gedirdi. Onun dövlət əmlakını oğurlaması sübuta yetirilmişdi, üzünə duranlar da hamısı erməni idi. 13 nəfər adam da həbs olunmuşdu. Onlar hücum etdilər ki, Dağlıq Qarabağda cinayət işini Boqomolevin əlindən alıb yandırsınlar. Ancaq o, cinayət işini xilas etdi. Çox savadlı hüquqşünas idi. Sonra ermənilərin şikayəti əsasında bu işi bizdən aldılar. SSRİ Baş prokurorunun yanında mühüm işlər üzrə müstəntiq Konstantin Karlaviç Maydanyuka verdilər. O da işi çox yaxşı aparırdı. O vaxt SSRİ Baş prokuroru Aleksandr Suxorev mənə zəng etdi ki, "səhər Bakıya gəlirəm, məni qarşıla". Onun istintaq üzrə müavini Aleksandr Katusev də Bakıdaydı. Dedim müavini burda olduğu halda görəsən niyə gəlir. Gəldi, onu o vaxt Prezident Aparatı yanında "Respublika" mehmanxanası var, orda yerləşdirdik. Söhbət əsnasında dedi ki, Manuçarovun qətimkan tədbirini dəyişmək olar. Manuçarovu Yerevanda həbs edib Şuşa türməsinə gətirmişdilər. Özündən demək kimi çıxmasın, onun həbs olunmasında da əsas rollardan biri mənə məxsus idi. Katusovdan çox xahiş etdim. Dedim necə ola bilər ki, bu cinayətkar Manuçarov gedib Yerevanda işləyir, ortada sübutlar da var. O da öz vəzifəsini yaxşı bilən prinsipial adam idi. Mehmanxanada qalırdı, bir dəfə evimə hökumət telefonuna zəng etdi ki, "gəl bura". Getdim, dedi ki, Manuçarov artıq həbs olundu və Şuşa həbsxanasına gətirildi. Allah rəhmət eləsin, çox peşəkar hüquqşünas idi, sonra o özünü öldürdü, Həm də Azərbaycanpərəst bir insan idi.

***- Onun burda çalışmasının səbəbi nə idi?***

- Onu Moskvadan göndərmişdilər ki, görsün bu işi düzgün aparırıq, ya yox. Müstəntiq də Baş prokurora sübutlarla məruzə etdi, Manuçarovdan başqa 13 nəfər də həbs olunmuşdu. Bu işdə əsas sübut növü kimi maddi sübutlar əldə olunmuşdu. Ermənilər çoxlu qızıl, daş-qaş, pullar, qiymətli əşyaları divarın içinə qoyub hörmüşdülər. Bunların hamısını biz tapıb götürmüşdük.

***- Bu hadisə harda və nə zaman olmuşdu?***

- Stepanakertdə - Xankəndində - 1989-cu ildə olmuşdu. Manuçarov "Krunq"un rəhbəri idi. Həm də daş karxanasının müdiri idi, pulun hesabına camaatı qaldırırdı...SSRİ Baş prokuroru müstəntiqə təklif etdi ki, Manuçarovun qətiimkan tədbirini dəyiş, yəni türmədən azad elə. Ancaq o, dedi mən dəyişə bilmərəm, bunun cinayəti sübuta yetirilib. Dedi onda heç olmasa onu Şuşadan Moskva təcridxanalarının birinə "etap" elə. Müstəntiq dedi onu da edə bilmərəm, çünki burda onunla bərabər 13 nəfər də həbs olunan cinayətkar var, mən gündəlik istintaq hərəkətləri aparmalıyam. 14 nəfəri də Moskvaya köçürtmək düzgün deyil, çünki cinayət burda olub. Elə bu arada kimsə Moskvadan Baş prokurora zəng etdi. Baş prokuror həmin adama çox gözəl cavablar verdi ki, cinayəti sübut olunub və müstəntiqin dediklərini çatdırdı. Zəng edən də başladı ki, "niyə ermənilərə qarşı repressiya aparırsınız" və s. Prokurorun dediklərindən narazı qaldı. Sonra Baş prokuror dedi ki, zəng edən Mərkəzi Komitənin katibi, Siyasi Büronun üzvü Yakovlev idi. Baş prokuror da müstəntiqin mövqeyini müdafiə etdi. Ancaq buna baxmayaraq, səhər hərbi vertolyot Şuşaya gəldi, Monuçarovu götürüb Moskvaya apardı. Hər hansı dustağın bir təcridxanadan başqasına aparılması üçün müstəntiqin "etap" olunma haqqında qərarı olmalıdır. O qərarı da prokuror təsdiqləməlidir. Bu qərarsız həmin təcridxana dustağı qəbul etməməlidir. Ancaq belə bir qərar olmadan Manuçarovu Moskvaya, Lefortovaya apardılar. Tez-tələsik də Ermənistana deputat seçdilər. Saxarov və Stravoytova da aparıb Manuçarovun deputat mandatını verdi, onu həbsdən çıxartdılar.

90-cı il idi. Onda məni Moskvaya işə keçirtdilər. Mən Moskvaya işə gedəndən sonra da bu işlə maraqlanırdım. Müstəntiqin də mənə münasibəti çox yaxşı idi. SSRİ Baş prokurorunun müavini və işi aparan müstəntiqin mənə dediyinə görə, Qorbaçovun arvadı Raisa Qorbaçeva zəng edirdi ki, "bu işi xətm edin". Onlar da çox sağ olsunlar, xətm eləmədilər. Sonra bu işi SSRİ Ali Məhkəməsinə göndərdilər. Ali Məhkəmənin sədri işə baxmadı, Belorusiya Ali Məhkəməsinə göndərdilər. Belorusiya Ali Məhkəməsi də baxmayanda Brest Vilayət Məhkəməsinə göndərdilər. Brest məhkəməsi də ilk dəfə olaraq qərarla işi təkmil istintaqa göndərdi. SSRİ prokurorluğunda buna protest hazırlanırdı, SSRİ dağıldı. İndi siz görürsünüzmü bu işlərlə kimlər maraqlı idi. Belə olan halda Azərbaycanda hansısa günahkarı axtarmağın mənası yoxdur.

***- Sizin o zaman Moskvaya vəzifəyə aparılmağınızda hansı niyyət var idi?***

- Mütəllibov məsələ qaldırmışdı ki, ya mən işləməliyəm, ya da İsmayılov. Onlar da məni işdən çıxartmaq istəmirdilər. SSRİ Baş Prokurorunun müavini də gəlmişdi, Mütəllibovla görüşdü, dedi biz onu işdən çıxara bilmərik. Çünki bizim ən yaxşı prokurorlardan biridir. SSRİ Baş Prokurorluğu da bir az sərbəst hərəkət edən orqan idi. Sonra məni Moskvaya dəvət etdilər. SSRİ Kommunist Partiyası Mərkəzi Komitəsinin hüquq-mühafizə orqanları şöbəsinin müdiri vardı - ölübsə, Allah rəhmət eləsin, qalıbsa, ona da uzun ömür arzulayıram - Pavlov Aleksandr Sergeyeviç, məni çağırdılar. O, mənə dedi ki, siz təmiz adamsınız. Bu keyfiyyət isə çox yüksək qiymətləndirilir, Qafqazda xüsusilə. Dedi biz bilirik kimlər hakimiyyətə gəlib. Mən dedim məni istəmirlər, ancaq işləyirəm. Əgər çıxartmaq istəyirsinizsə, çıxarın. Dedi biz öyrənmişik sizin uşaqlarınız da

Rusiyada oxuyurlar. O vaxt böyük oğlum Leninqradda, kiçik oğlum da Moskva Universitetində oxuyurdu. Dedi nə var o gərginlikdə? Gəlin, burda sizin böyük perspektiviniz ola bilər, ev alın uşaqlara. Gördüm bu, mənə qayğı göstərir, bizimkilər də gözümü çıxartmaq istəyirlər və razılıq verdim. Beləcə, mən SSRİ Baş Prokurorunun islah əmək düşərgələrinə nəzarət edən idarədə şöbə rəisi oldum. Mənim 16 nəfər işçim vardı.

***- Nə qədər işlədiniz?***

- Burdan gedəndən SSRİ dağılana qədər. Burdan iyul ayında getdim.

***- Ayaz Mütəllibovla sizin aranızda nə problem vardı?***

- Vallah bilmirəm. Mənim ona münasibətim həmişə yaxşı olub. Bu barədə heç danışmaq istəmirəm.

***- Bu günlərdə Amerika konqresmenlərinin 90-cı ildə Qorbaçova müraciəti ilə bağlı bir sənəd ortaya çıxdı. Con Kerri və digərlərinin də adı olan həmin müraciətdən xəbəriniz var idimi?***

- Yox, mənim ondan xəbərim olmayıb. Ancaq Amerikada erməni lobbisi güclüdür də. Bu mənada elə bir şey etmiş olardılar.

***- Bu gün Şuşa həbsxanasında günahsız azərbaycanlılar saxlanılır. Kəlbəcərli girovların azad olunması istiqamətində hüquqi yol varmı?***

- Burda hüquq məsələsi işləmir. Nə hüquq? Separatçılar, terrorçular Azərbaycan ərazisinin bir hissəsini tutub, 20 ildən çoxdur bizim başımızı aldadırlar. ATƏT-i ortaya salıblar ki, guya münaqişəni dinc yolla həll edəcək. Mən birmənalı deyə bilərəm ki, ATƏT bu məsələni həll edə bilməz. Ona görə də ATƏT-in qərarları hüquqi xarakter daşımır, dövlətlər üçün öhdəlik yaratmır, tövsiyə xarakteri daşıyır. Erməni millətçiləri də tövsiyəni qəbul etmirlər. Biz torpağımızı özümüz azad etməliyik, bunu nə qədər demək olar? Niyə özümüzü aldadırıq?

***- Yəni girovların da azadlığı torpaqların azadlığından keçir?***

- Əlbəttə. Yaxud müəyyən qüvvələrin, Rusiyanın Ermənistana böyük təsiri var. Həmin qüvvələr ermənilərə girovları azad etmək üçün təsir göstərə bilərlər. Yaxud təcrübədə var, biz də onların hansısa adamlarını verib girovlarımızı qaytarırıq. Yəni burda qeyri-qanuni variantlar var. Yoxsa mən hüquqi yol görmürəm. Çünki Dağlıq Qarabağdakı rejim özü qeyri-qanuni qurumdur, separatçı, terrorçu rejimdir.

Rəhmətlik Heydər Əliyev hakimiyyətə gələndən sonra Milli Məclis 20 yanvar hadisələrinə siyasi qiymət verməyə başladı. O vaxt mən də çıxış etdim. Ancaq bəzi adamlar məni ittiham edirdilər ki, niyə İlyas İsmayılov hərbçilər haqqında cinayət işi qaldırıb istintaq aparmayıb və s. Mən də sənədlərlə sübut etdim ki, biz cinayət işi qaldırıb istintaq üçün Hərbi Prokurorluğa göndərdim. Çünki bizim hərbçilər haqqında istintaq aparmaq hüququmuz yox idi, Cinayət Prosesual qanunvericilik buna icazə vermirdi. Mən də qeyri-qanuni hərəkət edə bilməzdim. Etsəm də bunu qoymazdılar. Odur ki, hərbçilərin haqqında SSRİ Baş Prokurorluğu yanında Hərbi Prokurorluq var idi, onlar istintaq aparırdılar. Respublika daxilində nə etmək olardı? Mümkün olmayan şeyi tələb etməyin nə mənası var? Kimisə ləkələmək, gözdən salmaq üçün hər şey edə bilərlər, bu, aydın məsələdir. Ancaq hüquqi baxımdan respublikada biz hər şey etmişik. Cinayət işi də qaldırmışıq, hadisələri qeydiyyata almışıq. Lakin paralel istintaq aparmağa ixtiyarımız yox idi. Odur ki, sənədləri Zaqafqaziya dairəsi yanındakı hərbi prokurorluğa göndərmişdik. Onlar da istintaq aparırdılar. Bu mənada Bakı üzərinə düşəni edib. Mən prokuror kimi öz üzərimə düşəni bilirdim və həmişə məsuliyyətlə hərəkət etmişəm...

❑ **Elşad PAŞASOY**

**"Krunq"un rəhbəri Manuçarov həbs olundu və Şuşa həbsxanasına gətirildi"**

**"Ermənilər çoxlu qızıl, daş-qaş, pullar, qiymətli əşyaları divarın içinə qoyub hörmüşdülər"**

YENİ MÜSAVAT
N 16 (6044) 24 yanvar 2015

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

**Erməni silahlı bölmələri yanvarın 22-dən 23-ə keçən gecə cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlar, minaatan və qumbaraatanlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 87 dəfə pozub.**

**Müdafiə Nazirliyinin rəsmi saytı məlumat verir ki, Ermənistan Respublikasının Noyemberyan rayonunun Voskepar, Voskevan, İcevan rayonunun Berkaber kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Aşağı Əskipara, Quşçu Ayrım, Qızılhacılı kəndlərində və adsız yüksəkliklərdən, Berd rayonunun Ayqepar, Çinari kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Koxanəbi və Muncuqlu kəndlərində, Krasnoselsk rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.**

Goranboy rayonunun Tapqaraqoyunlu, Tərtər rayonunun Göyarx, Çiləbürt, Ağdam rayonunun Yusifcanlı, Şıxlar, Cəvahirli, Qaraqaşlı, Şuraabad, Sarıcalı, Novruzlu, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Qorqan, Aşağı Seyidəhmədli kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə məruz qalıb.

**Düşmən cavab atəşi ilə susdurulub.**

***

Nazirliyin saytı həmçinin bildirir ki, Ermənistanın kəşfiyyat-təxribat qrupları qoşunların təmas xəttini keçməyə cəhd göstəriblər.

Silahlı Qüvvələrimizin bölmələrinin sayıqlığı, düşmənin yaxınlaşmasının əvvəlcədən aşkar edilməsi və görülən qabaqlayıcı tədbirlər nəticəsində şiddətli atışma zamanı itki verən ermənilər geri çəkilməyə məcbur edilib. Qarşı tərəfin ilkin rəsmi məlumatına görə işğalçılardan leytenant Karen Qalstyan və sıravi Artak Sarkisyan məhv edilib. Müdafiə Nazirliyi bildirir ki, Silahlı Qüvvələrimizin bölmələri heç bir itki verməyib. Azərbaycan əsgəri cəbhə boyu əməliyyat şəraitinə tam nəzarət edir və düşmənin istənilən təxribatının qarşısını almağa hər an hazırdır.

Rəsmi xəbərlərdən də aydın görünür ki, Ermənistan birmənalı şəkildə təxribatçılıq, işğalçılıq siyasətini davam etdirir və heç şübhəsiz ki, bu təsadüfi deyil, məhz düşünülmüş plandır. Ermənilərin burada məqsədi danışıqlar prosesində birmənalı şəkildə çətin durumla üzləşmələri, dalana dirənmələri - problemin həlli üçün işğal etdikləri ərazilərdən qeyd-şərtsiz çıxmaqdan başqa yolları qalmadığı üçün təxribatçılıqdan başqa bir yol görmürlər. Onlar həmçinin anlayırlar ki, Azərbaycan tərəfi bütün variantlarda və danışıqların istənilən formatında haqlıdır, ona görə də təxribatlarla belə demək mümkünsə, status-kvonu saxlamağa çalışırlar.

**Ancaq təbii ki, mövcud durumla Azərbaycan razılaşa bilməz və heç şübhəsiz ki, dövlətimiz münaqişənin danışıqlar yolu ilə nizamlanmayacağı halda, öz torpaqlarını hərbi yolla azad etmək hüququndan hər an yararlana biləcəyi haqda ən yüksək səviyyədə beynəlxalq aləmi də məlumatlandırıb.** Eyni zamanda proseslər onu deməyə əsas verir ki, Azərbaycan status-kvonun dəyişməsi, münaqişənin həlli üçün sülh danışıqlarının nəticə verə biləcəyi təkliflərlə çıxış edir.




# Ermənilərin təxribatlarının pərdəarxası

## Minsk Qrupunun formatının dəyişdirilməsi məsələsi aktuallaşıb; **Azay Quliyev:** "5-lik Sədrlər Şurası" məsələsini qaldırmağı planlaşdırıram"


Anjey Kaspşik

Millət vəkili, ATƏT PA-nın Komitə sədri, Büro üzvü Azay Quliyev bununla bağlı maraqlı açıqlama ilə çıxış edib. O deyib: "Almaniyanın kansleri xanım Merkel cənab prezident İlham Əliyevlə yanvarın 21-də keçirdiyi brifinqdə atəşkəsin pozulmasında (Azərbaycanın ərazisinin işğalı kimi də qəbul etmək olar) Ermənistanın Rusiya tərəfindən dəstəklənməsi faktını açıq şəkildə qeyd etdi. İlk dəfə idi ki, bu həqiqət xarici ölkənin lideri, xüsusilə dünyanın aparıcı ölkələrindən biri olan Almaniyanın hökumət başçısı tərəfindən etiraf olunurdu. Xanım Merkelin bu bəyanatını və münaqişənin həlli ilə bağlı ölkəsinin və Avropa İttifaqının daha fəal olacağı haqqında səsləndirdiyi fikirlərini təqdir edirəm. Düşünürəm ki, Almaniyanın ATƏT-in Minsk Qrupunun həmsədrliyinə gətirilməsi məsələsi XİN tərəfindən rəsmi olaraq müzakirəyə çıxarılmalı və bu istiqamətdə müvafiq addımlar atılmalıdır. ATƏT PA-nın gələn ay Vyanada keçiriləcək qış sessiyasında həm Almaniyanın, həm də Türkiyənin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Minsk həll prosesinə yaxından cəlb edilməsi və hazırda 3 ölkədən ibarət həmsədrlik institutunun dəyişdirilərək "5-lik Sədrlər Şurası" (SŞ) ilə əvəz olunması haqqında məsələ qaldırmağı planlaşdırıram".

**Qeyd edək ki, Minsk qrupunun formatının dəyişdirilməsi məsələsi xeyli vaxtdır gündəmdədir.** Ekspertlərə görə, iki ölkənin Türkiyənin və yaxud türk diasporunun ən güclü olduğu Almaniyanın Minsk Qrupu həmsədrliyinə gətirilməsi tarixi ədalətin bərpasına nail olmağa xidmət edə bilər. Politoloqlar hesab edir ki, bu addımı atmağa gecikmək olmaz. Prezidentin Almaniya səfəri və Merkelin Qarabağ mövzusunda söylədikləri də göstərdi ki, bunun zamanı artıq çatıb. Onu da unutmaq olmaz ki, rəsmi Berlin Qarabağ və işğal məsələsində manevrlər etmədən, təmənna irəli sürmədən daim Azərbaycanın ərazi bütövlüyünü birmənalı şəkildə tanıyan yeganə böyük Qərb dövlətidir...

Yaranmış durum - Azərbaycanın sülhə nail olmaq üçün daha uğurlu modellər təklifi irəli sürməsi, eyni zamanda sülh danışıqları nəticə verməzsə, müharibə variantının qaçılmazlığı qeyd etdiyimiz kimi, indiki status-kvonu saxlamaq üçün erməniləri təxribatlara sövq edib. Ancaq təbii ki, bu da çıxış yolu deyil. Çünki danışıqlar masasına gəlməyəcəkləri təqdirdə, Azərbaycanın indiki status-kvonu hərbi yolla dəyişmək variantı, əzmi və haqqı var.

**Bu arada beynəlxalq təşkilatların da ermənilərin təxribatlarından narahatlıqları sezilməkdədir.** "Qoşunların təmas xəttində baş verənlər ATƏT-in fəaliyyətdə olan sədri, Minsk qrupu həmsədrləri, həmçinin mənim narahatlığım üçün əsas yaradır". Bu sözləri APA-ya açıqlamasında ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşik deyib. O, atəşkəsin pozulması zamanı ağır silahlardan istifadə və sərhəd və təmas xəttinə müdaxilə ilə bağlı xəbərlər aldığını bildirib: "Həmçinin həmin ərazilərdə tələfat barədə də məlumatlar var. Mənim ofisim yanvarın 14-də təmas xəttində monitorinq aparıb. Mən şəxsən bu monitorinqdə iştirak edə bilməmişəm, çünki Vyanada ATƏT-in fəaliyyətdə olan sədri ilə görüşdəydim. Qayıtdıqdan sonra vəziyyəti monitorinq etmək üçün Dağlıq Qarabağ və İrəvana səfər etdim. Bakıya da gələcəyəm. Hadisələrin gedişi ilə bağlı ATƏT-in fəaliyyətdə olan sədrini və Minsk qrupu həmsədrlərini məlumatlandırmaqda davam edəcəyəm".

"Dağlıq Qarabağ münaqişəsi ilə bağlı istəyimiz ondan ibarətdir ki, danışıqlar bərpa olunsun. Çalışacağıq ki, tərəflər arasında etimad tədbirlərini gücləndirək". Bunu isə Fransanın Azərbaycandakı səfiri Paskal Monye deyib. Onun sözlərinə görə, istər şəxslər, istərsə də dövlətlərarası bütün münaqişələrdə bir faktor əsas götürülür: "Barışıq o halda mümkündür ki, tərəflər barışmaq istəsinlər. Azərbaycan və Ermənistanı maraqlandıran digər mövzuları da daxil etməklə onları dialoqa cəlb etmək olar. Çalışırıq ki, dialoqu və qarşılıqlı anlayışı möhkəmləndirək ki, Cənubi Qafqazda sülh bərqərar olunsun".

**Fransalı diplomat deyib ki, hazırda həmsədrlər dialoqun bərpası üçün əvvəlcə Azərbaycanın, daha sonra Ermənistan xarici işlər naziri ilə görüşə səy göstəririlər:** "ATƏT-in Minsk Qrupunun həmsədrləri danışıqlar prosesi ilə bağlı fəal olmaqda davam edirlər. Düşünürəm ki, Böyük Sülh Sazişinin imzalanması üçün bütün sahələrdə dialoqun aparılması vacibdir. Hazırda itkin düşmüş şəxslərə dair məlumatların mübadiləsinin Beynəlxalq Qırmızı Xaç Komitəsi vasitəsilə reallaşdırılması gözlənilir". P.Monye qeyd edib ki, münaqişənin həlli ilə bağlı 2014-cü ildə 2 element nəzərə alınmaqla ziddiyyətli məqamlar olub: "Minsk Qrupunun həmsədrləri münaqişənin həlli ilə bağlı tərəflər arasında dialoqun davam etdirilməsinə cəhd ediblər. Prezidentlər arasında əvvəlcə Rusiya prezidenti Vladimir Putinin, daha sonra ABŞ dövlət katibi Con Kerrinin təşəbbüsü ilə görüş keçirilib. Fransa prezidenti Fransua Olland mayda Azərbaycan və Ermənistana səfəri zamanı təkliflərini irəli sürüb və oktyabrda onun təşəbbüsü ilə Parisdə 3-cü görüş baş tutub. Ziddiyyət isə ondan ibarətdir ki, diplomatik səylərin fonunda zorakılıq hallarının artması və atəşkəsin pozulması hallarına bu il daha çox rast gəlinib".

**Lakin təəssüflər olsun ki, bu açıqlamalarda narahatlığı yaradan və təxribatçılıqla məşğul olan tərəfin məhz Ermənistan olduğu açıq deyilmir...**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: M.MAHRIZLI

YENİ MÜSAVAT
N 16 (6044) 24 yanvar 2015

# Məktəblərdə təhlükəsizlik necə təmin olunur?

## Əzizağa Süleymanov: "Bu işi mütləq dövlət nəzarətə götürməlidir..."

**Hazırda ən aktual olan, lakin cəmiyyətin və mətbuatın diqqətindən qaçan məsələlərdən biri də məktəblərdə təhlükəsizlik məsələsidir. Nəinki regionlarda, paytaxt Bakının mərkəzindəki məktəblərdə də mühafizəçilər əsasən yaşlı insanlardır. Məktəblərin giriş-çıxışlarında təhlükəsizlik kameraları quraşdırılmayıb.**


Əzizağa Süleymanov

Bir sözlə, istənilən məktəbə rahatca girib-çıxmaq mümkündür. Məktəblərdə təhlükəsizlik məsələsi hər zaman aktual olub və müxtəlif vaxtlarda istər Azərbaycanda, istərsə də qonşu ölkələrdə təhsil ocaqlarına terror hücumları baş verib. Ən son Azərbaycan Dövlət Neft Akademiyasında baş verən dəhşətli terror hadisəsi yəqin ki, hər kəsin yadındadır. Bəs, görəsən, bilik arxasınca məktəbə göndərdiyimiz uşaqlar nə dərəcədə təhlükəsizdirlər? Bu istiqamətdə hansı işlər görülməlidir?

**XXI əsr Təhsil Mərkəzinin rəhbəri Etibar Əliyev** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, məktəblərdə təhlükəsizlik məsələsi Neft Akademiyasında baş verən qanlı olaydan sonra aktuallaşıb və bu məsələyə diqqət çoxalıb, indi isə tamamən unudulub: "Bu hadisədən sonra məktəblərdə müəyyən tədbirlər görüldü. Ancaq bunlar nə dərəcədə etibarlıdır, bunu demək mümkün deyil. Hər kəsə məlumdur ki, təhsil müəssisələri normal qorunmur. Təhsil müəssisələrində təhlükəsizlik sisteminin qurulması ən aktual məsələdir. Doğrudur, məktəblərin qapısı hamının üzünə açıq olmamalıdır. Məktəbə ancaq təhsil işçiləri, müəllimlər, valideyn və şagirdlər daxil ola bilər. Məktəbə gələn kənar şəxslərin qeydiyyatı aparılmalıdır. Məktəblər lazımi texniki qurğularla təchiz olunmalıdır. Ancaq bunun maliyyə tərəfinin hansı qurum tərəfindən təmin olunacağı bu maraqlıdır. Bunun Təhsil Nazirliyi yoxsa, Bakı Şəhər Təhsil İdarəsi tərəfindən təmin olunması aydın deyil".

**Məsələyə münasibət bildirən Xüsusi Dövlət Mühafizə Xidmətinin keçmiş rəis müavini Əzizağa Süleymanov** da qeyd etdi ki, hazırda məktəblərdə təhlükəsizliyin təminatından söhbət gedə bilməz: "Məktəblər 24 saat müddətində mühafizə olunmalıdır. Bu isə 3 növbəli iş rejimi deməkdir. Deməli, bir məktəbin gün ərzində mühafizəsi üçün 3 mühafizəçi lazımdır ki, onların da aylıq maaşı təxminən 1500 manat edir. Bunu kim qarşılamalıdır? Sadəcə, giriş qapısını mühafizə etməkdən ötrü bu qədər vəsait lazımdır. Təbii ki, texniki qurğular da quraşdırıla, müşahidə kameraları ola, turniketlər də qoyula bilər. Ancaq bunların hamısına bir nəfər nəzarət etməlidir. Deməli, sutka ərzində 6 mühafizəçiyə ehtiyac var. Hansı məktəb bu qədər vəsaiti ödəməyə hazırdır? Təbii ki, özəl məktəblər şagirdlərdən aldıqları pulun bir qisminə mühafizə işini təmin edə bilər. Dövlət məktəblərində isə bu işi dövlət öz üzərinə götürməlidir. Burada təkcə maddi vəsait yox, kadr potensialı da önəmlidir. Mühafizə işində peşəkarlardan istifadə olunmalıdır - mühafizə şirkətlərinin əməkdaşlarından və ya polis işçilərindən. Bizdə məktəblərdə mühafizə işindən söhbət gedə bilməz. Bu işi mütləq dövlət nəzarətə götürməlidir".

❑ N.LİFTİYEVA



# Avro da ucuzlaşır

## Natiq Cəfərli: "Azərbaycanda inhisarçı model olduğundan bu ucuzlaşmanın bazarlarda hiss olunacağına inanmıram"

Avropa Mərkəzi Bankının mart ayından etibarən valyuta siyasətindəki dəyişikliklər barədə açıqlaması dünya bazarında avronun dəyərinə zərbə vurub. Bu çıxışdan sonra avronun ucuzlaşması baş verib və onun dollara nisbəti 1,16-dan 1,12-ə düşüb. Bununla da avro son 11 ildə ən aşağı həddə düşüb. Proqnozlara görə, avro ilin sonuna qədər dollarla bərabərləşə bilər. Bu proses paralel olaraq Azərbaycanda avronun məzənnəsinə təsir edib və bir avro manata nisbətdə 0, 88 qəpik olub.

Bəs, görəsən Azərbaycanda avronun dəyərdən düşməsi ölkə iqtisadiyyatında necə təsir edəcək?

İqtisadçı ekspert Natiq Cəfərlinin fikrincə, avronun dəyərdən düşməsinin Azərbaycana həm mənfi, həm müsbət təsiri ola bilər: "Azərbaycanda Mərkəzi Bankın çox maraqlı siyasəti var. İllərdir hökumət dolların kursunu sabit saxlamağa çalışır və buna nail olur. Avropa Mərkəzi Bankının kəmiyyət yumşadılması proqramını qəbul etməsi, sadə dillə desək mart ayından başlayaraq bazara 60 milyard avro çap edib buraxması dünya birjalarında avronun dəyərinin dollara nisbətdə 2-3% enməsinə səbəb olub. Azərbaycanda da paralel olaraq avronun məzənnəsi manata nisbətdə azalmağa başlayıb. Bunun Azərbaycan üçün həm fəsadları, həm də üstünlükləri ola bilər. Əgər ölkədə inhisarçılıq olmasa idi, Avropadan gətirilən malların qiyməti ucuzlaşa bilərdi. Çünki nəzərə alaq ki, 2-3 ay öncə avronun məzənnəsi manata nisbətən baha idi, bir avro 1,08 manat təşkil edirdi. Əslində bu daxili bazar üçün müsbət nəticələr verə bilərdi. Ancaq Azərbaycanda inhisarçı model olduğundan bu ucuzlaşmanın bazarlarda hiss olunacağına inanmıram".

İqtisadçı ekspert qeyd edib ki, bu prosesin Azərbaycan üçün ziyanlı tərəfləri də var: "Həm Neft Fondunun, həm də Mərkəzi Bankın valyuta ehtiyatlarının bir hissəsi avro ilə saxlanılır. Bu məbləğ təxminən 10 milyard avro civarındadır. Avronun dollara nisbətdə bu qədər ucuzlaşması bu valyuta ilə saxlanılan vəsaitlərin də dəyərini itirməsinə səbəb olur. Bu baxımdan ölkəmizə də ziyan vurur. Avronun ucuzlaşmasının ölkəmiz üçün digər bir ziyanlı cəhəti odur ki, Azərbaycanın Avropaya ixrac etdiyi qeyri-neft məhsulları bahalaşa bilər. Düzdür bu məhsulların həcmi o qədər də çox deyil, ancaq ölkə iqtisadiyyatına təsir edə bilər".

Natiq Cəfərlinin fikrincə, dünya bazarında gedən proseslərin Azərbaycana vurduğu zərbə manata olan basqıların artmasıdır: "Neftin qiymətinin uzun müddət aşağı həddə davam etməsi hökuməti çətin vəziyyətə salacaq və seçim qarşısında qoyacaq. Çox güman ki, ilin sonuna qədər qiymətlər bu səviyyədə qalsa, Azərbaycan manatı da digər valyutalara nisbətən az da olsa dəyərini itirə bilər.

Manatın dəyərinin saxlanılması ixracatçılara çox pis təsir edir. Ona görə də, Azərbaycanda son dövrlər qeyri-neft sektorunda ixracat hər il azalır və getdikcə də azalacaq. Buna görə də, yaxın gələcəkdə manatın kursu bu qədər bahalı olsa qeyri-neft sektorundakı cüzi ixracat da məhv ola bilər".

❑ Nərgiz LİFTİYEVA



# Səudiyyə kralının ölümü nefti bahalaşdırdı

## Ekspertlər bildirirlər ki, bahalaşma müvəqqətidir və neftin qiyməti yenə düşəcək...

**Səudiyyə Ərəbistanı kralı Abdullah ben Abdüləziz əl Səudun ölüm xəbərindən sonra neftin qiyməti qalxıb. Birjada bu artımın 2 faiz olduğu göstərilir.**

Beləliklə, ABŞ-da WTI markalı neftinin qiymətinin 1 bareli 2,38 artaraq 47,41 dollar təşkil edib. Brent markalı xam neftin də bir barelinin qiymətində göstəricilər dəyişərək 48,52 dollar olub.

"Kral Abdullahın qısamüddətli perspektivdə neftə olan qiymətlərin qeyri-müəyyənliyi və dəyişkənliyi artıracaq", - "Blumberg" agentliyinə Sanford C.Bernstein & Co analitiki Neil Beveridge bildirib. Bəzi analitiklər bazarın yeni kralın bazarda neftin çox olması ilə əlaqədar siyasətinə dair qeyri-müəyyən vəziyyətdə olduğunu bildirirlər. Digər analitiklər ehtimal edirlər ki, yaxın günlərdə bazarlar yeni kral- 1995-ci ildən ölkənin neft naziri olan Əli Əl-Nəiminin vəzifədə qalacağına diqqət edəcəklər. Belə ki, Arabia Monitor-un baş iqtisadçısı Florence Eid-Oakden agentliyə bəyan edib ki, hazırkı neft naziri ölkədə məşhur və hörmət edilən şəxsdir. O, bütün nazirlər kabineti dəyişməyənə qədər vəzifəsində qalacaq.

Əksər ekspertlərin fikrincə, kralın ölümü, həmçinin yeni kral neft siyasətində əhəmiyyətli bir dəyişikliyə səbəb olmayacaq. Yəni istehsal azaldılmayacaq. Ancaq qeyri-müəyyənlik bir müddət davam edəcək.

**Ekspert Samir Əliyevin** sözlərinə görə isə, əslində bir tərəfdən avronun birdən-birə ucuzlaşması və nəticədə dollara tələbatın artması bahalaşmaya gətirib çıxarmalı idi: "Nəticədə dollar ucuzlaşdı, neft isə ucuzlaşmalı olsa da, kralın ölümü səbəbindən bu, baş vermədi. Əslində bu addımlardan sonra neftin ucuzlaşması baş verməli idi. Ancaq Səudiyyə kralının ölümü neftin ucuzlaşmasına imkan vermədi, neft bahalaşdı. Bahalaşma kralın ölümü ilə bağlıdır və müvəqqəti xarakter daşıyır. Bir müddətdən sonra neftin ucuzlaşmasını yenidən müşahidə edəcəyik. Məsələ ondan ibarətdir ki, neftin qiyməti hazırda dibə qədər düşüb. Mənə elə gəlir ki, bir müddət neft indiki səviyyədə qalacaq, yəni barrelinin qiyməti 45-55 arasında oynayacaq".

Qeyd edək ki, uzun müddət ərzində neftin qiymətinin düşməsində Səudiyyə Ərəbistanı da səbəbkar olaraq göstərilirdi. Roubini Global Economics qrupunun rəhbəri Nuriel Rubini hesab edir ki, Səudiyyə Ərəbistanı neft qiymətlərinin azalmasına geopolitik deyil, iqtisadi səbəblər üzündən kömək edir. "Onlar (Səudiyyə Ərəbistanı) oliqopoliyanın tipik lideri kimi davranırlar. Qiymətləri bir müddət aşağı saxlamaqla bazardan az rentabelli istehsalçıları - şist neft hasilatçılarını və Venesuelanı süpürüb atırlar. Bu müddət ərzində hasilata sərmayələr təbii olaraq azalır. Bir müddət üçün aşağı neft qiymətləri davam edir, lakin sonra qiymətlər artır və Səudiyyə Ərəbistanının bazarda daha çox payı olur. Bu ölkə üçün aşağı neft qiymətləri geopolitik deyil, iqtisadi məsələdir",- deyə Rubini Davos forumunun plenar iclasında bildirib.

**Beynəlxalq enerji agentliyinin baş iqtisadçısı Fateh Birol isə Davos forumunda bildirib ki, bir barrel neft üçün 45 dollar qiyməti müvəqqəti haldır.** "İlin ikinci yarısında biz neft qiymətlərinin artmasını görəcəyik, ona görə də mən hesab edirəm ki, bir barrel üçün 45 dollar müvəqqəti fenomendir",- deyə BEA-nin baş iqtisadçısı bildirib. Ancaq o, 2015-ci ilin sonunda bir barrel neftin neçə dollar olacağını bildirməyib.

Bununla belə, o qeyd edib ki, BEA-nin məlumatına görə, 2015-ci ildə neft sənayesinə yatırılan sərmayələr 100 milyard və ya illik 15 faiz azalacaq.

❑ RÖYA

# "Sənaye ili"ndə sənayedə azalma

## Azər Mehtiyev: "Bu il neftin qiymətinin və hasilatının düşməsinə görə, neft sektorunda məhsul istehsalı daha da düşəcək"

**Sənaye məhsulu istehsalı keçən il 2013-cü illə müqayisədə 0.7 faiz azalaraq 31.9 milyard manat olub. "Yeni Müsavat" Dövlət Statistika Komitəsinə istinadən xəbər verir ki, onun 69.6 faizi və ya 22.2 milyard manatı mədənçıxarma bölməsində, 24 faizi, yaxud 7.6 milyard manatı emal bölməsində, 5.7 faizi və ya 1.8 milyard manatı elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı bölməsində, 0.7 faizi və ya 231.8 milyon manatı su təchizatı, tullantıların təmizlənməsi və emalı bölməsində istehsal olunub.**

Sənayenin neft sektorunda məhsul istehsalı 2.4 faiz azalıb, qeyri-neft sektorunda isə 6.9 faiz artıb.

2014-cü il Azərbaycanda "Sənaye ili" olub. Sənayenin inkişafı hökumətin prioritetləri arasındadır. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında sənaye sektoru, xüsusilə də qeyri-neft sənayenin inkişafı hədəf kimi müəyyənləşib. Ancaq ekspertlərin fikirləri də, göstərir ki, sənaye sektoru da neftdən asılıdır.

**İqtisadçı - ekspert Azər Mehtiyev** deyib ki, ötən il sənaye məhsulu istehsalında baş vermiş azalma neft sektoru hesabına baş verib: "Ölkədə neft hasilatı təqribən 1 milyon ton azalıb. Amma qeyri-neft sənayesində istehsalın 6,9 faiz artması bildirilir. Ötən il ölkədə "Sənaye ili" olsa da, il ərzində bu istiqamətdə həyata keçirilən işlərin əksəriyyəti təşviqat və görüntü xarakterli olub. Real olaraq baş verən proseslər isə əsasən inhisarçı-oliqarx qrupların nəzarəti altında baş verib və geniş mənada sənayedə müstəqil sahibkarlığın və rəqabətin inkişafına yönəlməyib. Rəsmi məlumatlara əsasən, yerli istehsalın inkişafı ilə əlaqədar ötən il bir sıra məhsulların ölkəmizə idxalı azalıb. Bu azalma əslində rəqabət şəraitində baş verməyib, sadəcə yerli müəssisələr istehsala başlayandan həmin məhsulların ölkəyə gətirilməsinə qadağalar gücləndirilib. Bu da onu göstərir ki, hökumət yerli istehsalı rəqabət mühitinə uyğunlaşdırmaq istəmir. Bu müəssisələrin əksəriyyətinin məhsulları ya dövlət sifarişi ilə alınır, ya da bunlara məcburi sifarişlər formalaşdırılır".

**Azər Mehtiyev deyib ki, bu il neftin qiymətinin düşməsi və hasilatının da azalması hesabına neft sektorunda məhsul istehsalı daha da düşəcək:** "Eyni zamanda, dövlət xərclərinin azalması qeyri-neft sənayesində də artım templərinin aşağı düşməsinə gətirib çıxaracaq".

**Deputat Əli Məsimli** isə həsab edir ki, Azərbaycan sənayesinin inkişafında yeni mərhələ başlayıb: "Ötən il Azərbaycanda 42 milyon tona yaxın neft hasil olunub ki, bu da 2013-cü illə müqayisədə təqribən 3 faiz azdır. Hazırda Azərbaycan sənayesində mədənçıxarma sahəsinin payı 70 faizə yaxındır. Sənayedə hasilat sahəsinin payı çox olduğundan, bu sahədəki enmənin hər faizi sənaye istehsalının ümumi həcminin artım tempinə 0,7 faiz səviyyəsində təsir göstərə bilir. Sənayenin emal bölməsində istehsalın həcmi sənayenin ümumi məhsulunun 24 faizini və ya 7,7 milyard manatlığını təşkil edib. Ötən il bu sahədə 7 faizə yaxın artım olub. Amma bu sahədə artım tempi xeyli yüksək olsa da, onun hər faizi sənayenin ümumi artımım hər faizinə görə hələlik 0,24 faiz bəndi səviyyəsində,yəni hasilat sənayesinin təsirindən təqribən 3 dəfə zəif təsir göstərir. Ona görə də 2014-cü ildə sənayenin emal bölməsindəki 7 faizlik artım çox yüksək göstərici olsa da, hasilat sənayesinin 3 faizə yaxın enməsi fonunda sənayenin ümumi artım tempinə yalnız təqribən 2 faiz bəndi səviyyəsinə təsir göstərə bilib və deməli, hasilat sənayesindəki ötənilki enməsinin ümumi nəticəyə mənfi təsirinin çox hissəsini kompensasiya edə bilsə də, 2014-cü ildə Azərbaycan sənayesi ümumilikdə 0,7 faiz aşağı göstərici ilə yekunlaşıb. Göründüyü kimi, 2014-cü ildə sənayedəki 0,7 faiz azalma bütövlükdə sənayenin bütün sahələrində azalma olduğuna dəlalət etmir, bu yalnız sənayemizdə mədən sənayesinin payının çox olduğu şəraitdə neft hasilatının pik nöqtədən aşağı enməyə başlamasının təsirindən doğan müvəqqəti meyildir. Ötən il emal sənayesinin 7 faizlik artımı qida, içki, tütün məmulatlarının, toxuculuq, geyim, kimya, tikinti materiallarının, metallurgiya, hazır metal məmulatlarının, elektrik avadanlıqlarının, avtomobil və qoşquların, sair nəqliyyat vasitələrinin və s. məhsulların istehsalında artımı hesabına mümkün olub. Bu artım həm də sənayenin strukturuna müəyyən dərəcədə təsir göstərə bilib. Belə ki, əgər 2013-cü ildə sənayedə ümumi istehsalın 74 faizi mədənçıxarma, 20 faizi emal sahələrinin payına düşürdüsə, 2014-cü ildə ümumi istehsalın 70 faizi mədənçıxarma, 24 faizi emal sahələrinin payına düşüb, təkcə bir il ərzində sənaye istehsalının strukturunda mədənçıxarma sahəsinin payı 4 faiz bəndi azalıb,emal sənayesinin payı isə 3 faiz bəndi artıb. Bununla belə, Azərbaycan sənayesinin optimal strukturunu formalaşdırmaqdan ötrü islahatlar kontekstində hələ çox işlər görmək lazımdır. Sumqayıt Texnologiyalar Parkının, Alüminium İstehsalı Kompleksinin və Azərbaycan Polad İstehsalı Kompleksinin yaradılması, Bakıda Gəmiqayırma zavodunun fəaliyyətə başlaması, Sumqayıtda neft-kimya sənayesində modernizasiya işlərinə başlanılması ,Qazaxda, Naxçıvanda yeni sement zavodlarının tikilib istifadəyə verilməsi, Gəncədə traktor və kənd təsərrüfatı texnikası, Naxçıvanda avtomobil, Mingəçevirdə elektron avadanlıqlar, Sumqayıtda günəş panellər, Qaradağda metal konstruksiyalar, Hacıqabulda seramik plitələr istehsalı müəssisələrinin qurulması,belə bir fikir söyləməyə əss verir ki, "Sənayenin inkişafına dair 2015-2020-ci illəri əhatə edən Dövlət Proqramı"nın icra müddətində qeyri-neft sənayesinin daha dərin şaxələndirilməsi istiqamətində xeyli zəruri işlər görüləcəkdir".



Azər Mehtiyev

**Əli Məsimli: "2014-cü ildə sənayedəki 0,7 faiz azalma bütövlükdə sənayenin bütün sahələrində azalma olduğuna dəlalət etmir"**

**Əli Məsimli bildirib ki, sənaye siyasətində Azərbaycan üçün böyük önəm daşıyan məsələ neftdənkənar sahələrin rəqabət qabiliyyətli strukturunun formalaşdırılmasıdır:** "Bundan ötrü həm sənayedə qabaqcıl texnika və texnologiya, yüksək istehsal mədəniyyəti ilə yanaşı, həm də iqtisadi rıçaqlardan bacarıqla istifadə etməklə , bu məqsədlə dövlət vəsaiti hesabına həyata keçirilən infrastruktur layihələrinin özəl sektorun investisiyaları ilə əlaqələndirilməsinin effektli mexanizmini işə salmaq, rəqabət qabiliyyətli məhsul istehsalını maksimum təşviqləndirmək lazımdır. Sənayenin inkişafına dair dövlət proqramının icra müddətində mövcud sənaye və texnologiyalar parklarının fəaliyyətinin gücləndirilməsi, yeni sənaye parklarının və sənaye məhəllələrinin yaradılması, xüsusi iqtisadi zonaların fəaliyyətə başlaması və regionların sənaye potensialının artırılması, sənayenin modernləşdirilməsi və strukturunun təkmilləşdirilməsi, qeyri-neft sənayesinin ixrac potensialının artırılması, elmtutumlu və innovativ istehsalın genişləndirilməsi, yeni istehsal sahələri üçün ixtisaslı kadrların hazırlanması, qeyri-neft sənayesinə yerli və xarici investisiyaların cəlb edilməsinin stimullaşdırılması, sənaye müəssisələrində müasir menecmentin və korporativ idarəetmə prinsiplərinin tətbiqinin təşviqi, hər bir bölgənin və iqtisadi rayonun rəqabət üstünlükləri nəzərə alınmaqla, yeni regional inkişaf mərkəzlərinin, xüsusi iqtisadi zonaların, prioritet sahələr üzrə ərazi-istehsal klasterlərinin və yerli xammala əsaslanan yeni sənaye müəssisələrinin yaradılması, sənaye və texnologiyalar parklarının və sənaye məhəllələrinin yaradılması, innovasiya fəaliyyətinin genişləndirilməsi üçün dövlət dəstəyinin gücləndirilməsi istiqamətlərində işlər sürətləndirilməlidir".

❑ **Bəkir NƏRİMANOĞLU**

---

# Kəlbəcərli köçkünlər Gəncə İcra Hakimiyyətinə yürüşə hazırlaşır

## Əmlak Komitəsinin Gəncə şöbəsi ilə Elmar Vəliyevin torpaq davası haqda şok məlumatlar



Elmar Vəliyev

**Gəncədə məskunlaşmış Kəlbəcərdən olan köçkünlər Şəhər İcra Hakimiyyətinə yürüş etməyə hazırlaşır. Bu haqda "Yeni Müsavat"a daxil olan məlumatda bildirlir ki, köçkünlər onlara verilən vədlərin yerinə yetirilməməsindən və şərlənmələrindən narazıdırlar.**

Köçkünlər mətbuata ünvanladıqları müraciətdə hadisənin düzgün təqdim edilməməsindən də gileylənirlər. Qeyd edirlər ki, əslində etiraz edənlər söküntülərə məruz qalan ərazidə yaşayan, "Qaçqınkoma" rüşvət verməyən və mənzil ala bilməyən kəsimin nümayəndələridirlər: "Sökülən mənzillər Gəncənin tam kənarında, Göygöl rayonuna gedən yolun sağ və sol cinahlarında yerləşən təqribən 500 hektar sahədə yerləşir. Deməli, bura şəhərin mərkəzi hissələrinə aid deyil, eyni zamanda da, bu ərazidə heç bir strateji infrastruktur layihələri həyata keçirilməyib. İnsanlar zəhmətlə pul toplayıb, müvafiq icra aparatından sərəncam alıblar. Paralel olaraq, neçə ildir burda yaşayıblar, özlərinə sosial mühit qurublar. Onların üzərinə qaz, su, işıq və digər kommunal xidmətlərə görə ödəniş etmək öhdəliyi qoyulub. İllərdir sözügedən ərazidə sakinlər bu öhdəlikləri yerinə yetiriblər. İndi nə oldu ki, bu ərazi İcra Hakimiyyətinin yadına düşdü? Həm də Gəncədə torpaq islahatlarının dayandığı və torpaq satmaq üçün qıtlığın müşahidə olunan bir dövrdə? Elə isə nədən heç kim bu hadisədən az sonra Gəncənin digər bir yaşayış massivində - "Farfor Zavod ətrafı" adlanan hissəsində Gəncə Şəhər İcra Hakimiyyəti ilə Əmlak Komitəsinin yerli şöbəsi arasında narazılığın olmasını və bu narazılığın ucbatından ərazinin Əmlak Komitəsi tərəfindən hasara alınması, insanların ev tikə bilməməsi haqda bəhs etmədi? Yoxsa icra başçısının müavini Naqif Həmzəyevin "mediadakı dostları" bunları da görməzdən gəldi? Bu ərazilər Elmar Vəliyevin sərəncamı ilə satılıb və Əmlak Komitəsinin balansındadır. Hazırda bu qurumla aralarındakı sövdələşmə pozulub. Ona görə də İcra Hakimiyyəti vəziyyətin daha da qəlizləşməməsi üçün Əmlak Komitəsinin yerli şöbəsi ilə danışıqlar aparır".

**Köçkünlər etirazın yaranma səbəblərini belə açıqlayırlar:** "Əvvəla, bu ərazilərin bir qismini Gəncənin icra başçısı Elmar Vəliyevin təqdimatı ilə şəhərin Nizami rayonuna icra başçısı təyin etdirilən Məharət Mustafayev satdırıb. Bu o Məharət Mustafayevdir ki, deyilənə görə, icra başçısı olmamışdan əvvəl Elmar Vəliyevlə iş ortağı olub. Gəncəbasar bölgəsində, o cümlədən Goranboy rayonunda avtomaşın yağlarının satışı ilə məşğul olub və sonradan bu regionda "monopoliya" yaradaraq ancaq özləri maşın yağlarının satışını təşkil ediblər. Hələ icra başçısı olmamışdan öncə Elmar Vəliyev öz "qara büdcə"sini formalaşdırmaq üçün Məharət Mustafayevin "məharətlərindən" istifadə edib. M. Mustafayevi də Gəncənin Nizami rayonuna ona görə icra başçısı təyin etdirib ki, bu rayon ərazisində yerləşən mərkəzə yaxın bahalı torpaq sahələrinin müxtəlif adamlara satışını təşkil etsin və bütün qanunsuz əməllərini icra etdikdən sonra "günahlarını" M. Mustafayevin boynuna yıxıb, sudan quru çıxsın. Belə də oldu! İndinin özündə də heç bir rəsmi vəzifə tutmayıb, işsiz olmasına rəğmən, Məharət Mustafayev Elmar Vəliyevin tapşırıqları ilə hərəkət edir, onun işlərini həyata keçirir. Gəncədə yerli hakimiyyət nümayəndələrinin bir niyyəti var: "Torpaq sat, pul qazan!" Harada görünüb ki, hətta qanunsuz tikili olsa belə, məhkəmə qətnaməsi olmadan ev sökülsün? Harada görünüb ki, sənədsiz olduğu iddia edilən evlər üçün infrastruktur formalaşdırılsın və vergi ödətdirilsin? Harada görünüb ki, sənin dinc etiraz etmək istəyinin qarşılığında səni möhkəmcə döysünlər və Cinayət Məcəlləsinin 315-ci maddəsi (hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə) ilə cinayət işi açalar? Sonra da ölkə mətbuatında bar-bar bağıralar ki, bizə müqavimət göstərdin? Hazırda iki nəfər etirazçı həbsdədir. Onlarla xəsarət alan etirazçılar isə öz evləri dağıdıldığından qohumlarının evində müalicə olunur".

Köçkünlər onlara E.Vəliyev tərəfindən verilən vədlərin icra olunmasını tələb edirlər.

**Yada salaq ki, ötən il dekabrın 10-da Gəncənin "Avtozavod" qəsəbəsi adlanan ərazisində Nizami RİH-nin əməkdaşları ilə məcburi köçkünlər arasında insident yaşandı. Həmin qəsəbədə məskunlaşmış Kəlbəcər rayonundan olan köçkünlər etiraz əlaməti olaraq Gəncə-Göygöl avtomobil yolunu bağlamağa cəhd göstəriblər. DİN-in yaydığı məlumata görə, cəhdin qarşısı alınarkən Gəncə Şəhər Baş Polis İdarəsinin 5 əməkdaşı, orada olan Nizami Rayon İcra Hakimiyyətinin başçısı Nizami Hacıyev və müavini xəsarət alıb.**

❑ **E.HÜSEYNOV**

YENİ MÜSAVAT
N 14 (6042) 22 yanvar 2015

# Məhkuma verilən işgəncələr gizlədildi

## Elşad Babayevin ölümünə dair saxta rəy verildi - ürək tutması; qətli ilə bağlı vəzifə səlahiyyətlərini aşma maddəsi ilə cinayət işi başlanıb...



**Dekabrın 22-də Penitensiar Xidmətin 14 saylı Cəzaçəkmə Müəssisəsində dünyasını dəyişən məhkum Elşad Babayevin ölüm kazığı yaxınlarına təqdim olunub. Bu haqda "Yeni Müsavat"a məhkumun bacısı Simuzər Babayeva məlumat verib. S.Babayeva qardaşının ölüm səbəbinin saxtalaşdırldığını deyib: "Qaradağ Rayon Məhkəmə Tibb Ekspertizasının eksperti Cavid Əhədov ölüm kağızını mənə verdi. Ölüm kağızında yazıb ki, güya qardaşım ürək tutmasından - kardiomiopatiyadan ölüb. Mənim qardaşımın ölümünə səbəb ona verilən işgəncələrdir, döyülmə zamanı aldığı xəsarətlərdir. Onun ürəyi heç vaxt ağramayıb. Bunu ekspertə dedim. Ondan qardaşımın bədəni üzərindəki xəsarətlərin hansı şəraitdə almasını soruşdum. Ekspertin əlləri əsirdi, cavab verə bilmədi. Bu adamlar qardaşımı öldürənlərin cinayətinə şərik oldular".**

S.Babayeva qardaşının ölümü ilə bağlı bəzi detalları dəqiqləşdirə bilib: "Elşada işgəncəni dekabrın 13-də veriblər. Qardaşım ölümündən 10 gün əvvəl "do prixod" deyilən yerdə döyülüb, işgəncələrə məruz qalıb. Onu orada 10 gün betonun üstündə saxlayıblar. Vəhşicəsinə döyüb ağır vəziyyətə salıblar və orada saxlayıblar. Dekabrın 22-nə qədər qardaşıma çörək bir tərəfə, su belə verməyiblər. Sonradan onu ölümcül durumda "kars"a köçürüblər".

S.Babayeva qardaşının işgəncəyə məruz qalmasını görən məhkumların təzyiq altında olduğunu bildirib: "Bu işə şahidlik etmiş məhkumlara təzyiq edirlər. Azadlığa buraxılanlara da deyiblər ki, danışanları tutub türməyə salacağıq. Azadlığa buraxılan məhkumlara deyirlər ki, olimpiyadaya görə çox adamları həbs edəcəklər. Sizləri də geri qaytara bilərik".

S.Babayeva ekspertin rəyi ilə razı olmadığını, qardaşının ölümünə işgəncələrin səbəb olduğunu xatırladıb: "Döyüb, işgəncə verib Elşadı öldürüblər. Onu döyənlər orada ad çıxarıblar. Nəzarətçilər Firdosi, Faiq, Rahib xüsusi adam döyənlərdir. Bu gün də orada işləyirlər. Rahib məhkumlara işgəncə verdiyinə görə illər öncə bıçaqlanıb. Bu rəyi verməklə məhkəmə tibb-eksperti bu adamların cinayətinin ört-basdır olunmasında iştirak etdi. Amma bilsinlər ki, hər biri etdiklərnə görə qanun qarşısında cavab verəcəklər. Mən qardaşımın qanını yerdə qoyan deyiləm".

**Yada salaq ki, məhkum Elşad Babayevin ölümündən sonra onun meyiti Qaradağ rayon Məhkəmə Tibb Ekspertizasına aparılıb.** Bacısı S.Babayeva orada qardaşının fotolarını çəkib və ictimailəşdirib. İş üzrə araşdırma aparmalı olan istintaq orqanına də həmin fotoları təqdim edib. Yeri gəlmişkən qeyd edək ki, qətldən ötən 1 ay ərzində məhkumun ölümü ilə bağlı hansı maddə ilə cinayət işi başlanılması az qala dövlət sirri kimi gizlin saxlanır. Prokurorluq bununla bağlı sorğulara adekvat olmayan cavablar verməklə mahiyyətdən yayınır. Digər ictimai əhəmiyyətsiz işlərlə bağlı hansı maddə ilə və nə vaxt cinayət işi başlanmasını mediaya ötürən qurum Elşad Babayevin işində çox susqun, həvəssiz görünüb. İndi məlum olur ki, bu səbəbsiz olmayıb. Sorğulara verilən cavabla iş üzrə aparılan araşdırmanın yönü də demək olar ki, fərlənmir. Gizlədilən maddə Cinayət Məcəlləsinin 309.1-ci - vəzifə səlahiyyətlərini aşmadır. Elşad Babayevin işgəncələrlə öldürülməsini Qaradağ Prokurorluğunda məhz belə qiymətləndiriblər.

**Ədliyyə Nazirliyinin saytında yer alan Cinayət Məcəlləsində bu maddə belə təqdim olunur:**

309.1. Vəzifəli şəxs tərəfindən xidməti səlahiyyətlərinin hüdudlarından açıq-aşkar surətdə kənara çıxan hərəkətlər etməsi fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə, yaxud cəmiyyət və ya dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurduqda-

min manatdan iki min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə , əmlakı müsadirə olunmaqla üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Prokurorluq orqanının bir məhkumun döyülərək, işgəncə verilərək öldürülməsinə yanaşması ölkənin cəzaçəkmə yerlərində yeni qanlı cinayətlərə yol açacağı şübhəsizdir.

❑ E.MƏMMƏDƏLİYEV




# "Asan xidmət"də bıçaqlanma olub?

## 1 saylı ofisdə görünməmiş təhlükəsizlik tədbirlərinin bu səbəbdən həyata keçirildiyi deyilir; xidmətdən isə xəbərin doğru olmadığı deyilir

**1 saylı "Asan xidmət" mərkəzində (Həsən Əliyev 36 ünvanında yerləşən) görünməmiş təhlükəsizlik tədbirləri görülür. Bu haqda "Yeni Müsavat" qəzetinə oxuculardan biri məlumat verib. Onun sözlərinə görə, sözügedən "Asan xidmət" mərkəzinə daxil olmaq istəyən vətəndaşların üst-başı ciddi şəkildə yoxlanır, yalnız bundan sonra içəri buraxılırlar. Bu, "Asan xidmət" mərkəzi yaranandan ilk belə haldır. Vətəndaşlar yoxlamaların səbəbini soruşduqda isə bildirilib ki, burada hər zaman belə yoxlamalar həyata keçirilir.**

Ancaq indiyədək "Asan xidmət"ə yolu düşmüş hər bir kəsə məlumdur ki, bu xidmətə giriş-çıxış sərbəst olub, xüsusi təhlükəsizlik tədbiri görülməyib. Məlumatı redaksiyaya verən oxucunun məlumatına görə, təhlükəsizlik tədbirlərinin hansı məqsədlə həyata keçirildiyini araşdırdıqda belə məlum olub ki, təxminən bir həftə öncə ofisdə bıçaqlanma hadisəsi baş verib. Bir vətəndaşın "Asan" əməkdaşı ilə mübahisəsi bıçaqlaşma ilə yekunlaşıb. Zərərçəkən isə "Asan xidmət" əməkdaşının olduğu deyilir. Hadisə mətbuatdan gizlədilsə də, mərkəzdə təhlükəsizlik tədbirləri gücləndirilib.

Redaksiyaya verilən məlumatı dəqiqləşdirmək üçün Daxili İşlər Nazirliyinin mətbuat xidməti ilə əlaqə saxladıq. Ordan bildirildi ki, qurumda bu haqda informasiya yoxdur.

1 saylı "Asan xidmət" mərkəzinin yerləşdiyi Nərimanov rayonunun Polis İdarəsindən də zənglərimizə cavab verən olmadı.

**"Asan xidmət" mərkəzinin informasiya təminatı şöbəsinin rəhbəri Anar Hüseynov** bildirdi ki, mərkəzdə yoxlama tədbirləri artıq bir neçə aydır ki, davam edir və bıçaqlanma hadisəsi ilə bağlı xəbər həqiqəti əks etdirmir: "Bu tədbir sadəcə təhlükəsizlik məqsədilə həyata keçirilir. Çünki gün ərzində 2000-dən artıq vətəndaş "Asan xidmət"ə müraciət edir. Bu yoxlama tədbirləri bizdə bir neçə aydır tətbiq olunur və "Asan xidmət"in bütün mərkəzlərində eyni qaydada aparılır. Bizim mərkəzlərdə insanların üzərində metal əşya olub-olmamasını yoxlayan cihaz quraşdırılıb və bu işi mərkəz əməkdaşları deyil, Daxili İşlər Nazirliyinin Baş Mühafizə İdarəsinin əməkdaşları həyata keçirir. Ancaq hansısa vətəndaşın "Asan xidmət" işçisini bıçaqlaması ilə bağlı xəbər həqiqəti əks etdirmir və belə bir hadisə baş verməyib".

❑ Nərgiz LİFTİYEVA

**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət! **İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!** Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**

*Əyləncəli, sürətli, asan!*




*Klassik metodlardan fərqli olaraq, Siz passiv deyil, aktiv dinləyicisiniz!*

*Kursumuzun sizə vəd etdiyi bacarıqlar:*

- *İlk dərsdən son dərsə qədər ingiliscə danışmaq!*
- *Sözləri əzbərləməklə deyil onları istifadə edərək öyrənmək!*
- *Danışaraq sürətli qrammatika bilgisi əldə etmək!*
- *Əla tələffüz və güvənlə danışmaq*
- *Real ingiliscə söhbətlər*

BONUS english EXPLOSION *dərsləri kursumuz tərəfindən tələbələrimizə HƏDİYYƏ olunur!*

*Bakı şəhəri, Bünyat Sərdarov küç 2, ev 2.*
*(012) 492 61 75; (051) 433 46 87; (070) 806 56 63*
*(İçəri Şəhər metrosu, İran səfirliyinin yanı)*

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

**Başsağlığı**

**Müsavat Partiyası Cəlilabad rayon təşkilatı Akif Bədirli, Əlimahirbəy Meydanlı, Əlipənah Rzalı, Hidayət İsmayılov, Hacı Məmmədova bacısı Tofiqə xanımın vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

YENİ MÜSAVAT
N 16 (6044) 24 yanvar 2015



**Dosye: Nəzakət Zeynallı, ailəlidir, 2 övladı var. GIPA-da (Georgian Institute of Public Affairs) jurnalistika üzrə magistr təhsili alır. İnkişafa Doğru Qadın Təşəbbüsləri adlı İB-in və "Duyğu" Sosial Reabilitasiya İB-nin qurucularındandır. Gender problemlərinin mediada işıqlandırılmasında doğru və kompleks yanaşmanın formalaşdırılmasını təklif edir. Cəmiyyətdə müsbət dəyişikliklərin yalnız qadınının proseslərdə aktiv iştirakı ilə mümkün ola biləcəyinə əmindir.**

# Cəmiyyətin və dövlətin sahib çıxa bilmədiyi qadınlar

## Dünya Bankının məlumatına əsasən, 15-44 yaş arası qadınlar təcavüz və ailədaxili zorakılıqdan xərçəng, yol qəzaları, müharibə və malyariyadan daha çox zərər görür

Nüşabə Mehdiyeva (58), Səkinə Əliyeva (39), Minarə Salmanova (29) və Nisə Xəlilova (28).... Şəkildə gördüyünüz qadınlardan üçü artıq həyatda yoxdur. Onlar mənim, sənin, cəmiyyətin və dövlətin biganə münasibətinin qurbanlarıdır. Bu qadınlar dəfələrlə zorakılığa və işgəncəyə məruz qalmalarına baxmayaraq, müdafiə olunmayan və son nəticədə qətl edilən azərbaycanlı analardır. Onları öldürülmədən öncə tanımırdıq. Ancaq qonşuluğumuzda, qohumlarımız arasında tanıdığımız, döyülən, söyülən, təhqir və işgəncələrə məruz qalan Nüşabələr, Səkinələr, Minarələr, Nisələr hələ də az deyillər. Onlar hər an yuxarıdakı üçlüyün cərgəsinə düşmək üçün potensial namizədlərdir. Bəs biz onları necə müdafiə edə bilərik? Növbəti qurbanların olmaması, ailə faciələrinin yaşanmaması, anasız böyüyən uşaqlar sırasına yenilərinin əlavə olmaması üçün Sən, Mən, Biz NƏ EDƏ BİLƏRİK?

Cərgədə sonuncu foto uşaqlarının gözü qarşısında işgəncəyə məruz qalan Nisə Xəlilovaya məxsusdur. Onun həyat yoldaşı tərəfindən necə dəhşətli fiziki işgəncələrə məruz qalması (saçları qırxılıb, qulağı kəsilib) bir neçə gün TV və onlayn xəbər saytlarında əsas gündəm mövzusu olaraq qaldı. 9 ilin gəlini Nisə haqqında onlayn mediada gedən xəbərlərdə onun həyat yoldaşı tərəfindən mütəmadi olaraq zorakılıq hərəkətlərinə məruz qaldığı, döyülüb söyüldüyü, atası evinə yola salındığı vurğulanırdı. Yaxınları Nisə Xəlilovanın ailəsini dağıtmamaq, 2 uşağını atasız qoymamaq xətrinə işgəncələrə dözdüyünü qeyd edirdi. Xəbərlərdə diqqəti çəkən vacib məqam işgəncələrə məruz qalan qadının hər hansı əlaqədar dövlət strukturuna və ya QHT-yə müraciət etməməsi idi. Bəs səbəb nə idi? Adı çəkilən strukturların nümayəndələri bu sualı özlərinə verirlərmi?

Digər məsələ, baş verən hadisə ilə bağlı zərərçəkən tərəfin Astara Rayon Polis Şöbəsinə müraciətindən sonra başlanan cinayət işidir. Sevindirici hal olardı ki, ailənin yaxınlarından öncə, Ailə, Qadın və Uşaq Komitəsinin bölgədəki nümayəndəsi məsələyə hüquqi qiymət verərdi, bəyanatla çıxış edərdi, zərərçəkən qadına vəkil tutardı. Komitənin bu məsələdə fəaliyyətinin olub-olmaması haqda fikir söyləmək çətindir. Ortada olan fakt onlayn mediada mövzuya dair yazılan xəbərlərdə komitənin adının hallanmamasıdır. Təəssüflə qeyd etmək istədiyim digər digər hal isə news.milli.az saytının vurğuladığı məqamdır: "Çox təəssüf ki, dəfələrlə müraciətimizə baxmayaraq Astara Rayon Prokurorluğundan başlanan cinayət işi haqda bizə hər hansı açıqlama verilmədi". Azərbaycan cəmiyyətini sarsan ağır işgəncə hadisəsinin gündəmdən bu cür tez düşməsi, müzakirə olunmaması, hadisənin gedişatı haqda informasiya axınının "polis şöbəsi" yekun məntəqəsində qopması yeni işgəncələrə qapı açmırmı?

Qadına qarşı işgəncə və şiddətin azaldılması istiqamətində medianın rolu son dərəcə gözəçarpandır. Onlayn xəbər saytlarında qarşılaşdığımız "Düzünü de, sənin gəlinin yanında yad adam olanda niyə otağa girib, onu, yaxud gəlinini öldürmədin?" məzmunlu, "Arvadının başını qırxıb, qulağını kəsən ər: "Elə qadın ölməli idi" başlıqlı xəbərlər sizcə ölümlə nəticələnən yeni zorakılıq hallarına dəvət edə bilərmi?

Gender məsələləri üzrə beynəlxalq məsləhətçi Aysel Vəzirova medianın bəzi hallarda qadınlara qarşı zorakılıq faktlarından "sensasiya", maraq doğuran, tük ürpədən və oxucuların sayını artıran bir alət olaraq istifadə etdiyini qeyd edir. Eskpert mediada zorakılıq xəbərlərinin sayının artmasının, zorakılıq hallarının oxucunun gözündə adiləşməsinə səbəb ola biləcəyini vurğulayır.

"Bəzən zorakılıq patriarxal gender quruluşunun zəifləməsi, ənənələrin əldən getməsi ilə izah edilir. Halbuki jurnalistlərin əlində 30-50 il bundan öncəki dövrə aid statistik məlumatlar yoxdur. Məhz buna görə elmi əsaslı müqayisə aparıla bilməz. Bəzən də zorakılıq konkret ailədə baş verən akt kimi təqdim edilir, nə ondan əvvəl, nə də ondan sonrakı vəziyyət araşdırılmır. Xüsusi ilə polis məsələyə qarışandan sonra mövzu bağlanır, sanki kitab qapandı. Halbuki zorakılıq bir çox hallarda tək, müstəqil mövcud olan akt deyil, ondan qabaq və ondan sonrakı hadisələr zorakılığı, həmçinin onun davamını mümkün edir. Aysel Vəzirova jurnalistlərə zorakılıqla bağlı gender mütəxəssisləri tərəfindən ümumi təlimlərin verilməsinin zəruriliyini vurğulayır.

"Qadınlara qarşı zorakılığın azaldılmasında media iki funksiya daşıya bilər: 1) araşdırma; 2) problem haqqında əhali arasında ümumi məlumatlılığın artırılması. Üçüncüsü, əlavə funksiyadır ki, bunu xüsusilə vurğulamaq istərdim: zorakılıq qurbanlarına fikirlərini səsləndirməyə imkan vermək.

Media bu barədə geniş məlumat verib, hadisənin gedişatını, polisin, məhkəmənin, QHT-lərin, digər aidiyyati orqanların hadisələrdə rolunu mütəmadi işıqlandırıb, eyni zamanda tək-tük hadisələr arasında oxşarlıqlar varsa, ümumi model mövcuddursa, bu barədə yazmalıdır".

Hazırkı dövrdə yerli mediada qadına qarşı zorakılıq məzmunlu xəbərlərin sayında ciddi artım müşahidə olunur. Məqalə müəllifinin 2014-cü ilin yanvar-may ayları ərzində Azərbaycan onlayn mediasında yayımlanmış qadına qarşı 8 zorakılıq xəbərinin keyfiyyət və kəmiyyət təhlili aşağıdakı nəticələri ortaya çıxarmışdır:




1) Zorakılığın növü (fiziki, seksual, psixoloji və iqtisadi): 8 fiziki, 1 psixoloji -iqtisadi; 2) Yazıda qeyd olunan şiddət səbəbləri: a) ailə-məişət münaqişəsi -4; b) boşanma -1; c) qısqanclıq, içki, xəyanət-1, d) qaynataya qulluq etməmək, yola getməmək -1; e) qeyd olunmayıb -1; 3) Xəbər başlığı: Diskriminativ -1; Sensasional - 1; 4) Zərərçəkənin ifadəsi -1 (qeyd: ölümlə nəticələnən hallarda zərərçəkənin ifadəsi mümkün olmur. Lakin qurbanlar daha öncə dəfələrlə şiddətə məruz qalmışlar və bu medianın gündəminə düşməmişdir); 5) Əlaqədar təşkilatların gördüyü tədbirlər: Məlumat yoxdur (Qeyd: Polis təşkilatlarının faktla bağlı araşdırma apardığı, bəzi hallarda araşdırmadan çıxan nəticələr əks olunur); 6) Gender üzrə ekspertin rəyi: Heç bir məqalədə rast gəlinməyib; 7) Gender bərabərliyi haqqında bilgilər: Heç bir məqalədə rast gəlinməyib; 8) Cinayətkar a) içki-4; b) narkotik aludəçisidir-3; c) Xəbərdə qeyd olunmayıb - 3; 9) Zorakılıq hadisəsindən öncəki və sonrakı mənzərənin təsviri a) təsvir olunmayıb-4; b) qısa təsvir olunub-3 c) geniş təsvir olunub -1; 10) Zərərçəkənlə cinayətkar arasında əlaqə: a) indiki və ya keçmiş ər - 7; b) ögey oğul-1; 11) Övlad sayı - 13. (qeyd: 2 xəbərdə qeyd olunmayıb); 12) Ölümlə nəticələnən zorakılıq: 4



Xəbərlərdə zərərçəkənlərə dövlət strukturları və əlaqədar ictimai birliklər tərəfindən yardım göstərilməməsi və ya göstərilən yardımın xəbərdə əksini tapmaması faktı xüsusi narahatçılıq doğurur. Qadına qarşı zorakılıq nəticəsində qadın ölümlərinin statistikası və ya daha öncə baş verən oxşar hadisələr xəbərlərdə əksini tapmır.

Onlayn mediada gözdən daim yayınan digər məsələ isə qadın-kişi bərabərliyinin müzakirəyə çıxarılmaması və ya çox nadir hallarda müzakirəsidir. Qadın-kişi bərabərliyi prinsipinin unudulması qadına qarşı şiddət hallarının təməlini təşkil etsə də təəssüf ki, media gündəmində qabardılmayan mövzulardandır.

Xəbərlərdə sosial işçilərin və ya gender üzrə ekspertlərin rəylərinin qıtlığı də xüsusi gözə çarpır. Sektorda olan bütün qurumların jurnalistlərlə əlaqələrini gücləndirməsi dəyişiklərə doğru atılan addım olacaq. Zorakılıq xəbərləri məzmunca daha miqyaslı və faydalı olacaqdır. Jurnalistlərlə birgə fəaliyyət gender əsaslı şiddətin şahidlərin dediyinə dayanan və dəqiq formada oxucuya çatdırılmasına, qadına şiddət əleyhinə və gender bərabərliyinə səsləyən açıq mesajların ötürülməsinə xidmət edəcəkdir.

Yaxın partnyor tərəfindən şiddətə məruz qalma, cinsi əlaqəyə məcbur edilmə və təhqir edilmə dünya üzrə qadınların ən çox üzləşdiyi zorakılıq hallarıdır. Aparılan müxtəlif araşdırmalar, qətlə yetirilən qadınların yarısının hazırkı və ya keçmiş ərləri, yaxın partnyorları tərəfindən öldürüldüyünü ortaya çıxarmışdır.

Gender məsələləri eksperti Aysel Vəzirova isə hesab edir ki, şiddətə məruz qalan qadınların polisə müraciət etməməsinin ənənələr və psixologiya kimi səbəbləri olsa da əsas səbəb ölkədə zorakılıq qurbanları ilə institusional səviyyədə işləyən hökümət və qeyri-hökümət təkilatlarının əlaqələndirilmiş dəstək sisteminin olmamasıdır.

Aysel xanım Ailə, Qadın və Uşaq Komitəsinin bütün rayonlarda nümayəndəliklərinin olduğunu da vurğuladı. "Nümayəndəliklər var və kömək etməyə çalışırlar, müraciətlər də olur. Sadəcə, təkrar etmək istəyirəm ki, əlaqələndirilmiş sistem olmayanda, bu sistem institusional səviyyədə fəaliyyət göstərməyəndə, komitə işçilərinin işi də çox çətinləşir".

Yekun olaraq, qadına qarşı zorakılıq hallarının minimuma endirilməsi üçün əlaqədar qurumların (polis, uşaq, qadın, insan hüquqları təşkilatları) media ilə birgə işləməsinin, zorakılıqla mübarizədə vahid şəbəkənin yaranmasının həyati vacibliyi bir daha gündəmə gəlir.

*Yazı Rasional İnkişaf uğrunda Qadınlar Cəmiyyəti (RİQC) və D.Əliyeva adına Qadın Hüquqları Müdafiə Cəmiyyətindən ibarət Koalisiya tərəfindən icra edilən və ABŞ Beynəlxalq İnkişaf Agentliyi tərəfindən maliyyələşən Counterpart İnternationalın rəhbərlik etdiyi Qadın İştirakçılığı Proqramı çərçivəsində keçirilən «CEDAW ƏMƏLDƏ» adlı layihəsi üçün hazırlanıb.*

# YENİ MÜSAVAT

Son səhifə

N 16 (6044) 24 yanvar 2015




## 9 yaşlı əkizlər 6 ay evdə tək yaşayıblar

**Amerikada 9 yaşlı əkizlər 5 ay boyunca evdə tək yaşayıblar. Bu barədə lenta.ru saytı CNN kanalına istinadən yazıb. KİV-in yazdığına görə, uşaqların valideynləri 2014-cü ilin iyulunda Nigeriyaya gedib, onlara baxmağı isə uşaqların əmisi Qiobari Aturudan xahiş edilib. Əvvəlcə kişi söz verib ki, qardaşının evinə köçəcək. Amma 5 ay ərzində onlara həftədə cəmi 1 dəfə baş çəkib. Bu müddətdə isə uşaqlar daha çox hazır yeməklərə üstünlük veriblər.**

Onlar deyiblər ki, Aturu onlara səhərlər müstəqil oyanmağı, məktəbə getməyi və avtobusa gecikməməyi tapşırıb. Polislər isə bu barədə məktəb işçiləri vasitəsilə xəbər tutublar. Əkizlərin yaşadığı evə baş çəkəndən sonra hüquq-mühafizə orqanı əməkdaşları Aturunu həbs ediblər. Ona qarşı uşaqların həyatını təhlükə altına salmağa görə ittiham elan edilib. Kişi polisə deyib ki, qardaşı uşaqlarına öz telefon nömrəsini verib ki, hər hansı təhlükə halında onunla əlaqə saxlasınlar. Amma uşaqlar da bildirib ki, onların evində telefon işləmir. Uşaqlarının yarım ildir evdə təkbaşına yaşadığını öyrənən valideynlər də dərhal Nigeriyadan geri qayıdıblar.

## İlan zəhərindən yeni dərman

**Qara Mamba dünyanın ən sürətli və təhlükəli ilanlarından biri sayılır. Belə ki, bu ilanın vurduğu adam müalicə olunmasa, az sonra ölüm ehtimalı böyükdür. Qara Mamba bir dəfə çalması ilə 100 nəfəri öldürəcək qədər zəhərə sahibdir. Fransız alimlər bu zəhərin dərmana çevrilə biləcəyini kəşf edib. Belə ki, zəhərin tərkibindəki iki kiçik protein ən şiddətli ağrıları nəzarət altına alınmasını təmin edir. Morfin qədər təsirli olan və zəhərin içindən çıxarılan proteinler siçanlar üzərində pozitiv nəticə verib.**



Mambalgin adlanan proteinlərin üstünlüyü odur ki, onlar mövcud dərmanların təsir göstərmədiyi ağrılara da təsirlidir. O da morfin kimi ağrını kəsmə, amma orqanizmə zərər verməmə qabiliyyətinə malikdir. Dərmanın yan təsiri hələ ki, tapılmayıb. Bu kəşfin hələ ki, insanlar üzərində istifadəsi mümkün görünmür. Amma onun sayəsində ağrı müalicəsində yeni üsullar tapmaq mümkündür.

## Dünyanın ən xoşbəxt adamının... sirri açıldı

**Dünyanın ən xoşbəxt adamının xoşbəxtlik sirri alimləri hərəkətə keçirib. Visconsin Universitetinin əsəb xəstəlikləri mütəxəssisi Riçard Devidson Matieu Ricard adlı "ən xoşbəxt adam"ın başına 256 sensor yerləşdirib. 66 yaşlı buddist rahib Riçardın beyni ən kiçik hissəsinə qədər araşdırılıb. Çünki məqsəd bu xoşbəxt adamın xoşbəxtliyinin sirrini tapmaq idi.**

Araşdırma zamanı üzə çıxıb ki, Riçardın beynindəki şükür etmək və zövq almaq kimi sahələr anormal dərəcədə inkişaf edib və böyükdür. Beynin ön sol tərəfində isə neqativ hissləri dəf etməyə meylli və xoşbəxtlik verən geniş bir sahə var. Alimlər hesab edir ki, bu vəziyyət meditasiya ilə bağlıdır. Uzun müddət aparılan araşdırmalara görə, 50 min dəfə meditasiya etmiş insanların beynində fərqliliklər üzə çıxır. Mütəxəssislər hesab edir ki, 20 dəqiqəlik meditasiyanın da təsiri böyükdür. 24 yaşında həyatını buddizmə həsr etməyə qərar verən Matieu düz 40 il əvvəl Parisdəki həyatını tərk edərək Hindistana köçüb.





## Arıqlamaq istədilər, eybəcərləşdilər

**2 il əvvəl Ceykobun çəkisi 152,4 kiloqram idi. İndisə o arıqlayıb və 75 kq olub. Amma Ceykob arıqladığına əsla sevinmir. Onun bədəninin müxtəlif yerlərindən dəri sallanır, əzələləri jele təsiri bağışlayır. Mil.Az Daily Mail-ə istinadən bildirir ki, İngiltərənin Mançester şəhərində yaşayan 29 yaşlı Ceykob Malliqan sərt pəhriz və gündəlik məşqlər nəticəsində izafi çəkisindən qurtulsa da, yanlış addımlar atdığını etiraf edir. Onun çəkisi azalıb, mütəxəssis rəhbərliyi olmadan edilən məşqlər sonucunda dərisi sallanıb.**

Britaniyanın Channel 5 telekanalındakı "Botched Up Bodies" proqramında bu axşam Ceykobla yanaşı, onun kimi şəxslərdən, yeni izafi çəkidən qurtulmaq üçün pəhriz saxlayan və məşq edən, amma vücudlarını daha da pis edən şəxslərdən bəhs olunacaq. Belə şəxslərdən biri də 6 uşaq anası Syu Mak Manusdur. Syu da kökdü, tosqundu. Onun 137 kq çəkisi vardı.




**QOÇ** - Tərəfdaşlarınızla aranızda müəyyən mübahisələr olsa da, özünüzü təmkinli aparmalısınız. Deyilən hər sözə ciddi yanaşmayın. Yaxşı olar ki, bütün gücünüzü fəaliyyətə yönəldəsiniz.

**BUĞA** - O qədər də ürəkaçan olmayan maddi durumunuzu dirçəltmək üçün müəyyən imkanlar qazanacaqsınız. Büdcənizi artırmaq istiqamətində dəstək ala bilərsiniz. Kobudluğa yol verməyin.

**ƏKİZLƏR** - Əsas vaxtınızı istirahətə yönəltməyə çalışın. Hər hansı fiziki iş səhhətinizə mənfi təsir göstərə bilər. Bu gün cinsi yaxınlıq, ağır fiziki işlərə girişmək və səfərə çıxmaq sizin üçün yolverilməzdir.

**XƏRÇƏNG** - Saat 15-ə qədər hər bir görüşü təxirə salmağınız məsləhətdir. Əks təqdirdə gözlədiyiniz uğurlardan uzaq düşəcəksiniz. Özünə qapılmağa da dəyməz. Günün ikinci yarısını gözləyin.

**ŞİR** - Hər mənada uğurlu təqvimdir. İstər şəxsi büdcəni artırmaq istiqamətində, istərsə də işgüzar sövdələşmələrdə irəliləyişləriniz mümkündür. Amma məbadə falçı yanına gedəsiniz.

**QIZ** - Ulduzlar yalnız qarşılıqlı əlaqələr zəminində uğurlara yiyələnəcəyinizdən xəbər verir. Bu baxımdan gəzintiyə çıxmaq, qonaq getmək səmərəlidir. Riskli işlərdən yayının.

**TƏRƏZİ** - Bu gün istirahət etmək fikriniz çətin ki, baş tutsun. Əksinə, ikitərəfli sövdələşmələrə və yeni işlərə başlamaq lazımdır. Büdcənizdə artım da ola bilər. Axşama doğru mübahisələrdən uzaq qaçın.

**ƏQRƏB** - Bu təqvimdə bir qədər neytral mövqedə dayanmağınız məsləhət görülür. Nahardan sonra ciddi və riskli işlərə qol qoymayın. Çünki səhər saat 02:43-dən mənfi Ay bürcünüzdə meydan sulamaqdadır.

**OXATAN** - Astroloji göstəricilər günün birinci yarısını müəyyən qədər gərgin tərzdə başa vuracağınızı bəyan edir. Sonrakı müddətdə isə ətrafınızda olanların rəğbətini qazanacaqsınız..

**OĞLAQ** - Deyəsən, Göy qübbəsi əzablarınızı görüb sizə güzəştə getmək fikrinə düşüb. Bu səbəbdən də əksər məsələlərdə yardımçınız olmaqdadır. Səfərə çıxmaq və varlanmaq ehtimalınız da var.

**SUTÖKƏN** - Olduqca uğurlu təqvimdir. Ulduzlar bir tərəfdən əlverişli təkliflər alacağınızı, digər tərəfdənsə maliyyə uğurlarına nail olacağınızı bildirir. Hər mənada nikbin olmağa əsas var. Münasibətləri də qoruyun.

**BALIQLAR** - Maraqlı görüşlər yolunuzu gözləyir. Bu amil daha çox sevgi zəminində reallaşacaq. İş yerində isə həmkarlarınızla xırda mübahisələriniz gözlənilir. Çılğınlıqdan uzaq olun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Beyni olmayan uşaq 3 il yaşayıb

**Amerikanın Kolorado ştatındakı Pueblo şəhərində beyni olmadan dünyaya gələn möcüzə uşaq cəmi 3 il yaşayandan sonra ölüb. Həkimlər deyir ki, "beyinsiz uşaqlar" ya ölü doğulur, ya da doğulandan qısa müddət sonra dünyasını dəyişirlər.**



Nikolas Cok adlı uşaq cəmi bir beyin sapı ilə dünyaya gəlib. Onun 3 il yaşaması isə tibbi möcüzə kimi qiymətləndirilib. Nənə Şeri Kohut isə deyib ki, səhər oyananda nəvəsi çox çətinliklə nəfəs alırmış. Onu dərhal xəstəxanaya aparıb süni nəfəs aparatına qoşsalar da, üçüncü cəhddən sonra uşaq dünyasını dəyişib. Nikolas son şəkillərində bir balqabağa baxaraq gülümsəyirmiş: "O, bizə sevgini, ailə olmağı, əslində hər şeyi öyrətdi. Bizim qəhrəmanımız idi bu uşaq. Hər kəs tərəfindən göstərilən sevgi və şəfqət onu gücləndirdi və daha uzun yaşamasını təmin etdi".

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300